SONA CABBARLI



# ONU KİM UNUDAR

"XAN" XATİRƏ ƏDƏBİYYATI 1

xan nəşriyyatı

SONA CABBARLI

# ONU KİM UNUDAR

"XAN" Xatirə Ədəbiyyatı silsiləsindən I kitab

**Layihə rəhbəri:** Şəmil Sadiq
**Naşir:** Müşfiq XAN
**Redaktor:** Dilqəm Əhməd
**Mətn tərtibatı:** Rövşən Yerfi
**Dizayn və qrafika:** Teymur Fərzi
**Rəssam:** Vasif Səftərov



*Cəfər Cabbarlı*

**www.hedefnesrleri.az**
© Gənclik nəşriyyatı / 1979
© Hədəf Nəşrləri / 2014

## Onu unutmaq olarmı?

Tez-tez belə iddialar səslənir: Xarici yazarlar haqqında istənilən qədər xatirə mətnləri var, yoldaşı, dostu, anası, atası, hətta qonşusu ölümündən sonra, onun haqqında xatirlərini yazır, oxucular üçün zəngin materiallar təqdim edirlər. Bir çox hallarda isə, yazıçının özü sağlığında yaşadığı dö-nəm və öz həyatı haqqında zəngin bilgilər təqdim edir. Amma, bizim yazıçıların həyatında belə nü-munələrin olmadığı bildirilir. Biz, bu iddiaları rədd edirik və başlatdığımız layihədə sübutlarla bunun əksini göstərəcəyik.

Ümumiyyətlə,xatirələr nə qədər subyektiv olsa da, yazıçı deyilən anlayışa inandığımız üçün, memuarlarda kifayət qədər qiymətli bilgilər olur. Əlinizdə tutduğunuz bu kitab da, həmin zəngin xatirlərdən biridir. Və hələ ki, layihəmiz çərçivə-sində çap olunan ilk kitabdır.

Təqdim etdiyimiz "Xatirə ədəbiyyatı" seriyasından olan ilk kitab Azərbaycan ədəbiyyatında, teatrında, kinosunda önəmli yer tutan, çox erkən yaşda missiyasını başa vuraraq, ölümsüzlüyə yol alan Cəfər Cabbarlı haqqındadır. Xatirələri yazan isə, uşaqlığından ölümünə qədər onun yanında olan əmisi qızı və həyat yoldaşı Sona xanım Cab barlıdır.

"Xatirələr" Cəfərin uşaqlığından başlayır, onun ilk əsərləri, premyeraları, evliliyi, səfərləri, məktubları, dostları haqqında mühüm bilgiləri oxuculara təqdim edir.

Xatırladaq ki, Sona Cəfərin əmisi qızı idi və uşaqlıqları bir yerdə keçmişdi, həmçinin el adəti ilə ad eləmişdilər. 1922-ci ildə isə, ailə həyatı qurmuşdular.

...Beləliklə, xatirələrdən aydın olur ki, 1901-ci ildə Qafar kişi dolanışıq üçün ailəsini Xızıdan Bakıya köçürür.

Cəfər 1899–cu il martın 20-də Novruz bayramında anadan olmuşdu və ailənin sonbeşiyi idi. Bakıya köçdükdən iki il sonra, Qafar kişi dünyasını dəyişir, ailənin yükü xanımı Şahbi-kənin və böyük oğlu Hüseynqulunun üzərinə dü-şür. Şahbikə bir dövlətlinin evində aşbazlığa başlayır. Qazandığı hörmətə görə, sahibkarın xanımı Məkkə səfəri zamanı onu da, özü ilə aparır.

Cəfər ilk təhsilini Yuxarı Dağlıq küçəsindəki məsciddə Molla Ümnisənin yanında alır. Quranı bitirdikdən sonra, Bədəl bəyin məktəbinə daxil olur. Bu məktəbdə ona Mikayıl Müşfiqin atası Mirzə Qədir İsmayılzadə dərs deyir. Lakin, na-dincliyinə görə oradan qovulur, buna görə də, təh-silini rus-tatar məktəbində davam etdirir. Bu məktəbdə ona S.S.Axundov, A. Şaiq kimi şəxsiyyətlər dərs deyir.

Abdulla Şaiq sonralar xatirələrində yazacaqdı:

"Cəfər Cabbarlını hələ kiçik ikən, Bakının yeddinci şəhər məktəbində oxuduğu zamandan tanıyırdım. O, mənim ən çox sevdiyim şagirdlərimdən biri idi. O, ilk şeirini çox zaman hamıdan əvvəl mənə oxuyar, mənim göstərişlərim əsasında işləyərdi. Onda möhkəm iradə və nikbinlik vardı. Heç bir müvəffəqiyyətsizlik onu ruhdan salmaz, əksinə şeirlərinin üzərində daha səylə çalışmasına səbəb olardı. Məsləhət və göstərişləri o, çox asanlıqla qavrayar və əməl edərdi. Ehtimal ki, Cəfərin ilk şeirlərinin əksəriyyəti çap olunmamışdır."

Sona xanım Cəfərin ilk şeir təcrübələrini qohumların ailəiçi gündəlik davalarına həsr etdiyini yazır. Bu ərəfədə isə, Cəfər artıq sahibkarın yanından ayrılaraq, çörəkçiliklə məşğul olan anasının yanında işləyir, çörəklərin satılmasına kömək edir. Lakin, tezliklə böyük qardaşı Hüseynqulu-nun Bayılda dükan açması nəticəsində Şahbikə çörəkçilikdən imtina edir. Cəfər qardaşının düka-nında işləməyə başlayır.



Burada borc alanların si-yahısını tutur, axşamlar isə, dükanın yerləşdiyi binada dərs keçən rus dili müəlliməsindən dərs alır.
Cəfər bəy burada İsabəy Aşurbəyovun oğlu ilə dost olur, ona dərslərində kömək edir. Aşurbəyov Cəfəri tanıdıqdan sonra, öz hesabına onu da oğlu ilə birlikdə politexnikuma qəbul elətdirir. Cəfərin təhsil formasını Aşurbəyov tikdirmişdi.

Bu ərəfədə isə, Sona Hüseynqulunun qızı Törə ilə birlikdə Hənifə xanımın məktəbində oxuyurdu. Bu iki qız Dağlı məhəlləsindən məktəbə ge-dən ilk qızlar idi.

Cəfər ilk şeirlərini "Babayi – Əmir", "Molla Nəsrəddin", "Məktəb" jurnalarında çap etdirirdi. Bu şeirləri "Qəyyur-əyyar", "Şəbrəng-əyyar" və başqa təxəllüslərlə çap olunurdu.

Son tədqiqatlarda Cəfər Cabbarlının ilk şeirinin 1915-ci ildə "Məktəb" jurnalında çap edilən "Bahar" şeiri olmadığı vurğulansa da, Sona xa-nım da ilk şeir kimi onu qeyd edir:

"Cəfər jurnalın həmin nömrəsini evdə bizə göstərəndə, əvvəl heç nə başa düşmədik. Elə zənn etdik ki, Cəfər həmişəki kimi bizim üçün yenə şəkilli junal alıb. Vərəqləyib, şəkillərinə baxdıq. Bunu görən Cəfər jurnalı əlimizdən alıb, dedi:
- İndi ki, bilmədiz, onda dayanın, sizə bir şeir oxuyum və "Bahar" şeirini ucadan bizə oxudu.

Sona xanım ilk şeirlərini yazması ərəfəsində Cəfərin rəssamlığından da söz açır. Yazdığına görə, Cəfər "Molla Nəsrəddin" jurnalının şəkillərinin üzünü köçürür və ya hansısa əşyanı qarşısına qoyaraq, rəsmlərini çəkərdi. Sona xanım onun çəkdiyi "mis məcməi" rəsmini heyrətlə anladır.

Sona xanım Cəfərin ilk tamaşaya qoyulan pyesi kimi "Solğun çiçəklər" i xatırlayır.

"Tamaşaya mən də getmişdim, salon ağzı-na qədər adamla dolu idi. Pyes tamaşaçılara o qədər təsir etmişdi ki, hətta salonda ağlayanlar da vardı. Tamaşa zamanı Cəfəri atıb-tuturdular. Çiçək də gətirmişdilər. Bu zaman Cəfər politexni-kumda oxuyurdu " .

Qeyd edək ki, 1915-ci ildə Bakı Politexnik Məktəbinin elektromexanika şöbəsinə daxil olan Cəfər 1920-ci ildə buranı bitirir. Sonra, Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə daxil olur. Lakin, tezliklə ərizə yazıb, həmin fakültədən çıxır. 1923-cü ilin sentyabrından Cabbarlı səhnə aləmi və teatr tarixi ilə yaxından tanış olmaq məqsədilə, Bakı Türk Teatr Məktəbində mühazirələrə qulaq asmağa başlayır. Eyni zamanda, 1924-cü ildə Azər-baycan Dövlət Universitetinin şərq fakültəsinin ta-rix şöbəsində də təhsilini davam etdirir.

Bütün bunlardan əvvəl isə, onu ağır faciə gözləyirdi.

**Mart soyqırımı**

Xatirələr sovet dönəmində yazıldığı üçün, Sona xanım 1918-ci il mart güllələbaranında soyqı-rımı kimlərin törətməsini yazmasa da, həmin dö-nəmdə çəkdikləri məşəqqətləri anladır. Ermənilərin Bakıda törətdikləri qırğınlardan xilas olmaq üçün, ailə Bakıdan köçməyə məcbur olur: "Şəhərin iki kilometrliyindəki qayalara çatmamışdıq ki, bizi güllələyə tutdular. Qayaların üstü ilə böyük bir izdiham axışırdı. Kimi ağlayır, kimi acından yeri-yə bilmir, kimi yorulub yolda qalırdı. Başımızın üstündən vıyıltı ilə güllələr uçurdu " .



Sona Cabbarlı həmçinin Cümhuriyyət dö-nəminin də, üzərindən sükutla keçməyə məcbur olur.

"1919-cu ilin axırı idi. Cəfər "Aydın" pye-sini yazıb qurtarmışdı. Lakin, bu əsərin o zaman oynanıb-oynanılmaması yadıma gəlmir. Bundan sonra, 1920-ci ilə kimi Cəfərin nə işlədiyini deyə bilmərəm. Çünki o vaxtlar mənim uşaqlıq illərim olduğundan, həmin dövrləri bir qədər dumanlı xatırlayıram".

Cəfər isə, həmin ərəfədə Azərbaycan cüm-huriyyətinin parlamentində stenoqrafçı işləyir, ədəbi, mədəni camiədə öz uğurlarını davam etdirirdi. "Ulduz" və "Ədirnə fəthindən" sonra yazı-lan, Bakının işğaldan azad olunmasına həsr olu-nan "Bakı müharibəsi" dramını Sona xanım əsla xatırlamaya bilməzdi. Nuru paşanın ziyafətdə "Ədirnə fəthinin" müəllifini qucaqlayaraq, bağrına basmasını unuda bilməzdi. Üstəlik, Cəfər 1919-cu ildən Müsavat Partiyasının Bakı Komitəsinin üzvü idi. Cümhuriyyətin işğalından sonra da, "Gizli Müsavat"ın üzvü olaraq, qalırdı və bu fəaliyyətinə görə həbs olunmuşdu.

***

"Xatirələr" də Cəfərin yazıçı, dramaturq kimliyi ilə yanaşı, ailə başçısı kimliyi də, əks olunub. Cəfər Rusiyada olarkən, yazdığı məktublarda dəfələrlə Sona xanımın uşaqlar və məişət problemləri haqqında geniş yazmamasını qınayır, uşaqların adına yazdığı məktublarda onlarla qayğıkeş ata kimi davranır, onlara nə aldığını yazır. Qardaşı qızı Törəyə rol ifa etməsi üçün səhnədə nə cür davranmalı olduğunu deməsi, onu hazırlaşdırması Sonanın xatırladığı maraqlı anlardandır.

Sona xanımın yazdığına görə, Cəfər dost-larına qarşı çox qayğıkeş imiş. Yaxın dostlarını daim evlərinə apararmış, buna görə də evlərində həmişə yemək bişərkən dostları da, nəzərə alınır-mış.

Sona xanım Hüseyn Ərəblinskinin öldürülməsindən sonra, Cəfərin dərin sarsıntı keçirdiyini yazır. Onun öldürülməsini, həmçinin Azərbaycan teatrının böyük itkisi hesab edir:

"Oqtay Eloğlu" pyesi tamaşaya qoyulanda, Cəfər mənə dedi: - Kaş, Ərəblinski sağ olaydı, Oqtayı oynayaydı. Həqiqi Oqtayı o yarada bilərdi ".

Cəfər onun ölümü münasibətilə şeir yazmış, dəfn günü şeiri onun məzarı üzərində oxumuşdu. Sonralar da, dostlarına hər zaman Ərəblinskini örnək göstərirdi: "Dostlar, məndən inciməyin, əsl sənətkarlığı Hüseyn Ərəblinskidən öyrənmək lazımdır. Artistlərimiz onun ənənələrini davam etdirməlidirlər " .

1924-cü ildə Cəfər həm böyük qardaşı Hüseynqulunu, həm də anası Şahbikəni itirir. Anasını itirməsi ona ağır sarsıntı gətirir.

Sona xanımın xatirələrində maraqlı nüanslardan biri də, Cəfərin yazı prosesinə necə diqqətlə yanaşması, obrazların real həyatdan necə götürməsi, teatrda istifadə olunacaq paltarı uyğun bildiyi şəxsin əynindən pulu ilə təzəsini alıb dəyişdirməsi, gələcəkdə qəhrəmanı olacaq şəxslərlə necə söhbət etməsi, filmə çəkəcəyi obrazı yaradacaq qızın atasını razı salması kimi bir-birindən maraqlı xatirələri təqdim edir. Hətta "Almaz"da istifadə olunan tumanlardan biri Sona xanımın öz anasına məxsus idi.

Sona xanım xatırlayır ki, tamaşalar zamanı Cəfər izləyənlərin içərisində gəzir, dialoqlar za-manı onların verəcəyi reaksiyalara diqqət yetirirdi. Bəzən yazdığı pyeslər , tənqidçilərin ağır hədəfinə tuş gəlir, mövcud siyasi



atmosferə uyğun hesab edilmirdi. Məsələn, "1905-ci ildə" əsərini Sona xanım qeyd edir. Cəfər bununla bağlı fəhlələrin, tənqidçilərin önündə məruzə etməli olur.

Hətta Sona xanımın da, xatirələrdə təqdim etdiyi kimi, onun teatrda monopoliya yaratmaq iddiası ilə əleyhinə kampaniya başlananda, Cəfər Sovet Yazıçıları İttifaqının təşkilat komitəsinə aşağıdakı məzmunda məktub yazır:

"...Əgər bu doğru isə, mən dərhal teatrı tərk etməyə hazıram, təki onlar yazsınlar. Mən başqa müəssisələrə: 14 ildən bəri kimsənin heç bir şey yazmadığı və mənim bu il iki libretto yazmalı olduğum operaya; heç vaxt işləmədiyim və buna baxmayaraq, repertuarını mənim "1905-ci ildə", "Almaz", "Yaşar", "Sevil" pyeslərimi təşkil edən rus işçi teatrına; 14 ildən bəri kimsənin heç nə etmədiyi, mən isə özümü orada borclu saydığım Azərkinoya; habelə pyeslərimin əksəriyyəti oynanılan özbək, türkmən, tacik, tatar teatrlarında, fəhlə klublarında işlərəm, nəhayət, tamamilə yazmaya bilərəm, təki o yoldaşlar yazsınlar " .

Sona xanım Cəfərin ən çox üzərində işlədiyi əsər kimi "Od gəlini"ni qeyd edir. Təkcə Elxanın monoloqu üzərində üç gecə çalışdığını yazır. Ən qalmaqallı əsərlərdən biri də təbii ki, həmin ərəfədə çadra əleyhinə başlayan təbliğat fonunda "Sevil"dən sonra Sonanın adından qəzetə çadra əleyhinə məqalə verir. Sona bundan əsəbləşsə də, Cəfər ona durumu izah edir: "Axı başa düş ki, yaxşı olmaz, mən çadra əleyhinə əsər yazım, sən çadra örtəsən? Yaramaz axı!... " .

Və beləcə Sona xanım çadranı atır: "Belə-liklə, mən və Cəfərin qardaşı qızları Mələk və Törə Dağlı məhəlləsində birinci olaraq, çadranı at-malı olduq" .

"Sevil"in tamaşasından sonra isə, bu hal kütləviləşir: "Teatra çadralı gələn çoxlu qadın tamaşadan sonra evə çadrasız getdi" .

Cəfərin yazdığı pyeslərin mühüm bir uğu-ru da, yeni doğulan uşaqlara onun obrazlarının adının qoyulması idi. Oqtay, Elxan, Almaz, Yaşar, Qorxmaz, Gündüz kimi adlar...

Cəfərin gələcəyinə inandığı adamlardan biri də, Mikayıl Müşfiq idi. Sona xanım Cəfərin onun haqqında dediyi sözləri yazır: "Mikayılın coşğun təbi var; o, nadir bir istedaddır. Müşfiq böyük şair olacaq... "

H.Ərəblinskinin ölümünə kədərlənən Cəfər yaşasaydı, sonralar Müşfiqin necə haqsız yerə güllələnəcəyinə heç dözə bilməyəcəkdi.

Xatirələrdəki mühüm hissələrədən biri də, Cəfərin yazdığı məktublardır. Səfərləri boyunca Cəfər ailəsini teleqramsız, məktubsuz buraxmır, ehtiyacları olan pulu göndərir, öz gördüyü işlər haqqında məlumat verir, Sona xanımdan ətraflı cavab yazmasını tələb edirdi.

Xatirələrdəki digər mühüm məqam Cəfərin deputat fəaliyyəti ilə bağlıdır.

"Həmin ildə Bakı əməkçiləri onu Bakı so-vetinə deputat seçmişdi. İlk iclasdan nahara gec gəldi. Mən öz adətimcə, yenə gileyləndim: – Az işin var idi, birisi də bu yandan əlavə olundu. Cəfər yarıhənək, yarıgerçək dedi: – Bu daha hökumət işidir, Sonası, deputatlıqla zarafat etmək olmaz.

Və son...

M.Ə. Rəsulzadə keçmiş silahdaşı haqqında yazırdı:

"O, gənc yaşlarında, qüvvət və enerji ilə dolu ikən, 1934-cü ilin sonunda vəfat etdi. Onu dövlət hesabına dəfn etdilər. Azərbaycan komissarları onun tabutu başında növbəyə durdular və bununla onun kommunist deyilkən, kommunistliyi mənimsədiyini göstərmək istədilər. Kommunist olmadığını göstərən hadisələrdən biri də, onun Moskvada toplanan ədiblər qurultayında söylədiyi məşhur nitqdir. Bu nitqində o, "həqiqi sənətkar və yazıçıya yaraşmayan sosial sifariş" üsulunun, yəni şairləri hökümət tərəfindən müəyyən mövzularda yazmağa məcbur edilmənin əleyhinə çıxmışdır" .



Sona xanım xatirələr boyunca Cəfərin tez-tez ürəyinin xəstə olduğunu yazır, bir dəfə həkimin tələbindən sonra, siqaret çəkməyi tərgitməsindən, lakin Cəfərin qısa müddətdə buna əməl etməsini yazır. Məktublardan da aydın olur ki, Cəfər ağır iş rejmində çalışırdı. Bir tərəfdən özünün yazdığı əsərlərin, həmçinin digər əsərlərin tamaşala-rının hazırlanması, kinonun inkişafına çalışması, bütün bunlar yetməzmiş kimi, teatrda onun əleyhinnə monopolist yazar iddiası ilə kampaniyanın başlanması onu çox yorurdu.

Və nəhayət, bir gün dostları onu evə ağır halda gətirilər...

Ardını isə, lap əvvəldən Sona Cabbarlıdan dinləyək.

*Dilqəm Əhməd*



*Cəfər haqqında danışmaq – mənim üçün həm şirindir, həm acı... Ona görə şirindir ki, bu zaman ömrümün Cəfərlə keçən xoş günlərinə qayıdıram, sanki yenidən onunla üzbəüz oturub danışıram. Ona görə acıdır ki, bu xatirələrimin çətin bir döngəsində elə bil birdən şirin yuxudan ayılıram, Cəfəri qarşımda görməyib sıxılıram. Hər iki halda şiddətli həyəcan keçirirəm. Axı uşaqlıqdan bir yerdə böyüdüyün, birgə həyat qurduğun və tez, çox tez itirdiyin bir insandan, həm də Cəfər kimi həqiqətən gözəl bir insandan ürək ağrısız necə danışasan! Cəfərin surəti ürək ağrısı ilə birləşdikdə isə... artıq danışmaq mümkün olmur.*

*Bu səbəbdən də mən Cəfər haqqında xatirə yazmaq fikrində deyildim. Lakin dostların, tanışların, sadəcə olaraq Cəfəri sevənlərin, onun həyatı, yaradıcılığı ilə maraqlananların dönə-dönə etdikləri müraciətlər, hər dəfə mənimlə görüşdükdə verdikləri saysız sorğu-sual-lar zamanı dediklərim-danışdıqlarım unudulmaz xatirələr zəncir şəklində xəyalımda toplanırdı.*

*Bir gün yaxın rəfiqələrimdən biri məndən soruşdu:*



*– Sona, sən Cəfəri çoxdan tanıyırdın?*

*– Necə məgər? – deyə soruşdum.*

*– Elə-belə bilmək istəyirdim.*

*– Bəli, lap çoxdan, uşaqlıq illərindən.*

*– Onda Cəfər haqqında çox xatirə bilərsən.*

*– Əlbəttə...*

*– Bəs nə üçün xatirələrini yazıb bir kitabça halında nəşr etdirmirsən?*

*– Eh, sağ olmuş, – dedim, – məndə ürək hanı?*

*Rəfiqəm əl çəkmədi:*

*– Ürəyini ələ al, Sona, mütləq yaz. İnan ki, bu, Cəfərin özünə də xoş gələr!*

*Xəyala daldım...*

*Bəli, onun haqqında çox söz-söhbətim var. Əslinə qalsa, elə 60 illik bütün həyatım Cəfər haqqında xatirələrdən ibarət deyilmi? Nəinki onunla bir ailədə yaşadığımız 12 ildə, hətta evlənənəqədərki həyatımda da, xüsusən onun ölümündən sonra keçirdiyim 35 ildə mən bircə gün də, bircə an da Cəfərsiz olmamışam, onun əziz xəyalından uzaqda, xoş xatirələrindən kənarda qalmamışam. Ömrüm boyu Cəfər mənimlə yanaşı durmuş, həmişə hər zaman evimdə, otağımda, fikrimdə, qəlbimdə yaşamışdır. Axı... onu kim unudar!..*

*Bir də başqa cür ola bilərmi heç? Həyat yolda-şımın qısa həyatının hər günü, hər saatı mənim üçün unudulmaz hadisələrlə zəngindir. Mübaliğəsiz deyə bilərəm ki, Cəfərin qaynar həyatının, xüsusən ömrünün son dövrünün bircə günü – səhər sübhdən gecə keçənə qədər – qələmə alsan, maraqlı bir kitabça çıxar. Bütün otuz beş illik həyatını isə, təəssüf ki, mən yuxarıda bildirdiyim səbəb üzündən ardıcıl və ətraflı təsvir edə bilməyəcəyəm. Buna görə də tam olmayan bu xatirələrimdə nəzərə çarpacaq qırıqlıq üçün hörmətli oxucular məni bağışlasınlar.*

*Həmin xatirələri yazmaqda yeganə məqsədim – Cəfərin həyat və yaradıcılığını öyrənənlərə, əsərlərini tədqiq edənlərə, pyeslərini tamaşaya qoyanlara və onu sevə-sevə oxuyanlara azacıq da olsa, kömək etməkdir. Mən xatirələrimdə özümün görüb bildiklərimdən əlavə yaşca məndən böyük olan qohum və tanışlarımızdan Cəfər haqqında eşitdiklərimi də nəzərə almışam.*

*Bu kitabça Cəfərin həyat və yaradıcılığını öyrənənlərə az-çox yardım göstərərsə, məncə, bu, ölməz ədibimizə qiymətli bir xatirə olar.*



## I

Ata-baba yurdumuz Xızı kəndi uca dağla-rın, yaşıl meşələrin qoynunda yerləşir. Sərin suyu, təmiz havası, qaynar bulaqları, səfalı yaylaqları ilə məşhur olan bu gözəl kənd Bakının 110 kilometrliyindədir. İnqilabdan əvvəl ətrafdakı yerlər kimi Xızı da mədəniyyətdən uzaq tənha guşə idi. Kənddə bir nəfər də olsun savadlı adam tapılmazdı. Camaatın əsas məşğuliyyəti əkinçilik, maldarlıq və kömürçülük idi. Xızının hər tərəfi meşəlik olduğundan yerli əhali bir parça çörək pulu qazanmaq üçün başqa təsərrüfat işləri ilə bərabər, kürə basdırar, hasil olunan kömürü öküz arabaları ilə Bakıya, Şamaxıya aparıb satardı.

Bakıda "dağlı" adlanan xızılılar başqa kəndlilər kimi öz ruzilərini min bir əzab-əziyyətlə əldə edirdilər. Onların çoxu yaz, yay aylarını doğma kənddə öz təsərrüfatları ilə məşğul olur, az-maz azuqə toplayandan sonra, qışda müvəqqəti olaraq Bakıya köçürdülər. Bütün qışı mədənlərdə işləyir, qırçılıq edir, odun doğrayırdılar.

Belə ağır ehtiyac içində yaşayanlardan biri də bizim ailə idi. Babamız Cabbarın üç oğlu, dörd qızı olmuşdur. Cəfərin atası Qafar Cabbarın ortancıl oğlu idi.

Qafar da başqa dağlılar kimi əsas təsərrüfat işindən əlavə kömürçülüklə məşğul olurdu. Bir dəfə ağac kəsəndə odun parçası dəyib gözünü zədələmişdi. Bir qədər keçəndən sonra kişinin bir gözü tamam şikəst olmuşdu. Mən şəxsən onu görməmişəm, ancaq qohumlarımızdan eşitmişəm ki, Qafar bəstəboylu, üzügülər, rəhmdil bir kişi imiş. Onun arvadı Şahbikəni isə yaxşı xatırlayıram. Cəfərin anası ortaboylu, möhkəm bədənli, ciddi simalı, zəhmətkeş və qayğıkeş, qeyrətli bir qadın idi.



Azərbaycan Milli Kitabxanası

O zaman bizim qohum-əqrəbanın bütün üzvləri bir yerdə yaşayırdı. Ailəmizdə işləyən çox olsa da, güzəranımız yaxşı keçmirdi. Ona görə də Xızıdan Bakıya köçməli olduq.

Əmim Qafar 1903-cü ildə vəfat etdi. Bu ölüm, onsuz da güzəranı pis keçən ailənin vəziyyətini daha da çətinləşdirdi. Nə qədər ki Qafar kişi sağ idi, ara-sıra Xızıya gedir, kənddən kömür gətirib Bakıda satırdı. Doğrudur, bu həm ağır, həm də az qazanclı məşğuliyyət idi. Lakin yenə ailənin dolanacağı üçün az-çox kömək idi. İndi isə o da yox idi. Buna görə də Şahbikə İçərişəhərdə dövlətlilərdən birinin evində xidmət etməyə məcbur oldu. Onun bacarıqlı, işə can yandıran, təmizkar və səliqəli olduğunu görən sahibkar tezliklə Şahbikəni aşpazlığa keçirdi. Şahbikə sahibkardan aldığı zəhmət haqqı və gündəlik xörək payı ilə ailəyə kömək edirdi.

Şahbikə qulluq etdiyi evdə böyük hörmət qazanmışdı. O zaman həmin dövlətlinin arvadı (gərək ki, adı Xırda xanım idi) Məkkəyə gedirdi. O, Şahbikəni də özü ilə aparmaq istədiyini ona bildirmişdi. Əlbəttə, İslam dininin elə bir qatı dövründə bu səfərdən imtina etmək olmazdı. Şahbikə ailəni artıq, necə deyərlər, əli bir parça çörəyə çatmış böyük oğlu Hüseynquluya tapşırıb Məkkəyə yola düşdü.

Yoxsul ailəmiz Məkkədən qayıdan öz başçısını böyük sevinclə qarşıladı. Şahbikə indi hacı olmuşdu. Bu isə o zaman hər adama müyəssər olmayan böyük bir şərəf sayılırdı. Bütün məhəllə əhli onu Hacı Şahbikə çağırırdı. Şahbikə təkcə bizim ailənin deyil, bütün məhəllənin ağbirçəyi, məsləhətçisi idi.

Başqa xızılılar kimi bizim ailəmizdə də savadlı adam yox idi. Nəslimizdə şair, aşıq, xanəndə və başqa sənətkar olmamışdır. Təkcə bibim Zərnişan arabir, gördüyü



hadisələrə dair və ya ailə üzvlərinə şeirlər qoşardı. Qohumlardan eşidib yadımda qalanları bunlardır:

Tutuquşu havalarda dövr elər,
Həkim yoxdur yaralarım qövr elər.
Bir yanımı sən əymisən, zalım yar,
Bir yandan da qohum-qardaş cövr elər.

Və yaxud başqa qoşmalarından bir neçə bənd:

Yudum saçlarımı, atdım dalıma,
Ağlamasın anam, bacım halıma,
Nə gəlmişdi alagözlü yanıma?
Əsdi badi-xəzan aldı əlimdən!

Güzgüyə baxanda hamıdan düzəm,
Şıx-Sayad[1] içində bir alagözəm.
İstəyirəm qaçım, təkəm, yalqızam,
Xəbər verin yara mənim dilimdən.

Səhər-səhər xeymərəsdə göründüm,
Güllə dəydi, qarnım üstə süründüm,
Axşam çağı çarşafıma büründüm,
Mən ölürəm, Zərnişanım ağlasın.

Deyildiyinə görə, Cəfərin bibisi çox hazırcavab bir qadın imiş və bədahətən qoşmalar deyərmiş. Hətta bir dəfə Zərnişan haradansa kəndimizə gələn bir aşıqla deyişib və onu bu sözlərlə bağlayıb:

Ağacdan at eylərəm,
Xana barat eylərəm.
Sənin kimi aşığı
Mahnıda mat eylərəm.

---

[1] Ş ı x l a r və S ə y y a d l a r Xızı kəndinin iki qonşu qışlağıdır.

Əmim Qafarın beş oğlu, iki qızı olub. Qızları və bir oğlu körpə ikən ölüb. Sağ qalmış dörd oğuldan böyüyünün adı Hüseynqulu, ortancılın adı Heydər, ondan kiçiyininki Əjdərdir. Cəfər ailənin sonbeşiyidir. Buna görə də hamı onu çox sevirdi, xüsusən Şahbikə bütün uşaqlarından çox Cəfəri istəyirdi.

Cəfər 1899-cu ildə mart ayının 20-də, Novruz bayramı axşamı Xızıda anadan olub. 1901-ci ildə ailəmizlə birlikdə iki yaşlı Cəfər də Bakıya gətirilib.

Cəfər uşaqlıqda çox arıq, cılız idi. O, bir müddət mollaxanada, indiki yuxarı Dağlıq küçəsindəki məsciddə Molla Ümnisənin yanında oxudu. Elə ki Quranı başa vurdu, mollaxanadan çıxdı. Bir qədərdən sonra isə Bədəlbəyin məktəbinə girdi. Burada Cəfərin müəllimi o vaxtın görkəmli ziyalılarından biri sayılan həmyerlimiz Mirzə Qədir İsmayılzadə – məşhur şairimiz Mikayıl Müşfiqin atası olub.

Cəfər şuluqluq üstündə həmin məktəbdən qovuldu. Sonra o, rus-tatar məktəbinə daxil oldu. Burada Süleyman Sani Axundov, Abdulla Şaiq və başqa müəllimlər ona dərs deyirdilər. Rus-tatar məktəbində Cəfər yaxşı oxuyurdu. Amma yenə də nadinclik edirdi, xüsusilə tez-tez müəllimlərlə mübahisəyə girişirdi. Bir dəfə məktəb direktoru Cə-fərin böyük qardaşı Hüseynquluya demişdi: "Biz onun əlindən zara gəlmişik. Ancaq yaxşı oxuduğu üçün məktəbdən qovmuruq. Evdə ona bir az qulaqburması verginən" . Əlbəttə Hüseynqulu Cəfəri danlayırdı; ancaq o, öz bildiyindən əl çəkmirdi.

Məncə Cəfər ilk şeir təcrübələrinə də elə bu vaxtdan başlamışdır.

1911-ci ilin son günləri idi. Cəfər rus-tatar məktəbinin üçüncü sinfində oxuyurdu. Biz o zaman 4-cü Təzəpir küçəsində yaşayırdıq. Cəfərin Məşədi İbrahim adlı bir əmisi



var idi. Bizimlə bir həyətdə olur və mişarçılıq edirdi. Bir gün o, evə gələrkən nədənsə arvadı Şərabanı ilə savaşır və süfrəyə qoyulmuş dolmanı kasası ilə birlikdə çardağa atır. Bu hadisəni görən Cəfər oradaca bir şeir qoşur:

Məşədi İbrahim əmi çəkdi mişar, gəldi havar
Ərsəmi[1] dedi: kişi, ot yerində, sənlik nə var?
Quş ki pərvaz eləsə, pər vurar, ovlağa gedər,
Sındırıb kasasını dolması çardağa gedər.

1912-ci ildə Təzəpir küçəsindəki evimizi satıb, indi yaşadığımız Böyük Salyan küçəsinə köçdük. Cəfər məktəbi bitirəndən sonra, müəllimlərin səyinə baxmayaraq, təhsilini davam etdirə bilmədi, çünki ailəmizin onu oxutmağa imkanı yox idi. Cəfər də bikar gəzir, məhəllə uşaqları ilə gündə bir oyun çıxarırdı.

Bu zaman Hacı Şahbikə dövlətli evindən çıxmışdı və öz evimizdə çörəkçiliklə məşğul olurdu. O, evdə çörək yapır, Cəfərin və məhəlləmizdə yaşayan qohumumuz Ağarzanın vasitəsi ilə Qəssabbazardakı dükanlara göndərirdi. Yaxşı yadıma gəlir: Cəfərlə Ağarza Şahbikədən çörək alanda biri onu söhbətə tutur, o birisi ayağı ilə tərəzinin bir gözünü basırdı. Beləliklə, gündə Şahbikədən 3-4 çörək çırpışdırırdılar. Cəfər bunun puluna kitab alırdı. Biz Cəfərin qorxusundan bu sirri Şahbikəyə açmırdıq.

Çörəkçilik Şahbikəyə əl vermədiyindən, çox keçmədi ki, o, bu sənəti atdı. Həm də indi onun qazancına ailəmizin o qədər də ehtiyacı yox idi. Cəfərin böyük qardaşı Hüseynqulu Bayılda balaca bir dükan açmışdı və gündəlik qazancı ilə ailəmizi bir təhər dolandırırdı. Şahbikənin çörək bişirməkdən əl çəkməsi, Cəfəri də çörək satmaqdan xilas elədi. Bikarçılıqdan o, başqa uşaqlara qoşularaq, səhərdən-

---

[1] Ə r s ə m i – əmi arvadı

axşama kimi qonşu məhəllənin uşaqları ilə vuruşurdu. Adətləri üzrə bir gün yenə də "daşbadaş" gəlirmişlər. "Düşmən" dəstənin başında Həsən adlı bir mollanın oğlu dururmuş. Meydan qızışdıqda Cəfər Molla Həsənin oğlunu acıqlandırmaq üçün belə bir şeir qoşmuşdu:

Molla Həsən əzan verir,
Saqqalına nizam verir.
Ölü görəndə yan verir,
Halva görəndə can verir.

Cəfərin bu cür hərəkətlərini görən Şahbikə Hüseynquluya şikayət etdi. Hüseynqulu da Cəfəri Bayıla, öz dükanına işləməyə apardı. Cəfər dükanda haqq-hesab işlərinə baxır, borc mal alanların siyahısını tuturdu. Dükanın yerləşdiyi binanın üstündə bir rus dili müəllimәsi yaşayırdı. O, öz evində uşaqlara dərs verirdi. Cəfər də gündüzlər dükanda işləyir, axşamlar həmin müəllimənin yanında dərs keçirdi.

Burada Cəfər İsabəy Aşurbəyovun oğlu ilə dost olmuşdu. Cəfər ona dərslərində kömək eləyirdi. Bir gün, Aşurbəyovun oğlu Cəfəri öz evləri-nə qonaq aparıb atası ilə tanış edir. İsabəy Cəfərlə bir qədər söhbətdən sonra onun ağıl və fərasətinə heyran qalır və öz hesabına Cəfəri də oğlu ilə birlikdə politexnikuma qəbul etdirir. Həmin məktəbdə oxuyanlara məxsus formanı da Cəfər üçün Aşurbəyov tikdirmişdi.

O vaxtlar mən də Hüseynqulunun qızı Tö-rə ilə birlikdə Hənifə xanımın məktəbində oxuyurduq. Dağlı qızlarından ilk dəfə məktəbə gedən biz idik. Onu da deyim ki, bizim məktəbə getməyimiz ailəmizdə böyük mübahisəyə səbəb olmuşdu. Xüsusən Cəfərin ortancıl qardaşı Heydər buna qəti etiraz edirdi. Lakin ailənin böyük oğlu Hüseynqulu deyilənlərə etina etməyərək bizi məktəbə



göndərdi. Əslində isə bizim oxumağımızın səbəbkarı Cəfər olmuşdu, böyük qardaşını buna razı salan da o idi.

Həmin ilin yayında ailəmizlə birlikdə Bakının Saray bağlarına köçmüşdük. Cəfəri də politexnik məktəbdən yay tətilinə buraxmışdılar. O bizimlə bağda idi. Hansı əsər üzərindəsə işləyirdi. Burada bir otağımız vardı. Cəfər gündüzlər bizi evdən çıxarır, özü otaqda tək qalıb yazırdı. Evimizdə stol olmadığından o, yerə oturub arxasına 2-3 balış dayaq verər, dizlərinin üstünə karton qoyub işləyirdi. O zaman yazdığı 120-130 səhifəlik bir əsər hazırda Cəfər Cabbarlı adına Respublika Dövlət Teatr Muzeyindədir. İki gəncin sevgi macərasına həsr olunmuşdur. Nədənsə o, sonralar bu əsəri tamamlamaq istəməmiş (bəlkə də unutmuş), heç ona ad da qoymamışdır.

Cəfər o zamanlar daha çox məzəli şeirlər və həcvlər deyərdi. Ailə üzvlərimizin, demək olar ki, hamısının xasiyyətinə, danışığına, hərəkətlərinə, hətta bədən quruluşuna şeirlər qoşardı. Təəssüf ki, onların çoxunu unutmuşam. Bəziləri yadımdadır. Cavahir adlı bir dayım arvadı var idi, qarabuğdayı, gözəşirin bir gəlin idi. Cəfər onun üçün gülməli bir şeir yazmışdı. Bir dəfə Cəfər hara isə getmişdi. Mən də ondan gizlin bu şeiri dayım arvadına oxudum. Şeir Cavahiri yaman hirsləndirdi. Cəfər evə gələn kimi onunla savaşdı. Cavahirin hirsi yatandan sonra Cəfər mənimlə davaya başladı ki, nə üçün şeiri ona oxumuşam.

Bağdan Bakıya köçəndən sonra Cəfər yazdığı şeirləri "Babayi-Əmir", "Molla Nəsrəddin", "Məktəb" və başqa jurnallarda çap etdirirdi. Çox zaman bu şeirlər "Qəyurəyyar", "Şəbrəng əyyar" və başqa təxəllüslərlə çıxırdı. Ancaq onda Cəfərin şeir yazdığını ailəmizdə mənimlə Törədən başqa bilən yox idi. Bilsəydilər də oxuyan, şeirdən başı çıxan adam kim idi ki!..

Səhv etmirəmsə, Cəfərin ilk mətbu şeiri "Bahar"-dır. Bu şeir 1915-ci ildə "Məktəb" jurnalı-nın elan etdiyi müsabiqədə mükafat almış və jur-nalın 6-cı nömrəsində dərc edilmişdi. Cəfər jurnalın həmin nömrəsini evdə bizə göstərəndə əvvəl heç nə başa düşmədik. Elə zənn etdik ki, Cəfər həmişəki kimi bizim üçün yenə şəkilli jurnal alıb. Vərəqləyib şəkillərinə baxdıq. Bunu görən Cəfər jurnalı əlimizdən alıb dedi:

– İndi ki bilmədiz, onda dayanın, sizə bir şeir oxuyum – və "Bahar" şeirini ucadan bizə oxudu.

Cəfər o vaxtlar təzə-təzə papiros çəkməyə başlamışdı. Lakin bunu özündən böyük olan bütün ailə üzvlərindən gizlədirdi. Onun papiros çək-məsini yalnız mənimlə Törə bilirdik. Bolluca tütün, giliz almışdı. Mən Törə ilə onları gizlədir, ev xəlvət olanda Cəfər üçün papiros qayırırdıq. O da bunun müqabilində bizə müxtəlif şeylər bağışlayır, oxuduğu kitablardan danışır, gülməli şeirlər deyirdi. Dönə-dönə bizə tapşırırdı ki, onun papiros çəkməsini heç kimə bildirməyək.

Cəfər kitab oxuyanda, xüsusilə yazı yazanda çox papiros çəkirdi. Bir dəfə evdə oturub nə isə yazırdı. Həmişəki kimi yenə də papiros damağında idi. Birdən Hüseynqulu içəri girdi. Cəfər bunu hiss etmədi. Törə ilə mən təşviş içində bir-birimizə baxdıq. Biz Cəfərdən çox, özümüz üçün qorxurduq ki, bu sirri gizli saxladığımıza görə döyüləcəyik.

Cəfər Hüseynqulunu görən kimi papirosu yerə atıb, ondan üzr istədi. Hüseynqulu dedi:

– Daha niyə pərt olursan? Gərək əvvəldən çəkməyəydin. İndi ki başlamısan, gizlində çəkməyin mənası yoxdur. Əvvəl-axır bilinəcək. Mən sənə icazə verirəm.



Mənə elə gəlir ki, Cəfərin bir sıra şeirləri və "Pəri xanım" nağılının librettosu o illərin məhsuludur. Çünki o vaxtlar həmin nağıldan olan şeirləri bizim üçün tez-tez oxuyurdu.

Cəfərin şeir və hekayə yazmaqdan başqa rəsm çəkmək qabiliyyəti də var idi. "Molla Nəsrəddin" jurnalındakı şəkillərə baxaraq onların üzünü köçürür, bəzən qabağına bir əşya qoyaraq onun şəklini çəkirdi. Bir dəfə mis məcməinin rəsmini elə ustalıqla çəkmişdi ki, indi də həmin şəkil gözlərimin qarşısındadır. Ona gözəl naxışlar vurmuşdu. Cəfər bu adətini sonralar da davam etdirərək öz əsərlərindəki surətlərin rəsmlərini çəkirdi.

İllər ötüb keçirdi. Törə ilə mən qız məktəbini bitirib, Rəhilə xanımın məktəbinə daxil olmuşduq. Cəfər tez-tez yazı dəftərimizi yoxlayır, səhvlərimizi düzəldir, dərslərimizdə bizə kömək edirdi. O, məktəbimizə də tez-tez gəlirdi.

Biz sinifdə bir-birimizə yadigar vermək üçün albom düzəltmişdik. Rəfiqələr bir-birinin albomuna xatirə yazır, heç bir zaman bu dostluğu unutmayacaqlarına əhd-peyman bağlayırdılar. Məktəb yoldaşlarımızın yazdığı xatirələrin əksəriyyəti şeirlərdən, bayatılardan ibarət idi. Albomumuzun daha yaxşı olması üçün mənimlə Törə Cəfərdən xahiş etdik ki, bizim üçün xatirə yazsın. Törə üçün yazdığı xatirə belə idi:

Dəftərin ağ səhifəsində bu xətt
Bacılıq yadigarıdır, yazıram.
Ayırarsa zaman bizi bir gün
Bu ürək əksidarıdır, yazıram.

İstərəm bir sevimli istiqbal,
İstərəm daima səadətini.
Tanrıdan mən bunu niyaz edərəm

Mənə qismət edə rəfaqətini.

Amma mənim üçün yazdığı xatirənin ilk misralarını oxuyan kimi albomu cırdım. Yadımda qalanı budur ki, həmin şeir belə başlayırdı:

Sən ol qədr ki mən pak ürəkdən sevirəm,
Sevəcək başqa bir insan desələr, doğru deyil.

"Doğru deyil" sözü məni şübhələndirdi. Öz-özümə düşündüm ki, necə yəni doğru deyil, necə yəni mən sevilməyə layiq deyiləm? Buna görə də şeiri cırıb Cəfərin üstünə atdım. O gülümsəyərək dedi:

– Sən indi belə şeyləri başa düşməzsən, böyüyəndə bilərsən.

Cəfər ilk pyeslərini 1915–1916-cı illərdə yazmağa başlamışdır. Səhv etmirəmsə, ilk dram əsəri "Vəfalı Səriyyə"dir ki, 1915-ci ildə yazmışdır. Onun ardınca "Solğun çiçəklər", "Nəsrəddin şah" (1916–1917-ci illər) pyeslərini yazmışdır. "Aslan və Fərhad", "Mənsur və Sitarə" hekayələri də bu dövrün məhsuludur.

Cəfərin ilk dəfə hansı pyesinin nə vaxt, harada oynanıldığını qəti deyə bilmərəm. Ancaq bu yadımdadır ki, "Solğun çiçəklər" ilk dəfə indiki Azərbaycan SSR Elmlər Akademiyasının binasında tamaşaya qoyulmuşdu. Tamaşaya mən də getmişdim. Salon ağzına qədər adamla dolu idi. Pyes tamaşaçılara o qədər təsir etmişdi ki, hətta salonda ağlayanlar da vardı. Tamaşa zamanı Cəfəri atıb-tuturdular. Çiçək də gətirmişdilər. Bu zaman Cəfər politexnikumda oxuyurdu.

1917–1918-ci illərdə Bakıda vəziyyət ağır idi. Rusiyada inqilab olmuş, Nikolay taxtdan salınmışdı. Hələ ölkədə asayiş tamam bərpa olunmamışdı. Bakıda da tez-tez atışma olurdu. Evimiz şəhərin yuxarı hissəsində olduğundan atılan güllələr və mərmi qəlpələri bizim dağlı məhəlləsini



döyəcləyirdi. Atışma evlərimizin yuxarısında olan "Ceyran bağçasında" getdiyindən, qapı-pəncərələri möhkəm bağlamışdıq. Həmin günlər heç kim bayıra çıxa bilmirdi. Belə şəraitdə Bakıda qalmaq, əlbəttə, qorxulu idi. Həm də dükan-bazar bağlanmış, alış-veriş kəsilmişdi. Əhali aclıq çəkirdi. Atışma ara verəndə camaat dəstə-dəstə şəhərdən çıxır, müvəqqəti olaraq yaxın kəndlərə köçürdü. Hamı var-yoxunu şəhərdə qoyub canını xilas etməyə çalışırdı.

Biz də başqa ailələr kimi Bakıdan çıxmağı qət etdik. Lakin Hüseynqulunun arvadı Zinyət ağır xəstə olduğundan yubanırdıq. Evdə də qalmaq mümkün deyildi. Hüseynqulu bizi məhəlləmizdəki qar anbarına apardı. Xəstəninsə halı daha da ağırlaşırdı. Axırda belə qərara gəldilər ki, Cəfər və anası Şahbikə mənimlə Hüseynqulunun qızlarını şəhərdən çıxarıb Xızıya aparsınlar.

1918-ci ilin mart ayı idi. Səhər saat 11 radələrində ara azca sakitləşmişdi. Məhəlləmizdə yaşayan bir neçə ailə ilə birlikdə şəhərdən çıxdıq. Xırdalana sarı gedirdik. Şəhərin iki kilometrliyindəki qayalara çatmamışdıq ki, bizi güllləyə tutdular. Qayaların üstü ilə böyük bir izdiham axışırdı. Kimi ağlayır, kimi acından yeriyə bilmir, kimi yorulub yolda qalırdı. Başımızın üstündən vıyıltı ilə güllələr uçurdu. Bizimlə bir yerdə gedən qonşumuz Məşədi Əbdülkərim kişi qıçından yaralandı. Onu araba ilə geri qaytardılar. Hamı güllənin bu saat ona dəyəcəyini gözləyirdi. Qaçaqaç düşdü. Cəfər bizim əlimizdən tutdu. Şahbikə nəvəsi balaca Mələyi arxasına sarıdı. Sürətimizi artırdıq. Tezliklə Bakının kənarındakı dağların ətəyinə çatmağa çalışırdıq ki, bəlkə orada canımızı gülllədən xilas edək. Nəhayət, özümüzü dağların döşünə saldıq. Artıq buraya güllə gəlib çatmırdı. Bir az istirahət edəndən sonra yenidən yola düşdük. Toran düşəndə kəndə çatdıq. Daha yeriyə bilmirdik, bərk

yorulmuşduq. Həm də gecə vaxtı yol getmək təhlükəli idi. Xocahəsən kəndində gecələməli olduq. Burada nə bir tanışımız, nə bir qohumumuz var idi. Şəhərdən çıxan adamların hamısı burada gecələyirdi. Ev tapmaq çox çətin idi. Hər evdə azı iyirmi nəfər adam vardı.

Cəfər bir kişidən xahiş etdi ki, gecə onun evində qalmağa razılıq versin. Ev sahibi icazə verdi. Heç kimin gözünə yuxu getmirdi. Hamı səbirsizliklə səhərin açılmasını gözləyir, tezliklə uzağa qaçmaq istəyirdi. Qorxurduq ki, dava gəlib buraya da çıxar. Gecələdiyimiz evdə bizdən başqa daha 10-15 nəfər şəhərli var idi. Birtəhər sabaha qədər dözdük.

Səhər tezdən Xırdalana sarı yollandıq. Yollar qorxulu olduğundan çöllərlə gedirdik. Taqətdən düşmüşdük. Daş-kəsək, kol-kos ayaqlarımızı cızırdı. Cəfər tez-tez bizə ürək verərək: "Hə, az qalıb, çatmışıq" – deyirdi.

Axşamüstü Xırdalana çatdıq. Məqsədimiz burada qatara əyləşib Qılızı stansiyasına, oradan da Xızıya getmək idi. Lakin Xırdalan stansiyasında dedilər ki, eşelon bir neçə saat qabaq yola düşüb. Sabahı gözləməli olduq.

Xırdalanda adını unutduğum bir nəfərin evində gecələdik. Həmin evdə məzəli bir qonaq vardı, o da biz dərddə idi. Cəfər onunla söhbətə girişdi. Elə ləzzət və maraqla danışırdılar ki, elə bil, neçə ilin tanışlarıdırlar. Onların söhbətindən xoşhal olan ev sahibi, əvvəl bizi evinə buraxmaqda tərəddüd etdiyi üçün xəcalət çəkdi.

Eşelon səhər saat 7-də yola düşəcəkdi. Biz səhər saat 5-də durub yük qatarına doluşduq. Cəfər bizi anasına tapşırıb çörək almağa getdi. O, stansiyadan bir qədər aralanmışdı ki, qatar vaxtından əvvəl yola düşdü. Biz ağlamağa başladıq. Qatar sürətini artırdı, Cəfərdən ayrı düşdük.



Çox keçmədi ki, Qılızı stansiyasına çatdıq. Stansiyada əyləşib saat 3-ə kimi Cəfəri gözlədik. Ancaq ondan soraq verən olmadı. Qılızıda qohumlarımızdan birinə rast gəldik. Başımıza gələn əhvalatı danışdıq. O, bizi yaxındakı Upa kəndinə, öz evinə apardı. 5-6 gün sonra Cəfər şəhərdə qalan ailə üzvlərimizlə birlikdə Upaya gəldi. Dedi ki, şəhərə gələnlərdən bizim Upaya aparıldığımızı eşidib, ona görə çox narahat olmamışlar. O, 10-15 gün kənddə qalıb yenə Bakıya qayıtdı.

İki aydan sonra xəbər gəldi ki, şəhərdə sakitlikdir. Biz geri döndük. Həqiqətən Bakıda dava dayanmışdı.

Bir müddət keçəndən sonra yenidən vuruşma başlandı. Biz yuxarı məhəllədən şəhərin içərisinə, qohumlarımızdan birinin evinə köçdük. 5-6 gün də burada qaldıq. Vuruşma get-gedə qızışırdı. Yenidən Bakıdan çıxmağa məcbur olduq. Cəfərin ortancıl qardaşı Heydər bizi barkasla Qılızı bağlarına apardı. Burada bəhər alıb iki ay bağda qaldıq.

Ara sakitləşəndə bağdan şəhərə köçdük. Cəfər yenə də sənaye politexnikumunda oxuyurdu; mənimlə Törə də təhsilimizi davam etdirirdik.

Həmin vaxtlara aid olan maraqlı bir hadisəni də qeyd etmək istəyirəm. Məhəllə ağsaqqalları Cəfərdən xahiş etmişdilər ki, məhərrəmlik vaxtı məsciddə oxumaq üçün bir mərsiyə yazsın. Böyük qardaşları da təkid etdiklərindən, Cəfər boyun qaçıra bilməyib yazdı. Ancaq həmin mərsiyə adi mərsiyələrdən deyildi və onun məsciddə oxunması gözləndiyinin tam əks təsirini verdi.

Cəfərin yazdığı mərsiyə belə idi:

Gülzarı-vətən soldu,
Millət xari-zar oldu,
Hamı payimal oldu,
Dur, ey xar olan millət!

Pullularımız qafil,
Alimlərimiz cahil,
Oldu elimiz zayil,
Dur, ey xar olan millət!

Bir yandan ədu cəllad,
Bir yan naləvü-fəryad,
Ol bu zülümdən azad,
Dur, ey xar olan millət!

Əl çək bu həqarətdən,
Qurtar bu əsarətdən,
Xar ol bu xəcalətdən,
Dur, ey xar olan millət!

O zaman məscidlərə məhəllə adamları dəstə-dəstə gedirdilər. Bir gün bizim məhəllənin dəstəsi indiki Yuxarı Dağlıq küçəsində olan Hacıbaba məscidində Cəfərin bu mərsiyəsini oxuyur. Mərsiyəni eşidən axundlar, mollalar, qoçular, dövlətlilər, hətta bəzi ziyalılar qeyzə gələrək, Dağlı məhəlləsinin dəstəsi ilə vuruşmağa başlayırlar. Onlar mərsiyəni yazanı tələb edirdilər. Bizim məhəllənin adamları mərsiyənin Cəfər tərəfindən yazıldığını demirlər. Azı on beş-iyirmi gün bu mərsiyənin üstündə böyük mübahisə getdi. Nəhayət, həmin mərsiyənin oxunması qadağan olundu.



1919-cu ilin axırı idi. Cəfər "Aydın" pyesini yazıb qurtarmışdı. Lakin bu əsərin o zaman oynanılması yadıma gəlmir. Bundan sonra 1920-ci ilə kimi Cəfərin nə işlədiyini də deyə bilmərəm. Çünki o vaxtlar mənim uşaqlıq illərim olduğundan həmin dövləri bir qədər dumanlı xatırlayıram.



1920-ci ildə XI Qızıl Ordu Bakıya daxil oldu. Şəhərin hər yerində "Fəhlə-kəndli hökuməti qurulub" – deyə camaat şadlıq edirdi. Təzə hökumət yoxsulların, kimsəsizlərin qeydinə qalır, onları təmənnasız müdafiə edirdi. Qızıl əsgərlər camaatla mehriban dolanır, Azərbaycan dilini bilməsələr də, öz qardaşlıq hisslərini müxtəlif vasitələrlə göstərirdilər. Onlar camaat arasında o qədər hör-mət qazanmışdılar ki, nəinki dövlətli kasıbın üstünə, hətta evdə kişi öz arvadının üstünə qışqıra bilmirdi. Bir sözlə, yeni hökumət əməkçilərin ən yaxın dostu idi. Sovet hökuməti camaata un və başqa ərzaq paylayırdı. Bizim məhəllədə yaşayan adamlara da un vermişdilər. Evlərdə toy-bayram idi. Əvvəllər rus soldatı adını eşidəndə qorxuya düşən camaat, indi onları evlərinə qonaq çağırırdı.

Qızıl Ordunun hissələri məhəllə küçələrinə, dalanlara düşmüşdülər. Onlar burada xörək bişirir, burada yeyir, burada qurduqları alaçıqlarda yatırdılar. Bizim həyətin yanındakı dalana da bir dəstə qoşun düşmüşdü. Onlar bizimlə elə mehriban dolanırdılar ki, elə bil uzun illərdən bəri bir-birimizi yaxşı tanıyırdıq. Anam Zeynəb, Cəfərin anası Şahbikə və başqa qohumlarımız beş-altı yerdə ocaq qalayaraq onlar üçün yayma bişirirdilər. Cəfəri də tez-tez onların arasında görmək olurdu. Cəfər rus dili bildiyindən onlarla danışır, nəyə ehtiyacları olduğunu məhəllədəkilərə deyirdi.

Beləliklə, Bakıda asayiş bərpa olundu. Cəfər həmin ildə politexnikumu bitirdi. Mənimlə Törə də Rəhilə xanımın məktəbini qurtarmaq üzrə idik. O münasibətlə gərək ki, mərhum Süleyman Sani Axundovun adını unutduğum bir



pyesinin bir pərdəsini tamaşaya hazırlayırdıq. Əsərdəki rolları məktəbin qızları arasında bölüşdürmüşdülər. Oğlan rollarını da qızlar oynayırdı. Mənə qulluqçu rolu verilmişdi. Törə isə Xanımqız rolunu oynayacaq idi. Bu rolu iki nəfərə tapşırmışdılar. Müəllimə deyirdi ki, kim rolu yaxşı hazırlasa, tamaşa günü o oynayacaq.

Törə öz rolunu ifa etməkdə çətinlik çəkirdi. Sara adlı bir qız isə rolu ondan yaxşı hazırlayırdı. Bu, Törəni çox narahat edirdi. Tamaşa axşamına beş gün qalırdı. Məşqlərin birində müəllimə Törəyə dedi:

– Sara səndən yaxşı oynayır, rolu o ifa edəcək.

Bu, Törəyə çox ağır gəldi. Biz məktəbdən evə qayıdanda Törənin pərt olduğunu görən Cəfər bunun səbəbini xəbər aldı. Törə dedi:

– Rolumu yaxşı ifa edə bilmirəm.

Cəfər soruşdu:

– Nə rol?

Törə məsələni danışdı. Cəfər gülüb dedi:

– Bununçün fikir eləmə. Mən səni elə öyrədərəm ki, rolu o qızdan yaxşı oynayarsan.

Bu gündən başlayaraq Cəfər, Törə və mənimlə məşq etdi və üç günə bizi hazırladı. O, bizə deyirdi ki, səhnədə oyun çıxarmayın, özünüzü sərbəst aparın, elə bilin ki, ifa etdiyiniz surətin başına gələn hadisələr sizin öz başınıza gəlir.

Məktəbdə axırıncı məşq zamanı Törə rolu Saradan yaxşı oynadığı üçün səhnəyə çıxmağı ona tapşırmışdılar.

Bundan əlavə gecədə Törə ilə Böyükxanım adlı bir qıza Mirzə Ələkbər Sabirin "İki həpənd" şeirini deklomasiya etməyi tapşırmışdılar. Bu şeiri necə oxuyub, səhnədə necə hərəkət etməyi də Cəfər Törəyə öyrətdi. Cəfər məşədilərə

aid paltar tapıb Törəyə geydirdi və özü məşqdə ikinci məşədi rolunu ifa etdi:

– Nə xəbər var, məşədi?

– Sağlığın.

– Az-çox da yenə?

– Qəzet almış Hacı Əhməd də.

– Pah oğlan, nəmənə?..

– Bu isə bəs o ləinin də işi qullabıdır.

Dini, imanı danıb, yoldan azıbdır, babıdır...

Cəfərin səyləri sayəsində bu dialoqları Törə elə məharətlə söyləyirdi ki, sanki səhnəyə həqiqətən bir məşədi çıxmışdı. (Sonralar həmişə Cəfər evə gələndə Törə onu "Nə xəbər var, məşədi?" – sözləri ilə qarşılardı.)

Gözlədiyimiz gün gəlib çatdı. Keçmiş İsmailiyyə binasında tamaşa göstərdik. Tamaşa valideynlər üçün idi. Hətta bir qədər bilet də satılmışdı. Cəfər də bir valideyn kimi tamaşaya gəlmişdi. Bu, ilk dəfə azərbaycanlı qızları tərəfindən göstərilən tamaşa idi. O, gözlənildiyindən çox müvəffəqiyyət qazandı. Xüsusən Sabirin "İki həpənd" şeiri valideynlərin çox xoşuna gəldi. Tamaşaçılar ilk dəfə səhnəyə çıxan azərbaycanlı qızlarını dönə-dönə alqışladılar.

1921-ci ildə Cəfər "Oqtay Eloğlu" dramı üzərində işləyirdi. O, şəxsən çox sevdiyi bu əsəri xalqımızın böyük faciə aktyoru Hüseyn Ərəblinskiyə ithaf etmişdi. Həmişə teatrdan, aktyor sənətindən söhbət düşəndə Cəfər mütləq Ərəblinskidən danışardı. "Oqtay Eloğlu" pyesi tamaşaya qoyulanda Cəfər mənə dedi:

– Kaş Ərəblinski sağ olaydı, Oqtayı oynayaydı. Həqiqi Oqtayı o yarada bilərdi.

Bu zaman Cəfərin gözləri yaşardı.

Azərbaycan səhnəsinin parlaq ulduzu Hüseyn Ərəblinskinin öldürülməsi xəbəri Cəfərə çox ağır təsir



göstərmişdi. Hətta Cəfər onun ölümü münasibətilə bir şeir yazmış və Ərəblinskinin dəfn günü şeir mərhumun məzarı üstündə oxunmuşdu. Sonra həmin şeir "Azərbaycan" qəzetində dərc edilmişdi.

Sonralar Cəfər öz yaxın dostları olan İsmayıl Hidayətzadə, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Məmməd Əlili və başqaları ilə söhbət edəndə Hüseyn Ərəblinskini böyük ürək yanğısı ilə xatırlayıb deyərdi:

– Dostlar, məndən inciməyin, əsl sənətkarlığı Hüseyn Ərəblinskidən öyrənmək lazımdır. Artistlərimiz onun ənənələrini davam etdirməlidirlər.

1921-ci ildə Azərbaycan Dövlət Dram Teatrında Cəfərin "Aydın" əsəri tamaşaya qoyuldu. Bu, Cəfərin Sovet hakimiyyəti illərində oynanılan ilk pyesi idi.

Tamaşaya çoxlu adam gəlmişdi. Tənəffüslərin birində teatr kollektivi Cəfəri səhnəyə çıxarıb tamaşaçılarla birlikdə uzun-uzadı alqışlamışdı. O, birinci dəfə idi ki, çəkdiyi zəhmətin belə təntənəsini görürdü. Öz hisslərini büruzə verməməyə çalışsa da, aydın görürdüm ki, gənc dramaturqumuz ürəkdən sevinir.

Yuxarıda qeyd etdiyim kimi, Cəfər mənim dost-doğma əmim oğludur. Qədim azərbaycanlıların adətincə bizi körpəlikdən bir-birimizə ad eləmişdilər. Nə qədər ki, uşaq idim, ağlım bir şey kəsmirdi, Cəfərlə yaxın dost idim. Böyüyəndən sonra ona adaxlı olduğumu bildikdə Cəfərdən qaçmağa başladım. Düzü bu mənə birtəhər gəlirdi. Evdəkilər də bu hərəkətimi hiss etmişdilər və həmişə üzümü danlayıb deyirdilər:

– Nədən utanırsan, ay qız? Öz əminoğludur da. Bəs bilmirsən ki, əmqızı ilə əmoğlunun kəbini göydə kəsilir?

Evimizin böyük kişisi olan Hüseynqulu isə deyirdi:

– Cəfəri başqa adamla evləndirə bilmərəm. Mən öləndən sonra ailəni Cəfər dolandıracaq. Cəfərin arvadı kənar adam olsa, ailəmizi yola verə bilməz. Bu böyüklükdə ailənin öhdəsindən ancaq Sona gələr.

Hüseynqulu, nədənsə, hiss etmişdi ki, həqiqətən bu ailənin ağırlığı elə mənim üstümə düşəcək!..

Evimizdə Cəfər üçün bir otaq ayırmışdılar, orada yatır, orada işləyirdi. Onun bütün ev işlərini görməyi mənə həvalə etmişdilər. Mən də Cəfərin tapşırıqlarını bacardığım qədər kobud surətdə qarşılayırdım. Hətta bir dəfə mənə sifariş etmişdi ki, onun üçün bir yun köynək toxuyum. Mən bilə-bilə köynəyin toxunulmasını 8 ay uzatdım. O, bundan bərk hirsləndi, hətta köynəyi yarımçıq geri almaq istədi.

Sanki mənim bütün bu hərəkətlərim Cəfəri yormuşdu. Bir gün məni otağına çağırıb dedi:

– Otur, Sona, səninlə vacib bir məsələ barədə söhbət etmək istəyirəm.

Əyləşdim.

– Sona, bilirsən ki, səni uşaqlıqdan mənə ad eləyiblər, – dedi. – Evimizdə hamı istəyir ki, mən səni alım. Mən razıyam. Sən necə, razılıq verirsənmi?

Mən də fikirləşmədən: "Yox, razılıq vermirəm" – deyə cavab verdim.

Cəfər dedi:

– Çox gözəl... Bir də mənim otağıma gəlib-getmə.

Beləliklə, küsdük.

Bir qədərdən sonra mən özüm Cəfər üçün darıxmağa başladım. Lakin öz qürurumu sındırmayaraq nəinki onunla danışmadım, hətta otağına da ayağımı basmadım. Düz iki ay küsülü qaldıq. Elə bu vaxt, biz küsülü ola-ola bizim üçün şirni içdilər. Şirni zamanı Cəfər evdə yox idi, 3-4 günlüyə hara isə getmişdi. O, evə qayıdanda küçə qapısından həyətə



girən kimi qohumlarımız qabağına yüyürüb təbrik etdilər. Bibimiz nəvəsi Sara onu öpüb dedi:

– Allah mübarək eləsin, ay Cəfər!

Cəfər təəccüblə soruşdu:

– Nə mübarək olsun, bibi, nə olub ki?

– A... Səninçün şirni içmişik də, – deyə Sara gülə-gülə cavab verdi.

Bunu eşidən Cəfər bir qədər kənara çəkilib mənalı baxışlarla hamını süzərək soruşdu:

– Bəs kimi almısız mənimçün?

– Sonanı!

– Sona ki mənə getmir.

– Qələt eləyir, uşaqdır, ağlı kəsmir.

Həmin gün biz barışdıq. Üç aydan sonra toyumuz oldu. Toyumuz çox kasıbyana keçdi. Yüngülvari bir bazarlıq etdik. Beləliklə, 1922-ci il-də biz Cəfərlə evləndik.

Çox mehriban yaşayırdıq. Maddi cəhətdən müəyyən çətinliklər çəksək də, xoşbəxt idik. Cəfər daha anasını iş görməyə qoymurdu. Böyük qardaşı Hüseynqulu da yavaş-yavaş qocalırdı. Ailənin ağırlığı Cəfərin üzərinə keçirdi. O, qeyrətlə bu yükü öz çiyinlərinə götürüb yorulmaq bilmədən çalışırdı. Gecəni-gündüzə qataraq bir tərəfdən "Kommunist" qəzetində ədəbi işçi və tərcüməçi vəzifələrində, digər tərəfdən də öz əsərləri üzərində işləyirdi. Müvəffəqiyyətlə səhnədə gedən "Aydın" və "Oqtay Eloğlu" Cəfərə gənc yaşına münasib olmayan böyük şöhrət gətirmişdi. Xalq onu sevirdi. Xüsusən, o zamankı gənclik arasında "Aydınçılıq", "Oqtayçılıq" "xəstəliyinə" tutulmuş çoxlu cavan var idi. Necə deyərlər, küçədən keçəndə Cəfəri barmaqla göstərirdilər. O isə bütün bunlara əhəmiyyət verməyib, son dərəcə sadə bir təvazökarlıqla "mən yazıçı deyiləm, ancaq bir həvəskaram" – deyirdi.

Evləndiyimizdən bir neçə ay sonra Cəfər xəstələnib qısa müddət xəstəxanada yatmalı oldu. Onu yoxlamağa gedərkən bir dəstə gül aparmışdım. Axı Cəfər gülü çox sevirdi. Həmin güllərə cavab olaraq, mənə aşağıdakı şeiri yazdı:

PƏK AZ SÜRƏN BAHARIMIN CANLI ÇİÇƏYİ, SEVİMLİ SONAMA, GÖNDƏRDİYİ ÇİÇƏKLƏRƏ QARŞI YADİGARIM

Bülbülündən ayrı düşmüş qızılgül,
Bu hicrana kimsə düçar olmasın.
Kaş ki, yavrum, son günlərin sevinci
Böylə qısa, bietibar olmasın.

Sənsiz könlüm fəryadlardan usanmaz,
Çaylar dursa, göz yaşlarım dayanmaz.
Dünya gülşən olsa, könlüm oyanmaz,
Sənsiz, yavrum, artıq bahar olmasın.

Dünki gülşən – yarın xəzançın oynaq,
Dünki insan – yarın bir yığım torpaq.
Keçmiş ilk bahardan bu bir qaç yarpaq,
Saqın, yavrum, son yadigar olmasın.

Bəlli şey ki, həyat beş qara gündür,
Mənsiz gül, ağlama, könlüm sevindir,
Cismim torpaq olsa, ruhum sənindir,
Sevgimizə yoxluq məzar olmasın.

1923-cü ildə Cəfər "Kommunist" qəzeti redaksiyasında işləyərkən "Qız qalası" poemasını yazırdı. Onun yaxın dostlarından olan Mirzə Məmmədəli Sidqi, Hacı İbrahim Qasımov və başqaları tez-tez bizim evə yığışıb ordan-burdan



söhbət edirdilər. Arada Cəfər onların təkidi ilə yeni poemasından parçalar oxuyurdu.

1924-cü ildə ailəmizə bədbəxtlik üz verdi. Cəfərin böyük qardaşı Hüseynqulu vəfat etdi. Bu ölüm Cəfəri çox sarsıtdı. Çünki o, böyük qardaşını çox istəyirdi. Axı Hüseynqulu ona təkcə qardaşlıq yox, həm də atalıq etmişdi. Mən Cəfərə çox yalvardım ki, Hüseyn qədeşin məzar daşı üçün bir şeir yaz. Amma Cəfər razı olmadı, ürəyim gəlmir, əlim varmır, – dedi. Çox təkiddən sonra onu razı sala bildim. Cəfər Hüseynqulunun xatirəsinə bu şeiri yazdı:

Ölmək – o geniş körpünü hər kəs gedəcəkdir,
Bir badə ki, ondan bütün aləm içəcəkdir.
Hər süslü çiçək – sonda saralmış, quru yarpaq,
İnsan nədir o? Əvvəli torpaq, sonu torpaq,
Aləm doğacaq, dirçələcək, məhv olacaqdır,
Dünya boş ikən, axırı həm boş qalacaqdır.
Bir tək səni məhv etmədi bu qanlı təbiət,
Həp yoxluğa, həp heçliyə məhkum bəşəriyyət.

Bu zaman Cəfər "Od gəlini" pyesi üzərində düşünürdü. Ancaq işi yaman axsayırdı. Evdə hər gün yasxana olduğu üçün işləyə bilmirdi. Nəhayət, bir gün dostu Süleyman Məlikovgilin bağlarına getməyi qərara aldı. Süleyman Cəfərlə "Kommunist" qəzeti redaksiyasında tərcüməçi işləyirdi. Cəfərin bu vəziyyətdə evdə işləyə bilmədiyini görüb demişdi:

– Cəfər, qardaşım, belə getsə, sən heç bir şey yaza bilməyəcəksən. Gəlsənə mənə qulaq asasan: dur, bu saat yığış get bağımıza, həm orda ağıllı-başlı dincələrsən, həm də işləyərsən. Xatircəm ol, burada sənin tərcümə payını da özüm edərəm.

Beləliklə, Cəfər Süleymanın sözünə qulaq asıb Pirşağıya getdi. Bir aya yaxın bağda qaldı. Elə bu vaxt ailəmizə ikinci böyük itki üz verdi: Cəfərin anası Hacı Şahbikə vəfat etdi. Anasını hədsiz məhəbbətlə sevən Cəfər bu itkini heç vəchlə unuda bilmirdi. O, evdə qərar tutmur, tez-tez pərişan və pəjmürdə halda qəbiristana yollanır, saatlarla anasının məzarı önündə diz çöküb əyləşir, uşaq kimi hönkür-hönkür ağlayırdı.

Qohum-əqrəba ağsaqqallarının təkidi öyüd-nəsihətləri, təsirli təsəllilləri ilə Cəfər haçandan-haçana, yavaş-yavaş yasdan çıxıb özünü işləməyə məcbur etdi. "Od gəlini" üzərində o qədər çox işləyirdi ki, heç olmayan kimi. Hər gün işdən gələr-gəlməz, tələsik xörəyini yeyib bir az istirahət edəndən sonra yataqdan qalxıb sübhə kimi işləyirdi. Təkcə Elxanın son monoloqunun üzərində iki-üç gecə çalışdı. Bu monoloqu Cəfər, səhv etmirəmsə, beş-altı dəfə yazmış, lakin ürəyindən olmadığı üçün cırmış, sonra təzədən yazmışdı. Bəzən bir şəkli bir neçə variantda işləmişdir. "Od gəlini" pyesinə o, bütün başqa əsərlərinə nisbətən daha çox vaxt və zəhmət sərf etmişdir. Cəfərin bu əsər üzərində gərgin işlədiyini əyani görmək üçün "Od gəlini"nin indiyə kimi saxlanılmış bir neçə əlyazma nüsxəsini nəzərdən keçirmək kifayətdir. Məktublarının birində Cəfər özü qeyd edir ki, "Od gəlini"ni dörd dəfə düzəltmişəm.

Lakin bu əsər hələ tamaşaya qoyulmadan, nədənsə ciddi mübahisələrə səbəb oldu. Tamaşadan əvvəl pyesin disputu keçirildi. "Kommunist" qəzeti redaksiyası nəzdindəki klubda keçiriləcək bu disputa o qədər adam gəlmişdi ki, klub camaatı tutmadı və disputu dram teatrının binasında keçirməyi qərara aldılar. Cəfərlə bərabər mən də oraya getdim.



Çıxış edən teatr tənqidçilərinin, ədəbiyyatşünasların bəziləri "Od gəlini"ni tamaşaya qoymağa etiraz edir, hətta onun zərərli olduğunu söyləyirdilər. Nəhayət, müəllifə söz verdilər. Cəfər əsəbiləşmədən dedi:

– Məncə, əsəri mütləq tamaşaya qoymaq lazımdır. Əsərin ən gözəl tənqidçisi xalqdır, tamaşaçıdır. Oynayaq, xalqın tamaşanı necə qarşıladığını görək. Sonra yenə danışarıq.

Doğrudan da Cəfər düz deyirmiş. Onun bundan əvvəlki pyesləri kimi "Od gəlini"ni də tamaşaçılar böyük məhəbbətlə qarşıladılar. Tamaşanın quruluşunu istedadlı rejissorumuz A.A.Tuqanov vermişdi. Cəfər də onunla birlikdə quruluş üzərində xeyli çalışmışdı, bəzən hətta gecələr də teatrda qalmalı olmuşdu.

Ümumiyyətlə, Cəfərin ömrünün çoxu teatrda, səhnədə keçmişdir desəm, səhv etmərəm. Xüsusən, o, 1928-ci ildə Azərbaycan Dövlət Bədaye Dram Teatrında ədəbi hissə müdiri vəzifəsinə keçəndən sonra, demək olar ki, evdə onu görmürdük, hətta bəzi vaxtlar yeməyi də onun üçün teatra göndərməli olurduq. Bir dəfə Cəfər evə zəng etdi ki, mənim üçün teatra xörək göndər. Mən xörəklə bərabər ona belə bir məktub göndərdim: "Cəfər, elə ki evə gəldin, deyirsən: oram ağrıyır, buram ağrıyır. Elə ki teatra getdin, dirçəlirsən. İstəyirsən, yorğan-döşəyini də göndərim teatra." Cəfər evə göndərdiyi qab-qacaqla bərabər, cavabında mənə yazmışdı: "Sona, bu neçə vaxtda xasiyyətimə bələdsən. Mən teatrsız yaşaya bilmərəm. O barədə mənə söz demə."

Məlum olduğu kimi, qadın mövzusu Cəfərin yaradıcılığında çox geniş yer tutur. O, pyeslərində də, hekayələrində də, şeirlərində də Azərbaycan qadınının azadlığına böyük fikir verirdi. Bu cəhətdən "Sevil" pyesini, şübhəsiz, xüsusi qeyd etmək lazımdır. Bu pyesin yazılış tarixçəsi də maraqlıdır.

Cəfərin belə bir xasiyyəti var idi: bir pyes yazmağı düşünəndə əvvəl onun qəhrəmanlarından birinin mahnısını fikirləşirdi. Bəzən bunu xalq mahnılarından götürür, bəzən də özü yeni bir mahnı yaradırdı. Sözlərini yazır, hətta musiqisini də özü bəstələyirdi. Bu mahnını uzun zaman dodaqaltı oxuyur, pianoda çalırdı. Sonra pyesi yazmağa başlayırdı. Məsələn: "Od gəlini"ndə Solmazın "Mən bir solmaz yarpağam ki", "1905-ci ildə"-də Sonanın "Azad bir quşdum", "Almaz"da Yaxşının "Gərək günəş dağları aşıb sönməyəydi", "Yaşar"da Yaqutun "Sənin dərdindən" mahnıları belə yaranmışdı.

"Sevil"i yazmamışdan bir-iki ay qabaq Cəfər belə bir mahnı oxuyurdu:

Sənə nə olub, zalım yar?
Qadan-bəlan alım, yar.
Sən ki belə deyildin,
Səni bir öyrədən var.

O, işdən gələndə, xörək yeyəndə, yatanda, işləyəndə həmişə bu mahnını oxuyurdu. Bir dəfə ona dedim: bir mahnını oxuyarlar bir dəfə, iki dəfə, üç dəfə: yoxsa səhər-axşam, axşam-səhər dilindən düşmür, bu nədir? Cəfər dedi: Sonası, sən bilmirsən, bir əsər yazacağam ki, onun mahnılarını bütün xalq oxusun. Onda bilərsən ki, bu mahnı nə deməkdir... Amma nədən, nə mövzuda əsər yazacağını bildirmədi.

1927-ci ilin yay fəsli idi. Məlumdur ki, istilər düşəndə bakılıların çoxu Abşeron bağlarına köçür. Dağlı məhəlləsində yaşayanlar isə Xızıya, yaxud Qılızı bağlarına istirahətə gedirdilər. Altıağaca, Yarımca yaylağına köçənlər də çox olardı. Çünki bu yerlər çox sərin, səfalı, ab-havalıdır.

Bizim bu yay harada istirahət edəcəyimizdən söhbət düşəndə Cəfər dedi:



– Ata-baba yurdumuza getsək, necə olar?

Həmin yayı Xızıya getməyi qət etdik. Bir neçə gündən sonra tədarükümüzü görüb yola düşdük. Mən Cəfərin qardaşı qızı Mələklə Xızıya getdim. Üç yaşlı oğlum Aydını da özümlə yaylağa apardım.

Xızıda bir neçə gün qalandan sonra qohumlarımız bizi Yarımca kəndinə qonaq çağırdılar. Biz Yarımcaya gedən günün axşamı Cəfər də anamla birlikdə oraya gəldi. Bir-iki gün Yarımcada qaldıqdan sonra bizi Altıağac kəndinə qonaq çağırdılar. Altıağac Cəfərin çox xoşuna gəldiyindən dedi ki, bir ev tutub elə burada qalaq. Mənzərəli bir yerdə ev kirayələdik.

Bir-iki gün istirahət edəndən sonra Cəfər işləməyə başladı. O, hər gün səhər saat 6-da qalxıb biz yuxudan durana qədər yazırdı. Səhər naharından sonra biz ev işləri ilə məşğul olurduq, bəzən də kəndə gəzməyə çıxırdıq. Cəfər mənə və Mələyə tapşırmışdı ki, nəbadə yazılarımı oxuyasınız. Buna baxmayaraq, biz marağımızı boğa bilmirdik. Cəfər evdən çıxan kimi mən Mələklə bir-birimiz üçün pusquda duraraq, növbə ilə yeni əsərin əlyazmasını oxuyurduq. Axırda o, bizim bu gizli "qəsdimizi" başa düşdü. Belə ki, bir gün biz pyesi oxuyanda o, hər ikimizi, necə deyərlər, "cinayət başında" yaxaladı:

– Balam, mən sizə deməmişdim ki, dəftərimi oxumayın?

Biz nə cavab verəcəyimizi bilməyərək, müqəssir adamlar kimi başımızı aşağı dikdik. Cəfər nə isə fikirləşib bir qədər sonra dedi:

– Daha bu dəfə sizi bağışlayıram. Ancaq deyin görüm necədir? Əsər xoşunuza gəlirmi? Yadınızda bir şey qalır, yoxsa elə oxuyub qurtaran kimi yaddan çıxır?

– Qiyamət əsərdir, ay Cəfər əmi, lap antiqə yazmısan. Daha bundan olmaz, – deyə Mələk cavab verdi.

– Ay Cəfər, özün də bilirsən ki, sən yaxşı yazırsan da, – deyə mən də əlavə etdim.

O, gülümsəyərək dedi:

– Daha durub üzümə deməyəcəksiniz ki, xarabdır, birinizin əmisiyəm, birinizin də əri...

Cəfər bizi tez-tez Altıağac meşələrinə gəzməyə aparardı. Meşədə "Sevil"dəki mahnıların havalarını tarda Mələyə çaldırar, özü də oxuyardı.

Cəfər inadla işləməkdə olduğu "Sevil"i qurtarmaq üzrə idi. Bir gün mənə dedi:

– Sonası, bilirsən nə var? Gəlin sizinlə bir əhdn-mə bağlayaq. Bu gün səhərdən-axşama kimi nə evə girin, nə də məni çağırın. Heç kimi də otağıma buraxmayın!

Biz söz verdik. Çox təəssüf ki, baş vermiş bir hadisə bu əhdimizi pozdu.

O gün axşam saat 5-ə kimi nə evə girdik, nə də qapını döydük. Saat 6-ya yaxın mən həyətdə oturmuşdum. Aydın küçədə uşaqlarla oynayırdı. Bir də gördüm ki, bir nəfər gəlir, özü də tanış adama oxşayır. Ürəyim döyündü, fikirləşdim: əgər bizə gəlsə, nə edəcəyəm? Mən bu fikirdə ikən yaxın qohum və dostlarımızdan Şəmsəddin qabağımda dayandı. Lap məəttəl qalmışdım. O, Bakıdan gəlmişdi. Necə edim? Axı Cəfər tapşırıb ki, bu gün heç kimi evə buraxmayım. Özümü elə itirmişdim ki, Şəmsəddindən heç ağıllı-başlı hal-əhval da tuta bilmədim. Çarəm kəsildi, bir qədər ürəklənərək, ayağa durub dedim:

– Şəmsəddin, gedək evə!

Pilləkənləri çıxar-çıxmaz ayaqlarım dalımca gəlmirdi. Nəhayət, ürəyim döyünə-döyünə qapını döydüm. Cavab gəlmədi. İkinci dəfə döydüm. Cəfər içəridən qışqırdı:

– Kimdir?

– Şəmsəddin gəlib, qapını aç!



Elə bu kəlmələri deyib qaçdım. Daha bundan sonra Cəfərin Şəmsəddinlə necə görüşdüyünü və qonağı necə yola saldığını bilmədim. Şəmsəddin, təcili işi olduğu üçün tələsik görüşüb başqa kəndlərə getmişdi. Cəfər eyvana çıxıb dedi:

– Üç dəqiqə gecikə bilməzdin? Fikrimi dağıtdın! Əsəri qurtarmağa az qalmışdı. İndi mən üç dəqiqəlik işin üstündə bir neçə gün oturmalıyam.

Sonradan "Sevil" tamaşaya qoyulanda o, həmişə deyərdi ki, Sonası, öz aramızdır, "Sevil"in axırını Şəmsəddin korladı.

Altıağacdan qayıdandan sonra Cəfər əsəri dram teatrına verdi. "Sevil" pyesi tamaşaya qoyulanda çadra əleyhinə böyük kampaniya aparılırdı. Cəfər mənə deyirdi ki, çadranı atmaq lazımdır. Mən isə deyirdim ki, yox, atmaram, məhəllədə hərə bir söz deyər.

– Əvvəl-axır çadranı atacaqsan. Ancaq sonradan atınca, məhəlləmizdə hamıdan əvvəl atsan, yaxşıdır, – deyə hər gün mənimlə bu haqda mübahisə edərdi.

Bizə qəzet gətirən poçtalyon bir gün mənə dedi:

– Sona bacı, sənin şəklin qəzetdə çıxıb.

Mən bərk təəccübləndim:

– Ola bilməz!

– Ay Sona bacı, məgər mən səni tanımıram, nə düşüb mənə ki yalan danışım? – deyə poçtalyon cavab verdi:

Qıraqda duran Cəfər söhbətimizə qarışıb dedi:

– Balam, kişi düz deyir də. Çadranı atmısan, bu haqda qəzetdə də yazın gedib. Hələ özündən başqa, qonşu arvadları da çadralarını atmağa çağırmısan. Daha kişi ilə höcət niyə edirsən?

Əllərim əsə-əsə qəzeti açdım. Gördüm... poçtalyon düz deyirmiş.

Kişi gedəndən sonra Cəfərlə davaya başladım ki, nə üçün mənim şəklimi qəzetə verib, adımdan da məqalə yazıb. Axı mən nə vaxt çadramı atmışam? Hətta ağladım da.

Cəfər məni sakitləşdirib dedi:

– Sonası, çadranı atmırsan atma, daha ağlamaq nəyə lazım? Ancaq sənin üçün yaxşı deyil, xalq deyər ki, özü məqalə yazıb, hay-küy qaldırıb ki, çadramı atıram; amma yenə də çadrada gəzir. Bir də, mənim özüm üçün də yaxşı deyil. Axı başa düş ki, yaxşı olmaz, mən çadra əleyhinə əsər yazım, sən çadra örtəsən? Yaramaz axı!..

Beləliklə, mən və Cəfərin qardaşı qızları Mələk və Törə Dağlı məhəlləsində birinci olaraq çadranı atmalı olduq.

"Sevil" pyesini tamaşaya qoymaq üçün teatrda bərk məşqlər gedirdi. Əsərin quruluşunu rejissor Tuqanova tapşırmışdılar. Cəfər də onunla birlikdə çalışırdı.

İndiki kimi yadımdadır: Cəfər üçün teatra xörək aparmışdım. Dedilər ki, səhnədə məşq edir. Mən də salona keçib məşqə tamaşa etməyə başladım.

İkinci pərdənin məşqi gedirdi. Balaş rolunu Rza Təhmasib, Sevil rolunu Mərziyə xanım, Dilbər rolunu Qəmər Topuriya oynayırdı. Dönə-dönə məşq etmələrinə baxmayaraq, Balaşla Dilbərin hərəkətləri Cəfərin xoşuna gəlmirdi, xüsusən onların ilk öpüşmə yeri ki, Sevil əlində su stəkanı səhnəyə girib bu mənzərəni görür. Nədənsə Təhmasib – Balaş ilə Qəmər – Dilbər məşq zamanı səhnədə soyuq öpüşürdülər. Birdən, Cəfər səhnəyə atılıb on-ların arasına girdi və yavaşdan nə isə deyib sonra səsini ucaltdı:

– Bax belə! – və Qəmər xanımı möhkəm qucaqlayıb dodaqlarından öpdü. – Hə, təkrar edin!..

Məşq bitdikdən sonra Cəfərə dedilər ki, Sona sənin üçün xörək gətirib, özü də salondadır. O, tez yanıma gəlib soruşdu:



– Sonası? Çoxdan buradasan?

– Elə sən Qəmər xanımı öpəndə salona girdim.

O, başını bulayıb tez-tez danışmağa başladı:

– Hə, bu olmadı. Özün görürsən ki, işdəyəm və bu da mənim vəzifəmdir.

– Pis vəzifə deyil, – dedim. – Gedək, xörəyini ye, küftə-bozbaş gətirmişəm səninçün.

– Ay sağ ol, Sonası, lap acından ölürəm.

O, öz iş otağına qalxdı, Tuqanovu da çağırıb birlikdə xörək yedilər.

Tezliklə tamaşanın premyerası oldu və "Sevil" tamaşaçılar tərəfindən böyük sevinclə qarşılandı. Teatra çadralı gələn çoxlu qadın tamaşadan sonra evə çadrasız getdi.

Buna baxmayaraq, əsər haqqında böyük mübahisələr qalxdı. Bəziləri Sevili əxlaqsız adlandırıb pyesin səhnədən çıxarılmasını tələb edirdilər. Bakıda çıxan bütün qəzetlər dalbadal "Sevil" barədə böyük məqalələr verirdilər. Bir dəfə soruşdum:

– Ay Cəfər, nə olub ki, bütün qəzetlər "Sevil"dən yazır, böyük mübahisələr gedir?

O dedi:

– Sonası, demək, əsərdə bir şey var ki, mübahisə gedir. Bir şey olmasa mübahisə getməz. Demək, məsələ ciddidir.

Nəhayət, bütün bu mübahisələri Cəfər bir cümlə ilə həll etdi. Pyesin axırıncı pərdəsində Sevil, Balaşı acıqlandırmaq üçün, guya, Moskvada oxuyarkən yad kişilərlə görüşdüyünü söyləyir. Bəzi tənqidçilər deyirdilər ki, bu sözlər Sevili tamaşaçıların qarşısında alçaldır, bunu Sevilin yalandan deməsini bildirmək lazımdır. Cəfər isə özünəməxsus inadkarlıqla buna razılıq vermir, əsərimin bir kəlməsini də dəyişmərəm, – deyirdi. Nəhayət, çox

təkidlərdən sonra o, könülsüz olaraq, axırıncı pərdədə Gülüşün dialoquna: "Sevil, niyə özünə böhtan atırsan?" cümləsini əlavə etdi.

Yüzlərlə qadınlar səhnədə "Sevil"ə baxandan sonra çadralarını atıb fabriklərə, zavodlara axışdılar. Cəfər tamaşa gedən zaman həmişə salonu gəzir, müxtəlif yerlərdə oturur, əsərin tamaşaçılara necə təsir etdiyini, əsər haqqında tamaşaçıların rəyini öyrənirdi. Bu, ümumiyyətlə, onun adəti idi.





## III

1927-ci ilin əvvəllərində birdən Cəfərin səhhəti pozuldu, ürəyi sancmağa başladı. Birlikdə həkimə getdik. Həkim ona diqqətlə baxandan sonra dərman yazıb dedi:

– Qardaş, sənə papiros çəkmək, içki içmək yaramaz. Ürəyini çox yormusan.

Papirosu tərgitmək Cəfər üçün çox çətin idi. Buna baxmayaraq, o, cibindən içi dolu papiros qutusunu çıxarıb küçəyə tulladı: "Daha səni çəkməyəcəyəm!" – dedi.

İçkini də atdı. 1930-cu ilə kimi nə içki içdi, nə papiros çəkdi. Həmin vaxtda o, təzə əsər yazmayıb, bir neçə pyesi Azərbaycan dilinə tərcümə etdi. Nəhayət, bir gün dedi:

– Ay Sonası, ha istəyirəm əyləşib işləyim, fikrimi bir yerə cəm eləyə bilmirəm. Deyəsən, yenə papiros çəkməli olacağam.

Mən qəti etiraz etdim. Papirosun havasını yadından çıxarmaq üçün onun cibini ləbləbi, kiş-miş, günəbaxan toxumu ilə doldururdum. Bir dəfə o, bunları cibindən çıxarıb stolun üstünə atdı:

– Məni lap zara gətirdin, – dedi. – Bunlar uşaq-muşaq işidir. Siz olasız Allah, qoyun işləyək.

Beləliklə, 1930-cu ilin əvvəllərində yenidən papiros çəkməyə başladı. Amma bu dəfə papiros çəkməyini məndən gizlədirdi. Bir dəfə onun ciblərində tütün qırıntısı görüb deyinməyə başladım:

– Cəfər, bu tütün qırıntıları haradandır? Yoxsa yenə papiros çəkirsən?

O güldü:



– Ay Sonası, sən mənim canım, üstünü vurma, bir əsər yazmağa başlamışam. Papiros çəkməsəm, işlərim düz getməyəcək, qoy onu yazıb qurtarım, sonra yenə tərgidərəm.

1930-cu ilin yayında Cəfər bizi Şurabad (Qılızı) bağlarına apardı. Burada o, hələ 1929-cu ildə yazmaq həvəsinə düşdüyü "Almaz" pyesini işləməyə başladı. Əsərdəki hadisələrin və adamların çoxusu Şurabad kəndi ilə əlaqədardır. Hətta Hacı Əhməd surətinin prototipi indi də gözümün qabağındadır. Fatmanisənin prototipi isə həmin kəndin "maması" sayılırdı, əri ilə heç yola getməzdi, gündə kişini döyüb evdən qovardı.

Bir dəfə əncir ağacının altında əyləşib çay içirdik. Cəfər də bizimlə idi. Birdən Törə gəlib çıxdı. Onların bağı bizimlə qonşu idi. Törə bizi görən kimi gülə-gülə söz başladı:

– Əyləşmisiz burda, dünyadan xəbəriniz yoxdur. Şərəfnisə arvad bir hoqqa çıxarıb ki, gəl görəsən!

– Nə olub? – deyə mən təəccüblə soruşdum.

Törə gülə-gülə söhbətini davam etdirdi:

– Qonşumuzun hamilə arvadı doğa bilmirdi. Şərəfnisəni çağırdılar. O, zahıya: "Güc vur, köpək qızı, güc vur" – deyib bir hay-küy saldı, bir hay-küy saldı ki, uşaq onun çığır-bağırından qorxub dünyaya gəldi.

Törəni diqqətlə dinləyən Cəfər dedi:

– Törə, bacımsan, o yana gedəndə Şərəfnisəni bura çağır, onunla işim var.

Bir də gördük ki, damağında qəlyan, budu ha, Şərəfnisə arvad gəlir. Cəfər əyləşib onunla xeyli söhbət elədi. Mamaça gedəndən sonra Cəfər dedi:

– Zalım qızı nə vaxtında çıxdı! Mən onunçün göydə gəzirəm, yerdə əlimə düşdü.

Mən maraqla soruşdum:

– Mamaça sənin nəyinə lazımdır?
Cəfər güldü:
– Sonra bilərsən, Sonası.

1930-cu ildə "Almaz" müvəffəqiyyətlə tamaşaya qoyuldu. Şurabaddakı bir sıra tipləri, o cümlədən Şərəfnisəni də səhnədə gördüm. İndi bildim ki, mamaça Cəfərin nəyinə lazım imiş.

"Almaz" tamaşasının quruluşu rejissor Tuqanovla birlikdə Cəfərə tapşırılmışdı. O, özü rolları bölmüş, artistlərlə də özü işləyirdi. Hətta surətlərin paltarlarını da Cəfər özü seçirdi. Yaxşı gecə uşağı əmizdirməyə gələndə geydiyi tuman anam Zeynəbindir. Cəfər mənə dedi ki, bu tuman Yaxşının əsil malıdır; anan bilməsin, qoy onu aparım geydirim səhnədə Yaxşıya. Mən razılıq verdim. Anam ölənədək həmin tumanın harada itdiyini bilmədi.

Aftilin çuxası ilə olan əhvalat da maraqlıdır. Məhəlləmizdə Bayram adlı yoxsul bir qoca var idi. Köhnə çuxası yamaq-yamaq idi. Bir gün Cəfər mənə dedi:

– Sonası, gözüm düşüb Bayram əminin çuxasına. Gör onu mənim üçün ala bilərsənmi?

Təəccüblə soruşdum:

– Çuxanı nə edirsən?

– Aftil üçün istəyirəm. Bilirsənmi, teatrda, əlbəttə, onun üçün çuxa tikərlər, yamaq da vurarlar. Amma təzə çuxaya yamaq yaraşmaz axı. Bayram əminin çuxası isə lap Aftilin malıdır. Bir bax, gör, onunla sövdalaşa bilərsənmi.

Bayram əmiyə müraciət etməyə məcbur oldum. Kişi yazıq-yazıq üzümə baxıb incik səslə dedi:

– Qızım, məni ələ salırsan?

Tez cavab verdim:



– Yox, Bayram əmi, vallah-billah düz sözümdür. Cəfər dedi ki, Bayram əmi üçün təzə çuxa al, qoy o köhnəsini versin, aparım teatra. Budur, bu da pulu.

Əlimdə tutduğum pulları kişiyə verdim. O da köhnə çuxasını çıxarıb mənə verdi. Həmin çuxa indi də teatrdadır, Aftil geyinir.

Cəfər "1905-ci ildə" əsərini "Almaz"dan sonra, 1931-ci ildə yazmışdır. O, həmişəki kimi, pyesi də yazmazdan əvvəl bu haqda çoxlu ədəbiyyat oxuyur, 1905-ci il hadisələrinin iştirakçısı olan qoca kişilərlə söhbət edirdi. Adını unutduğum bir inqilabçı fəhlənin öldürülməsini görəndə adamlardan ətraflı məlumat almışdı. Onlar Cəfərə həmin inqilabçının necə, harada, nə vaxt öldürüldüyünü söyləmişdilər.

O, topladığı zəngin məlumat əsasında pye-sin planını tərtib etmişdi. 5-6 səhifəlik bir dəftər vərəqində idi. Mən həmin planı özüm bilmədən Cəfərin bəzi kağızları arasında haraya isə qoy-muşdum. Cəfər bir gün mənə dedi ki, ay Sonası, mənim bir planım var idi, özü də ərəb əlifbası ilə yazılmış, axtarıram, tapa bilmirəm. Orada fəhlələrin danışıqları və mənim bəzi qeydlərim yazılmışdı. Bəlkə sənə rast gəlib? Üç gündən sonra həmin planı tapıb ona vedim.

Cəfər deyirdi ki, "1905-ci ildə" çox çətin mövzudur. Erməni-müsəlman qırğınının səbəblərini camaata başa salmaq üçün çox böyük zəhmət lazımdır. Həmin əsər üzərində bir ildən artıq işləyərək, teatra təqdim etdi.

Pyes teatr kollektivi tərəfindən oxunub müzakirə olundu. Lakin bu da hələ tamaşaya qoyulmazdan əvvəl böyük mübahisələrə səbəb oldu. Bir çoxları pyesin siyasi xəttinin düzgün olmadığını və əsərin müvəffəqiyyət qazanmayacağını iddia edirdilər. Lakin əsər tamaşaya qoyulandan sonra Azərbaycan K(b)P MK-nın birinci katibi

Polonski şəxsən Cəfəri yanına çağıraraq, əsərin çox yaxşı və düzgün yazıldığını demiş və pyesin başqa teatrlarda da, xüsusən erməni teatrında da tamaşaya qoyulmasını lazım bilmişdi.

Tamaşanın quruluşu o zaman Moskvadan Bakıya dəvət olunmuş Lütse familiyalı bir rejissora tapşırılmışdı. Cəfər də onunla birlikdə çalışırdı.

Uzun məşqlərdən sonra "1905-ci ildə" pyesinin ilk tamaşası oldu. Teatr ağzına kimi dolmuşdu. Mərkəzi Komitənin,Xalq Komissarları Şurasının çoxlu nümayəndələri teatra dəvət olunmuşdular. İlk tamaşa müvəffəqiyyətlə keçdi. Hər pərdənin sonunda salonu alqış səsləri bürüyür, artistləri, müəllifi səhnəyə çağırırdılar.

Lakin əsər haqqında yenə də böyük mübahisələr davam edirdi. O zaman Cəfəri istəməyənlər onun "1905-ci ildə" əsəri ilə qabağa yox, geriyə getdiyini iddia edirdilər. Hətta o vaxt qəzetlərdə "1905-ci ildə" pyesi haqqında verilmiş bir resenziyanın sərlövhəsi "Bir addım irəli, iki addım geri" qoyulmuşdu. Tənqidçi bu məqaləsində əsərə tamamilə yanlış qiymət verirdi. O zaman qəzetlərin çoxunda müxtəlif fikirlər yürüdürdülər. Bütün bunları nəzərə alaraq, əsər haqqında geniş disput keçirilməsi qərara alındı.

Disput Azərbaycan Dövlət Dram Teatrının üçüncü mərtəbəsindəki məşq salonunda oldu. Artistlər, rejissorlar, tənqidçilər, yazıçılar, fəhlələr, ziyalılar dəvət olunmuşdular. Mən də Cəfərlə getmişdim. Məruzəçi pyesin yaxşı yazılmadığını və siyasi xəttinin düzgün olmadığını iddia edirdi. Onun çıxışından sonra böyük mübahisələr başlandı. Hərə bir cür fikir yürüdürdü. Bəziləri müəllifi tərifləyir, bəziləri isə tənqid edirdi. Mədən və zavodlardan gəlmiş fəhlələrə, 1905-ci il hadisələrində iştirak etmiş adamlara da söz verdilər. Onlar da əsər haqqında əsasən müsbət fikir



söyləyib, Cəfəri müdafiə etdilər; eyni zamanda pyesin bəzi nöqsanlarını da göstərdilər. Onlar, əsasən, fəhlə hərəkatının geniş işıqlandırılmadığını qeyd edir-dilər. Bütün çıxışların, demək olar ki, əksəriyyəti bir-birinin ziddinə idi.

Disputun sonunda müəllifə söz verdilər. Cəfərin çıxışı indiki kimi yadımdadır. O dedi: "1905-ci ildə" pyesi haqqında yürüdülən fikirlərin bəzisi ilə razılaşıram, bəzisi ilə yox. Hər halda bunları nəzərə alacağam. Lakin bir şeyi unutmaq lazım deyil ki, 1905-ci ildə baş vermiş hadisələrin hamısını 5 pərdəli bir pyesə sığışdırmaq qeyri-mümkündür. Mən bacardıqca hadisələri, xüsusən Bakıda gedən hadisələrin, əsasən, milli məsələ ilə əlaqədar olanlarını yazmağa çalışmışam. Qaldı fəhlə hərəkatının zəif göstərilməsinə, bu, tamamilə doğrudur. Mən tamaşaçıların qarşısında söz verirəm ki, fəhlələrin inqilabi hərəkatından bəhs edən böyük bir əsər yazacağam.

Onun bu sözləri alqışlarla qarşılandı.

Beləliklə, "1905-ci ildə" pyesi tamaşaya qoyulandan sonra onun üzərində yenidən rejissor işi başlandı. Yenə Cəfər özü Lütse ilə birlikdə işləyirdi. O, yayda bağa göndərdiyi məktubların birində yazırdı: "Öz işlərim o qədər yaxşı deyil. Lütse pyesi yaxşı başa düşmür. Bir az üzümü o yana çevirirəm, bir də görürəm ki, vurub aləmi qarışdırıb bir-birinə, döndərib şuluq-bazara. İndi gəl çalış, düzəlt. Lap əldən düşmüşəm. Çox qorxuram ki, pyes adi tərcümə əsərlərinin birinin kökünə düşsün. Hər halda nə olursa-olsun, bütün qüvvəsi ilə gedə bilməyəcəkdir, bir qədər zəifləyəcəkdir. Mən, təbii, əldən gələn qədər o nöqsanları yumşaltmağa çalışacağam. İndi bilmirəm nə olacaqdır. Bir dəqiqə evdə rahat dura bilmirəm, əlüstü bir parça çörək yeyib qaçıram. Görək, bəlkə birtəhər etdik. Bağa da ona görə gələ bilmirəm. Müdiriyyət özü də bir az pyesin

korlanmasından qorxur. Ona görə də getməyin adını çəkmək olmur."

Sonralar "1905-ci ildə" pyesi yeni quruluşda ikinci dəfə tamaşaya qoyulduğu zaman, quruluşçu rejissorluğu Cəfərin özünə tapşırmışdılar. Cəfər bir məktubunda bu haqda yazırdı: "Azərbaycan teatrında "1905-ci ildə" pyesini yeni quruluşda verməliyəm. Rus teatrında da "1905-ci ildə" gedir. Mayorov deyir ki, gərək mütləq ikimiz işləyək, tək qoya bilmərəm. Operadan da deyirlər ki, gərək "Səfa"nın quruluşunu sən verəsən. Bizim teatrda da "Otello"nu təzələmək mənim boynumda qalmışdır. Hamısı da bir vaxtda. Xülasə, aləm qarışıb bir-birinə. Hə, "Od gəlini"ni də gərək Mayorovla mən işləyəm. Budur, mənim təxmini işlərim."

Cəfər "Dönüş"ü 1932-ci ildə Fatmayı bağlarında Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının Sovet hakimiyyəti illərində yenidən açılmasının 10 illiyi münasibətilə yazmışdır. Biz bağa köçəndən həmin yubileyə böyük hazırlıq gedirdi. Cəfər şəhərdən bağa göndərdiyi bir məktubda mənə yazırdı:

"Sonası, bu saat heç bir quruşum da yoxdur, lat-lüt, zəvvar imam Rza. Çox güman, sabah pul alaram, demək olar ki, şübhə etmirəm, ancaq tramvay altında – zalda qalmasam. Bunlar bircə günün məsələsidir. Yazı işlərim yaman deyil, yeriyir. İşlərim mənə "xod" kimi görünür. Ancaq çətini bir-iki gündür, ondan sonra, deyəsən, nizama düşəcəkdir. 3-4 gündən sonra balaca bir pyes yazmağa başlayacağam. Burada qurtarmasam, gətirib bağda yazaram.



Məzmununu sən bilirsən, istəyirsən yadına salım:

Hicrinlə zarəm;
Biixtiyarəm.
Dərdindən, ey gül,
Mən biqərarəm.
Mən bir bağa girmişəm,
Gözəl bir gül görmüşəm,
Ona könül vermişəm,
Biixtiyarəm."

Bir neçə gündən sonra bağa gəldi. Ancaq istirahət üçün yox, işləmək üçün. Bağa gələn kimi mənə dedi:

– Teatrın yubileyi münasibətilə artistlərin həya-tından bir əsər yazıram. Mənim üçün burada şə-rait yarat ki, işləyə bilim.

Bağda bir otağımız var idi. Ona görə də biz günümüzü, əsasən kölgəliklərdə keçirir, otağı Cəfərin ixtiyarına verirdik. Bir gün səhər o, qan-tər içində otaqdan çıxdı. Bərk həyəcanlı idi. Səbəbini soruşdum, dedi:

– "Dönüş"ün bir yerini – Gülərin səhnəyə gəldiyi yeri, – nə qədər düzəldirəm, olmur. "Oqtay"-dakına oxşayır.

O gün səhərdən axşama kimi əlini ağdan-qaraya vurmayıb hey fikirləşirdi. Bir-iki gündən sonra mən ondan soruşdum ki, nə oldu. Gülərin səhnəyə gəlişini düzəldə bildinmi, daha Oqtaya oxşamır ki? O, sakit dedi:

– Əlbəttə, düzəltdim, daha heç bənzəmir.

"Dönüş"ü yazarkən baş verən bir hadisə də maraqlıdır... Cəfər həmişə işləyəndə çoxlu çay içərdi. Bu onun ürəyinə zərər idi. Bir dəfə ona dedim ki, ay Cəfər, çayı az iç, bağ yeridir, qəndimiz azdır. Bir az sonra mən onun

üçün ikinci stəkanı gətirəndə, mənə bir kağız uzatdı. Kağızda belə yazılmışdı:

"Ay Sonası, çay gətir mənimçün,
Qələndərəm, pay gətir mənimçün,
Bağ yeridir, qəndi çox işlətmərəm,
İstəyirsən say, gətir mənimçün."

Bağda "Dönüş"ü yazıb qurtardı və Bakıya apardı. Oradan göndərdiyi başqa bir məktubda yazırdı:

"Pyesi artistlərə oxudum. Bəyəndilər. İndi o yanını-bu yanını düzəltməklə məşğulam. Bir də "1905-ci il"i məşq eləyirik. Məndən nigaran qalma, burada bir cür dolanıram. Ürəyim ağrıyırdı. Soyuq dəymişdi, sonra da isti idi. İndi babatdır, yəni yaxşıdır. Sabah bizim vıxadnoydur, çox çalışdım, bu gün gələm, mümkün olmadı, pyes gecikər. Ayağımı bir addım bir yana atmağa qoymurlar. Güman ki, gələn vıxadnoy gələrəm. Uşaqları yerimə öp. Baqi salam."

"Dönüş"də Cəfər teatrın, demək olar ki, bütün işçilərinin hərəkətlərindən, davranışlarından istifadə etmişdi. O özü deyirdi ki, mən bu əsərdə dram teatrının qapısından tutmuş, direktoruna kimi hamını təsvir etmişəm, hamının xasiyyətini, hərəkətlərini, danışığını nəzərə almışam.

Təsadüfi deyildi ki, pyes tamaşaya qoyulandan sonra artistlər arasında dedi-qodu başlanmışdı. Bəziləri narazılıq edirdilər. Hətta bir dəfə teatrın qocaman artistlərindən Bağır Cabbarzadə mağazada mənə rast gəlib dedi:

– Sona bacı, Cəfər qədeş məni təzə teatrına niyə salıb?

– Səni, hansı teatra? – deyə ondan soruşdum.

– Bəs bilmirsən? O "Dönüş"dəki Xosməmməd mənəm də. Sona bacı, sən uşaqlarının canı, Cəfərə deynən, o rolu pyesdən çıxarsın.



Mən Bağırın şikayətini Cəfərə yetirdim. O cavab verdi ki, Bağır niyə inciyir? Orada bir o yox, bütün artistlər, rejissorlar, bəzi yazıçılar da var. Hətta mən özüm də varam. Burada inciməli bir şey yoxdur ki! Nə var, onu yazmışam. Eləməsinlər, yazmayım.

"Dönüş" 1932-ci ildə tamaşaya qoyuldu və tamaşaçılar tərəfindən yaxşı qarşılandı.

"Dönüş"dən sonra Cəfər "Yaşar"ı yazdı. Daha doğrusu, bu pyes onun son dram əsəridir. Cəfər bu pyes üzərində çox inadla işləyirdi. O, "Yaşar"ı bir həftəyə yazmışdır. Səhər tezdən gecə yarıyadək otağa çəkilib çölə çıxmırdı. Çay-çörəyini də işləyə-işləyə yeyib-içirdi.

Bir dəfə o işlərkən mən nə üçünsə otağa girdim. Cəfər otaqda gəzişib, əlləri alnında nə isə fikirləşir, bəzən ayrı-ayrı cümlələri bərkdən təkrar edirdi. Məni görüb incidi; dedi ki, niyə otağa gəlib fikrimi dağıtdın, daha işləyə bilmərəm... Həqiqən, o gün Cəfər yazmadı. Bir az bizimlə söhbət etdikdən sonra, qalxıb işə getdi. Evə gələndən sonra yenidən yazmağa başladı.

"Yaşar" pyesi yazılıb qurtarmışdı. O günlərdə Cəfərin yaxın dostu, bəstəkar Asəf Zeynallı vəfat etmişdi. Onu dəfn etdikdən sonra Cəfər baş mətbuat müvəkkiliyində işləyən bir yoldaşı ilə evə gəldi. Çörək yeyəndən sonra ikilikdə pyesin bəzi yerlərini oxudular. Durub işə gedəndə əsəri də portfelə qoyub özləri ilə apardılar.

Cəfər gecə evə gələndə gördüm ki, şalvarının dizləri gedib, əl-qolu siyrilib. Səbəbini soruş-duqda belə cavab verdi:

– Soruşma, Sonası... Evdən çıxıb hər ikimiz tramvaya mindik. Tramvaydan düşüb bir qədər getmişdik ki, gördük portfel yoxdur. Sən demə, yoldaşım elə bilib portfeli mən götürmüşəm, mən elə bilmişəm o götürüb. Düşdük

tramvayların dalınca. O tramvaydan bu tramvaya mindik. Hətta Karl Marks meydançasının yanında az qalmışdı ki, tramvayın altına düşüm. Tramvay sürənlərdən portfeli soruşdum, "gördüm" deyən olmadı. Axır ki, öz mindiyimiz tramvayı birtəhər tapdıq. Tramvay sürən dedi: "Cəfər, portfelinizdən tanıdıq ki, sizinkidir, verdik Baksovetin yanındakı tramvay məntəqəsinə." Oraya yüyürdük, portfelimi həmin məntəqədən tapdıq. Yaxşıdır ki, tapdım. Əgər tapmasaydım, bəzi "dostlarım" deyəcəkdilər ki, Cəfər pyesi qəsdən itirib, bizə vermək istəməyib.

"Yaşar" oxuyub teatr tərəfindən bəyənildi və tamaşaya qoyulması qərara alındı. Səftər Turabov da quruluşçu rejissorun laborantı idi. Cəfər Səftəri özü ilə götürüb mağazaları gəzir, müxtəlif kimyəvi maddələr alır, təcrübələr keçirirdi. Əsərin laboratoriya səhnəsindəki partlayışların hamısını Cəfər özü düzəltmişdi.

Nəhayət, "Yaşar" tamaşaya qoyuldu. Pyes bir-iki dəfə göstəriləndən sonra bəziləri "Yaşar"ın bir yeri ilə heç cür razılaşmırdılar, deyirdilər: İmamyar necə qolçomaqdır ki, kolxoza daxil olub, onu içəridən dağıdır? Bir səhnədə Toğrul da Yaşara deyir ki, bütün kəndi axtarmışam, bir nəfər də olsun sinfi düşmən tapa bilməmişəm, dişləri yekə, qarnı yoğun adama rast gəlməmişəm. Buna görə də həmin tənqidçilər deyirdilər: pyesdən belə çıxır ki, daha kənddə qolçomaq qalmayıb, onunla mübarizə də lazım deyil. Bu iddia ilə də Cəfərin etirazına baxmayaraq, Toğrulun həmin sözlərini tamaşadan çıxardılar.

Bir neçə gün sonra mərkəzi qəzetlərdə bir məqalə dərc olunmuşdu. Həmin məqalədə göstərilirdi ki, bizim ziyalılarımız qolçomaqları iridiş, yekəqarın təsəvvür edərək, kolxozdan kənarda axtarıb ifşa etməyə çalışırlar. Ancaq qolçomaq maskalanaraq kolxoza girib, onu içəridən dağıdır.



Bu məqalədən sonra yenə əsəri olduğu kimi saxladılar.

Bir dəfə soruşdum:

– Bu nədir, ay Cəfər, sən əsərlərini yazıb qurtarmamış, tənqidi hazır olur. Belə neyçün?

O, fikrə getdi, əvvəl qaşqabağı tutuldu, sonra gülüb cavab verdi:

– Eh, Sonası, görünür bəzi tənqidçi və yazıçı "dostlarım" məni həddindən artıq çox sevirlər. Bəs eşitməmisən ki, pişik öz balasını istədiyindən yeyir?

Mən onun bu zarafatına tam ciddiliklə cavab verdim:

– Axı onu da deyirlər ki, bəzən pişik öz balasını nanəcimlikdən yeyir?

Cəfər məni diqqətlə süzüb dərindən ah çəkdi, acı-acı gülümsündü:

– Hə... Təəssüf ki, bəzən elə də olur...

Onu da deyim ki, Cəfər nikbin və mübariz idi, hələm-hələm ruhdan düşməz, güzəştə getməzdi, xüsusən yaradıcılıqda. Həm də özünə, öz dövrünə möhkəm inamı var idi. Məktublarından birində yazırdı: "Biz bilirik ki, Şura üsul-idarəsi altında heç kəs bizi şəxsi mülahizələrdə başqalarına boyun əyməyə məcbur edə bilməz!.."

Otuzuncu illərin əvvəllərində Cəfər üç-dörd dəfə səfərə getmişdi. 1930-cu ildə ilk böyük səfəri – dram teatrlarının Ümumittifaq olimpiadasında iştirak etmək üçün Azərbaycan Dövlət Bədaye Dram Teatrının heyətində Moskvada, Leninqradda və Qazanda olmuşdu. O, bundan böyük yaradıcılıq ilhamı almış, xoş təəssürat və yeni ilhamla qayıtmışdı.

1930-cu ilin iyulunda Moskvadan mənə yazırdı:

"...Burada, Sonası, işlər çox yamandır. Gündə tənqiddir. Dünən yenə bizim teatr haqqında mübahisə var idi. Mənə dedilər məruzə et, mən etmədim. Çünki onda məcbur

oluram, özüm öz düşündüyümü istədiyim kimi deməyim. Məsələn, teatrın bir çox quruluşları ilə razı olmadığım halda, teatr tərəfindən məruzə etdiyim üçün tənqid edənlərə qarşı bu nöqsanları bir qədər zəif göstərməyə məcbur oluram. Odur ki, mən etmək istəmədim. Tuqanov məruzə etdi. Düşdülər üstünə, nə düşdülər. Gələrəm, hamısını sənə nəql edərəm. O ki qaldı mənim haqqımda olan fikrə, yəni ümumi fikrə, professorlar, teatrşünaslar, ədiblər, tənqidçilər hamısı bu fikirdədirlər ki, olimpiadada iştirak edən dramaturqlar arasında birinci yeri mən tuturam... Ancaq belə şeylər mənim qulağıma girmir. Mən istəyirəm ki, teatr özü özlüyündə birinci yeri tutsun. Hər halda rejissorluq cəhətincə və quruluşlar cə-hətincə bu ola bilməyəcəkdir. Dramaturgiya, yəni əsərlər və ondan başqa bir də aktyorlar cəhətincə işimiz yaxşıdır. İstəyirəm ki, bu saat durum yenə mübahisəyə gedim..."

Ümumiyyətlə, bu illərdə Cəfər səhhətinin pozulduğuna baxmayaraq, çox gərgin işləyirdi. Ömründə bircə dəfə kurorta, ya sanatoriyaya getməmişdi. Hətta bağa, yaylağa da gəlməyə vaxt tapmırdı; gələndə də ancaq işləmək üçün, yazmaq üçün gəlirdi. Məsələn, Bakıdan Qılıznya göndərdiyi və bağa gəlmək əvəzinə qəflətən Moskvaya getməyə məcbur olduğunu bildirən məktub maraqlıdır:

"Sonası!

Daha işim lap bitdi. Məni axtarmaq istəsən, yazarsan Moskvaya.

Iş düşüb bətimin naxoş çağına,
Baxmadılar qarasına, ağına.
Lap yetapla oturdular vaqona,
Sona, mən Moskova varmalı oldum.
"Şahsənəmin" işi düşüb əngələ,



Çox çalışdım, quyruq verməyim ələ,
Ara yerdə başım düşdü cəncələ,
Sona, mən Moskova varmalı oldum.

Sonası, bəlkə o cür başa düşməzsən, nigaran qalarsan, qoy açıq yazım, çünki vaxtım azdır. "Şahsənəm"i bir vaxt Qalperin adlı bir Moskva şairi yazmışdır. Mən də tərcümə etmişdim. Sonradan Na-kompros belə qət etdi ki, Qalperin axmaq yazıb və bu məzmun yaramaz. Mənə dedilər: bu vəziyyətdən necə çıxmaq olar? Mən başqa bir məzmun təklif elədim. Hamı dedi, bu yaxşıdır. Qəbul elədilər. Birinci pərdəsini yazıb verdim. Qliyer apardı, musiqi də yazdım, verdim Qliyerə.

...Naxoş olduğuma baxmayaraq, Moskvaya getməyə razı oldum... Odur ki, sabah yumşaq "ekspress" vaqonu ilə yola düşürəm. İki günlüyə. 3 gün o yana, 3 gün bu yana yol. 2 gün də orada. Hamısı 8 gündən sonra Bakıdayam..."

Yaxud başqa bir məktubda yazırdı:

"...Sona, Sonası, öz işim belədir: Moskvada qət olunub ki, kinoda "1905-ci il"in pastanovkasını ancaq mən verməliyəm. Özgə adamın verməsinə razı olmayıblar. Moskvada həll olunub ki, hansı kinolar gedə bilər və hansını hansı rejissor qoymalıdır. "1905-ci ildə" filminin rejissorundan söhbət gedəndə demişdilər ki, Braginski-mraginski tanımırıq, Cəfər özü qoymalıdır. Özü də bu il olmalıdır. Və teatrdan kinoya keçməlidir. Mən dedim: teatrdan getmərəm. Sonra dedilər ki, teatrda da, kinoda da işlə. İndi gərək rejissor ssenarisinə başlayaq. Ayın 1-dən kinoda qulluqdayam. Sonra "Səfa"nın ancaq 4-cü pərdəsi qalıb, 1-ci, 2-ci, 3-cü pərdələrini qurtarmışam. Tamam-kamal. Bu yandan da Qliyer gəlib Narkomprosda deyir: gərək bir həftəyə "Şahsənəm"i qurtarasan, operada oynayaq. Deyirəm, vaxtım

yoxdur. Deyirlər, özgə adam eləyə bilməz. Bu yandan da Şillerin "Qaçaqlar"ı, o yandan da "Əfqanıstan"... Xülasə, sənə yazaram... Sonra Türk teatrında[1] "1905-ci ildə"ni quruluşda verməliyəm. Rus teatrında da "1905-ci ildə" gedir. Mayorov deyir, gərək ikili işləyək, tək qoya bilmərəm. Operada da "Səfa"nın pastanovkasını gərək mən verəm. Bizim teatrda da "Otello"nu təzələmək boynuma qalmışdır. Onlardan bir cür ilə boyun qaçırmışam. Hamısı da deyir bir vaxtda. Xülasə, aləm çaxnaşıb bir-birinə, heç bilmirəm nə edəcəyəm. Hə, "Od gəlini"ni də gərək Mayorov ilə mən işləyəm. Budur, təxminən mənim işlərim. İndi gələk sənin işlərinə..."

Bizim "işlərimiz" deyəndə Cəfər uşaqların necə istirahət etdiyi ilə maraqlanır, qohum-qardaşdan hal-əhval tuturdu.

1930-cu ilin mayında Moskvadan mənə yazırdı:
"Bu gün ayın 26-dır və səndən birinci kağızdır ki, almışam. 20-də yazdığın kağız bu gün gəlib çıxmışdır. Mən çox nigarandım. Dünən təyyarə ilə kağız göndərmişəm. Kağızını alan kimi tez cavab yazdım. Sən deyirsən, mən teleqram göndərməmişəm. Halbuki teleqramın kvitansiyasını saxlamışam. İstədim göndərim, qorxdum birdən bu kağız da itər, sənə çatmaz. Gələndə göstərərəm. O ki qaldı sənin naxoşluğuna, mən pozuldum. Əgər çox rahatsız edirsə, teleqram vur, elə o gün buradan çıxaram. Saat 5-dir, çörək də yeməmişəm. Hələ fikrim oradadır, dəli kimi düşünürəm. Tez mənə cavab yaz və teleqram ilə bildir... Hamıya salam de. Arvadları və qızları öp. Kişilərə də salam söylə."

[1] Azərbaycan Dövlət Dram Teatrı





Madam ki, Cəfərin məktublarından söz düşdü, onlardan bir qədər ətraflı danışsam, daha doğrusu, bəzi məktublarını oxuculara təqdim etsəm, məncə maraqlı olar.

Əvvələn, onu deyim ki, Cəfər böyük ədib, gözəl insan olmaqla bərabər, eyni zamanda qayğıkeş bir evdar, mehriban bir ata, səliqəli bir təsərrüfatçı idi. Öz ailəsini sonsuz məhəbbətlə sevir, bizim hər bir arzumuzu yerinə yetirmək üçün heç nəyi əsirgəmirdi. Ailəmiz böyük, maddi vəziyyətimiz ağır olsa da, o, bizi heç nədən korluq çəkməyə qoymurdu. Bunu məktublarından da aydın görmək olar.

Sonra da onu qeyd edim ki, Cəfər bizdən ayrılıqda olanda (biz Bakıda qalıb o səfərə çıxanda, yaxud biz yaylağa gedib o, Bakıda qalanda) tez-tez mənə məktublar yazır, hər şeydən ətraflı məlumat verib, ətraflı da məlumat istərdi. Məktubları da çox mükəmməl və məzəli olardı.

Onların bir neçəsinə nəzər salın:
"Əssalam, ey Sonası, əhli-əyalın anası!
Salam-duadan sonra yazıb məlum edirəm ki, biz burada çox ortabab yaşayırıq, biləsən-bilməyəsən... Səndən sonra bir balaca biləyim ağrıyırdı, indi babatdır. Məni ən çox incidən odur ki, sənsiz darıxıram, elə bilirəm, ev-eşik mənimlə vuruşur ki, bəs Sonası hanı? Odur ki, mən də acığımdan naxoşlayıram. Bu günlərdə bəlkə gəldim, bəlkə yox. Gedərsən bulaq başına, bir ədəd mükəmməl qoyun alarsan, kəsərsən, uşaqları oturdarsan yanında, əhli-əyalı yığarsan başına. Deyir:

Əbləh odur dünya üçün qəm çəkər,
Kim nə bilir kim qazanar, kim yeyər?

Ancaq məsələ burasında deyil. Uşaqlar oradan bir kök "hap" eləsinlər, mən də eşidim. Sonra, bilirəm, yuxuda

görmüsən, ancaq bərayi-məlumat bildirirəm, başın sağ olsun, balıq Allah rəhmətinə getdi, Allah səbr versin. Uşaqlardan mənə bir xəbər, çox nigaranam, hamısının barəsində yaz. Uşaqlara çiy yumurta və süd ver, onları yaxşı elər, xəsislik eləmə.

Beş gün dünya dərdə dəyməz,
Bir gün acsan, bir gün tox.
Səksən, doxsan, bir gün yoxsan
Bir gün varsan, bir gün yox...
Vur qədəhlər toqquşsun, qoy
Dalğalansın badələr,
Qoy ariflər zövq alsınlar,
Qəm çəksinlər sadələr...

Bunu Yaqo deyir. Birinci kupletə mən də şərikəm, ikincisini özün fikirləşərsən... Yox, yox, başına dönüm, fikirləşmə ki, qənbərqulu çıxararsan, fikirləşmək sənə zərərdir. Ye, iç, gəz, mən sənə ixtiyar verirəm, ancaq özünü gözlə ki, naxoşlamayasan. Evdə oturma, əsəbiləşmə, get meşəyə, dağa, at tut, eşşək tut, ya da Ocaqqulunun qatırı ilə get gəz... Daha nə yazım, mənə elə gəlir ki, hamısını yazdım, birdən yaddan çıxanı olar, məndən inciyər. Bari salam! Əmirəl-mömünin xəlifənin əllərini öpürəm.

*Cəfər Cabbarlı"*
*(1931-ci il, Bakıdan Yarımca yaylağına)*

"Sonası!

Vaxt yoxdur. Bu saat bazardan gəlmişəm. Sənin üçün şey-mey almağa getmişdim. Bu gün "Od gəlini"ni[1] qurtarmalı idim plan üzrə. Sonra bir-iki gün gəlib bağda qala

[1] Pyesin yeni variantı nəzərdə tutulur.



bilərdim. Ancaq "Kommunist" idarəsində yığıncaq vardı, dünən gecə getmişdim oraya. Bu gün də getdim şey-mey almağa. Ona görə çox güman ki, plandan bir az gecikməli olacağam. Güman ki, biri gün qurtararam. Sonası, mən çox şadam ki, sənin, uşaqların kefi yaxşıdır. Mənə dedilər Aydının qarnı bir az pozulub. Qorxma, eybi yoxdur, ancaq bax da. Deyirlər Gülarə yaxşıdır. Sonası, mənim üçün böyük, qiymətli, tarixi bir şey göndərmisən. Çox güman ki, özün bir o qədər də onun qiymətini düşünməmisən. Aydının və Heydərin məktubu. Bu tarixi bir məktubdur. Oğlum mənə məktub yazmışdır. Çox fikir verdim. Dedim bəlkə sən yazmısan. Mənə elə gəldi ki, sözlər sənindir, yazı onun, "ç" hərfindən belə güman edirəm. "Ç" hərfini yaza bilmir, çalış öyrədəsən. Hər ikisini mənim yerimə öp. Gülarəni lap ayrıca öp, bir neçə dəfə... Sonası, eşitdim ki, ayağın burxulubdur, mənə yazmamısan, qorxmusan ki, qorxaram. Sonası, sən Allah, hər nə oldu, yaz mənə.

İndi işə keçək. Qanov səni çox qorxudur. Raboçilərlə danışmışdım 650 manata. Sementi onlardan, daşı bizdən. Sement tapa bilmədilər. Qazıdılar qaldı. Tiflisdən qayıtdım, incinar gəldi, baxdı, dedilər: biz sənə torba və sement verərik. Xülasə, düzəltmişəm, qorxma. İşdir də, "tutdu qatıq, tutmadı ayran." Sonası, kağızını qoydum qabağıma. Sən deyən kimi oxudum, fikirləşdim, düzəltdim, yazdım. Getdim bazara, aldım. Odur ki, göndərirəm sənə: pomidor, badımcan, Gülarə üçün gavalı və fındıq, 4 dənə ördək (o da Gülarə üçün, salsın suya, özləri üzərlər); 3 ədəd vazilen, günə verəndə uşaqlara sürtərsən, 2 balaca şüşə duxi (yəni, bir növ duxi), bir də bir qayış. Məktubunu sonra aldım. Uşaqlarımın məktublarını gizlətmişəm. Gələndən sonra ramkaya salarsan! Sonra göndərirəm bint, sinkovıy maz, bir az da pambıq – hamısı lazım olar... Pomidorların arasına

bağçamızdan bir-ikisini qoydum, bəlkə özün tanıyasan. Sonası, qənd göndərmək istəyirdim, ancaq Məmməd dedi ki, yüküm ağırdır. Adam düşən kimi göndərərəm. Məmməd ilə sənə 600 manat pul göndərdim. Bax gör, nə edirsən et.

Sonra, Sonası, mən bir şeyi sənə yazmalıyam. Ağarza deyirdi, bilirəm, Əfruz gəlib nə deyib, mən çox pozuldum. Sən, Sonası, güman edə bilərmisən ki, mən sənin bir dırnağını bütün dünyanın arvadlarına, qızlarına dəyişdirə bilərəm?.. Sən mənim qucağımda böyümüsən və çox güman ki, mən sənin qucağında öləcəyəm... Hər gün sənin və Gülarənin şəkillərini götürüb öpürəm, öpürəm, yenə də gedib işləyirəm. Yorulanda yenə də şəkillərinizi götürüb öpürəm. Başqa kimim var?.. Sonası, mən istəyirəm dünyada sənin ürəyində heç bir arzu qalmasın. Mən istəyirəm həyatın boş keçməsin. Mənim ümidim, sığınacaq yerim bircə sənsən!..

Sonası, sən Allah hər səhər süd və yumurta iç, sənə xeyirdir, əsəbilərini dincəldər. Gülarəyə də ver. Aydına da ver. Heydər diribaşdır, dirçələr. Quyudan çox nigaranam. Hər gecə uşaqları yuxuda görürəm. Sonası, ölürəm, bir görüm sən necə axsayırsan. Çox güman ki, sənə balaca axsamaq yaraşar. Qorxma, keçər gedər. Qorxursan, gəl şəhərə, doktor baxsın, iki günlüyə... Sonası, sən bilirsən ki, mən kağız yazmağa çox tənbələm. Ancaq mənə elə gəlir ki, sənə yüz il də yazsam, yazaram... Bilirsən, Sonası, darıxıram sənsiz. Bəzən beynim dumanlanır, heç özüm bilmirəm nə edim.

Unum yoxdur, Sonası, göndərmək də istəməz, çünki burada gündə bir çörək alıram, mənə bəsdir. Unu nə edəcəyəm? Əyirəni kim, bacaranı kim? Həyət-baca salamatdır. İşimi qurtaran kimi gələrəm. Gələ bilməsəm, sən gələrsən. Yazaram sənə. Kinodan deyirlər gəl işə başla. Bilmirəm



nə edim? Səninlə məsləhətləşmək və sonra bir qərara gəlmək istəyirəm.

Salam-dua hamısına. Daha adla yazmıram, özün hamısına deyərsən. Ancaq, su qoy, ördəklər sınmamış, sal suya, Gülarə oynasın. Qəndi Şəmsəddin ilə göndərəcəyəm.
*Cəfər Cabbarlı"*
*(1932-ci il, Bakıdan Qılızı bağlarına)*

"Sonası!
Əvvəla, bilmirəm Musaya nə pulu borclusan. Hərçənd o sənin öz işindir; mən qatışan iş deyil, ancaq elə-belə soruşuram. Dedim bəlkə un-mun almısan. İkinci, yenə yazırsan ki, fikirləşirəm. Onda mən də başlayıram fikirləşməyə. Özü də elə bir şey fikirləşirsən ki, heç dəxli yoxdur mətləbə. Sonra da, yazmırsan orada havalar necədir. Burada isti bir qədər sınıbdır, havalar ortababdır.

Mənim işlərim yaman deyil. Ancaq hey çalışıram, məni buraxmırlar ki, buraxmırlar. İstəyirəm nə olursa-olsun, gələn düşənbə günü, yəni ayın 24-də saat 2-də buradan çıxım. Təxminən saat 5-in yarısında Sitalçay stasionunda olum. Seşənbə günü, ayın 25-də vıxadnoyumdur, orada qalım, 26-da qayıdım. Əgər ayrıca xəbər göndərməsəm, belə edərəm.

Bir də, Sonası, məktubların çox başsız-ayaqsız olur. Gülarə haqqında çox dumanlı yazırsan, demirsən qızdırması var-yoxdur, yeriyir-yerimir, nə yeyir, nə yemir? Aydının çibanı necədir? Havalar necədir? Yerin rahatdır, yox? Uşaqlar səni çox incidir, yox? Burada mən sən tapşırdığın işləri, demək olar ki, etmişəm. İşığı açdırmışam, su çəkmək üçün pulun yarısını vermişəm, yarısını da verəcəyəm. Su çəkmək üçün həyəti qazıtdırmışam, bağdakı torbanı çıxarmaq üçün ixtiyar almışam. Ancaq mənə təzə torba vəd

etmişlər, özüm qəsdən 3-4 gün gecikdirirəm ki, bəlkə təzə torba salım, biryolluq olsun. Olmasa, sən gələnə kimi o köhnələrdən də olsa, çəkdirəcəyəm. Hər halda sən bura gəlirkən kranı mətbəxdə görəcəksən, buna şəkk-şübhə yoxdur. Ancaq sağ olsam.

Sənin üçün hələlik 350 manat göndərirəm, yenə də göndərərəm, ya özüm gələndə gətirərəm. Ancaq sən Allah, Sonası, uşaqlara sıxıntı çəkdirmə. Özün də dənizdə çox oturma. İki dəqiqə ləpədöyəndə otur, çıx. Aydını da. Qalanları çimə bilərlər. Ancaq çıxandan sonra yaxşı qurut. Vallah, Sonası, uşaqlar üçün, illah ki, səninlə Gülarə üçün lap ürəyim əzilir. Aydının qarnı necədir, qənbər-qulu çıxarmır ki?

Sonrası, "1905-ci il"i bu il erməni teatrı da öz açılışlarında qoyacaqdır, bizim də teatrımız açılışda verəcəkdir. Bu il rus işçi teatrı da onu oynayacaqdır. Daha bilmirəm, nə bilmək istəyirsən? Məncə, hər bir şeyi yazdım. Həyət-baca, bağ-bağça, qazlar, itlər salamatdırlar. Ancaq toyuqlarda xəstəlik var, üçü ölübdür. Burada bir az uşaq xəs-təliyi də vardır. Özüm yaman deyiləm, ürəyim də indi babatdır. Əjdərin yanından gələn vardır, ona da tapşırmışam ki, mənə tez-tez məktub yazsın. Deyirlər, Əliağa bir az qızdırırmış, indi sağalıbdır. Yağımız qurtarmışdır, on iki girvənkə quyruq aldırdım, əritdirdim. 7 girvənkə də kooperativdən yaxşı mürəbbə alıb saxlamışam. İstəyirsən, zoğal və başqa mürəbbələr də bişirtdirim. Çay yoxdur, mən gələnə tapıb gətirərəm. Sportsmenka yoxdur heç yerdə. Sənin üçün pilətə, pesok göndərmişəm, bilmirəm çatıb, yoxsa yox. Mən gələn düşənbə günü saat beşin yarısında Sitalçay stasionundayam. Qazalar olsa da olar, olmasa da. Çünki mən piyada da gələ bilərəm, xalqa zəhmət vermək istəmirəm. Əgər o vaxtadək gələn olsa, Törədən, Zöhrədən, Mələkdən, Əminədən və uşaqlarından məlumat yaz. Zeynəbi, Püstəbacını da



yaddan çıxarma. Ürəyin haqqında məlumat yaz. Ancaq fikir vermə, bilirsən ki, boş şeydir. Mümkün olsa, bir-iki girvənkə sirkədən, abqoradan al, olmasa istəməz.

Öpürəm səni, Gülarəni ("ha"i), Aydını (Yox, a!) və bütün əhli-əyalı. Baqi salam. Əmirəl-mömünün xəlifənin əlini öpürəm.
*Cəfər Cabbarlı"*
*(1932-ci il, Bakıdan Qılızı bağlarına)*

"Sonası!
Burada hər şey yerindədir. Suçu hələ bağdan gəlməyib. O biri işləri də xəstə olduğum üçün görə bilməmişəm. İndi sağalmışam, gedib görərəm. Yaşayışımız yaman deyil. Ancaq sizin üçün darıxıram. Əvvəl günlər lap ürəyim ağrıyırdı. Həkim gəldi. Sonradan keçdi-getdi.
Uşaqları soyuğa vermə. Apar onları o yekə ağacın altına, ancaq isti-soyuqdan, tərdən və misri xəstəliklərindən gözlə... Ora, çox güman ki, yaxşı olar. Dağ günəşi uşaqlar üçün yaxşıdır, sizin üçün də. Bəlkə mən də bir neçə günlük gələ bildim. Ancaq o cür ki, Şəmsəddin və Əbdüləli dedilər, güman edirəm ki, yolda çox əziyyət çəkmişsiniz. Nə isə, Yarımcanın havası xəsis deyil, inşallah yerini doldurar. Sözlərin yerdə qalanını saxlayıram gələn səfər üçün. Hamıya salam, daha adlarını yazmıram, özün hamısına deyərsən...

İlahi, "bətəqəbbəl buduana" (yəni qəbul elə duamızı).

"Vətəxəbbüzəni" (yəni sən saxla bizim üçün): xatuni mükərrəm əl Sona binti Bayram fisa-laləti Cəlili və bintəhu əl Gülarətül Cabbarlı ("ha") və əbbəho Ayduşqa, Heydər və ümməhü Zeynəb və əssabəho Mələk, Zəhra, Əminə, Musa, İsa, so svoimi detmi və ilaxır.

Gülarəyə deyərsən "ha", onlar da bir-bir öpərsən. Pul tez göndərərəm. Qorxma, uşaqları yemək cəhətincə sıxma.

Yoxsa sən bir az xəsissən. Özüm və işlərim yaman deyil. Baqi salam, Əmirəl-mömünün xəlifənin gözlərindən öpürəm.
*Cəfər Cabbarlı"*
*(1931-ci il, Bakıdan Yarımca yaylağına)*

"Sonası!
Xanbacı ilə sənin üçün hələlik 350 manat göndərdim. Ağarzaya pul verə bilmədim, ona görə ki, yol üstdə idim. Səfərkeşəm, balam da, Moskova gedirəm. Dünka demişkən, kobud adamların arasında qalmayacağam ki... Gələndən sonra, yəni dübbədüz 8 gündən sonra qayıdıb borclarını, çox güman ki, verərəm... Aydın üçün doktora xinin tapşırmışam. Sən Allah, Sonası, indi havalar bir az soyuqlaşır, onun eybi yoxdu, daha da sağlam olar. Nə qədər soyuq olsa, yaxşıdır. Ancaq uşaqları səhər-axşam geyindir, soyuğa verməə... Özün şirə iç, soyuqda ləzzət eylər. Daha sağalmışam, gəlməyə dəyməz. Onu da yazım ki, son məktubun məni çox sevindirdi, onda bir istilik hiss etdim. Ömründə ilk dəfə mənə "Cəfərciyim" yazırsan. Ancaq ona görə məktubu dörd-beş dəfə oxudum. Mən sənsiz ağlamışam, sonra sən də ağlamısan. Nahaq yerə. Mən naxoşdum, sən burda yoxdun, fikirləşdim, ölərəm səni görmərəm, ürəyim nazikləşdi. Bir də Gülarə oturmuşdu, əllərini bir-birinə çatmışdı, şeytan kimi üzümə baxırdı, gözlərini də bərəltmişdi. Lap ürəyim nazikləşdi, ona görə ağladım. Adamlar gələndə mən özümü saxladım, görməsinlər. Ancaq onlar balkonda imişlər, eşidiblər... A kişi, o bir şey deyil. Baş idi, ağrıyırdı, bir-iki gün çəkdi, keçdi. Ancaq yola da bir az naxoş kimi çıxıram, balaca təsiri qalmışdır, hələ tamamilə keçməmişdir.



Buğdalar qalsın orada, hazırlıqdan sonra kolxoz ticarəti açılar, gətirtdirərik. Hələlik komerçeski çörək verirlər, alıb keçinərik. Gəlib aparsalar da, cəhənnəmə, onun üçün heç fikir eləmə. Mən bilirəm, onlar üçün o qədər fikirləşəcəksən ki, yediklərin də burnundan gələcəkdir. Heç fikirləşmə, xalqın gəmiləri gedib nə olub ki, sənin 3 kisə buğdan getsin, bir şey olsun? Sonası, kağız yazanda cavab ver. Özü də kağız yazmaq üçün mənim gəlməyimi gözləmə. Yaz, hər kim gəldi, göndər, gəlib hamısını oxuyaram. Bu saat zəng çaldı Əfrasiyab ki, çıxmaq lazımdır. Bağışla, Sonası. Uşaqları yaxşı saxla. Öpürəm Aydını, öpürəm Gülarəni. Salam de hamısına, Heydərə və başqa uşaqlara... Böyüklərə ki, qaydası ilə özün deyərsən. Məmməd üçün 5 qutu "Baksovet" göndərirəm. Mən çox şadam ki, son məktubunu alıb gedirəm. Öpürəm sənin gözlərindən, əllərindən.
*Cəfər Cabbarlı"*
*(1930-cu il, Bakıdan Qılızı bağlarına)*

"Sonası!
Sənə ona görə kağız yaza bilmirdim ki, yerimiz müəyyən deyildi. İndi hələlik müəyyəndir, özü də yaman deyildir. Bir otaqda 3 adam oluruq. Yemək o yandan-bu yandan tapırıq. Yolda 7 manat yarıma 100 dənə yumurta almışdım, indiyə kimi davam edir. Yağ da almışdım. Xülasə, bu barədə düzələr. Ancaq orası var ki, sənsiz və sizsiz çox darıxıram. Hələlik Leninqraddayıq. İyunun 1-nə kimi burada yaşayacağıq. Sonra sənə yazaram. Leninqrad yaxşı şəhərdir. Mən Tiflisi, Yerevanı görəndən sonra güman edirdim ki, Bakıdan yaxşı şəhər yoxdur, ola da bilməz. Ancaq Leninqrad heç yaman deyil. Küçələri göz işlədikcə dübbədüz uzanır, evlər 6-7 mərtəbə, ağır qranitdən (yəni, qranit, bir növ, adıdır). Şəhərin içindən, küçələrin bir çoxundan Neva çayı

axır. Çayın axını o qədər yavaşdır ki, hansı yana axdığı bilinmir. İçində barkaslar, qayıqlar üzür. Üzü güzgü kimi parıldayır və şəhərə olduqca böyük bir gözəllik verir. Tinbaşı tuncdan böyük abidələr, heykəllər vardır. Padşahın-madşahın otaq-motağına hələ baxmamışam. Baxıb sənə yazaram. Hər küçədən tramvay keçir. Şəhərin stili Bakı stilindədir, ancaq bu böyükdür. Nə isə, keçək o tərəfə.

Truppamız 4 tamaşa vermişdir (iki "Od gəlini", iki "Sevil"). Sabahdan bu teatrlarında birində iki "Hamlet", iki "Hacı Qara", sonra da iki "Gülən adam" gedəcək. Ondan sonra həmin bu şəhərdə başqa teatrda yenə də bu oyunları verəcəyik. Tamaşalar ayın 10-da "Od gəlini" ilə başlanmış, burada ayın, yəni mayın sonuna kimi davam edəcəkdir. Kassada bilet satılmır, çünki qabaqcadan hamısı alınmışdır. Bütün oyunlara. Bu belə.

Sonra, yolda gəlirkən Quba, Dərbənd, Mahacqala, Temirxanşura, Rostov, Ryazan, Moskva və başqa şəhərləri gördük. Moskva böyükdür. Ancaq dolama-dolaşıqdır. Şeytan da baş çıxarmaz. Bakıdan gözəl deyil. O biri şəhərlərin heç biri Bakıya çatmaz. Hamısı böyük kəndə oxşayır. Moskvaya qayıdanda yaxşı-yaxşı şəhərə baxıb, yenə də yazaram. Bu da belə.

Bakıdan gətirdiyim pul hələ də davam edir. Əgər sənə pul gərəksə, yaz göndərim. Burada mağazalarda hər cür yaxşı-yaxşı şeylər var. Hayıf ki, pul yoxdur. Nə gərəksə, ət maşını, quyhaquy, portfel, oyuncaq, paltar, mıncıq və sairə və sairə yaz, alım gətirim. Ancaq pul məsələsini də, təbii düşünməmiş olma. Nə isə, bu da belə.

Aydını öp və özünə də de ki, Bakıya gələn kimi mütləq velosiped alacağam. Heydəri də öp, deginən, onun üçün də yaxşı şeylər alacağam. O ki qaldı balaca qıza – Anaxanıma, Böyükxanıma, Böyükməməyə, Böyükbikəyə,



Şahbikəyə, Almaza, Gülarəmə (kim necə deyirsə) onun üçün gərək mükəmməl bir şaq-şaq alım ki, xalq oxusun, zad eləsin. Əvvəla, bu böyüyüb, böyüməyib? Dil açıb, açmayıb? Açıbsa, rusca danışır, ya türkcə?[1] Məktəbə-zada qoymusan, ya yox? Ha, ha, ha... Əgər məktəbə gedə bilirsə, onun üçün balaca bir sumka da alım gətirim...

Hamısını öpərsən. Mələyi lap möhkəm öpərsən. Törəni də bərkindən. Allaha pənah, Zöhrəni də uşaqları ilə. Birdən etiraz eləsə, deyərsən ki, öz yerimə öpürəm. Əjdərə kök bir salam-dua. Məmmədə düşbərəliyindən, Şəmsəddinə qutablığından, Ağarzaya da xəmiraşılığından salam-dua de. Zeynəbə de ki, onsuz dünya heç nə. Püstəbacıya deginən ki, həyətdəki böyük ağacı çıxarsın, yerinə bir az vəzəri, ya da turşəng əksin, yoxsa böyük ağacın kölgəsində vəzəri bitməz, Xanbacıya, Ağabacıya hamısına salam. Bilmirəm, Sara ərə getdi, ya yox? Burada çox şey bilə bilmirəm. Məsələn, bir arvad görürəm, ya bir kişi görürəm, bilmirəm bunun baldızı kimdir, bacısı qızının bibisi gəlini kimə ərə gedib. Neçə uşağı olub və neçəsini yarımçıq saldırıb? Kim kimi bayıb, kim kimi almaq fikrindədir? Hərdən deyirəm: ay Sara bura-da olaydı, ha!

Sonası, yaz, bildir, pulun var, yoxdur? Bağ məsələn nə haldadır? Həyəti əkdirdinmi, bitirmi? Uşaqlar necədir? Hamısını bir-bir yaz, bildir. Bununla məruzəmi bitirirəm. Məruzə haqqında müzakirə açılır. Sual varsa, yazılı surətdə yazıb göndəriniz, cavab verim. Şarikin və Popkanın kefləri necədir? Pişik əfəndinin xorultusu sazdır, ya yox? Burada bir pişik vardı, 4-nü doğmuşdu. Ev yiyəmizin arvadı 3-nü boğub birini saxlayıb. Bilsəydim, qoymazdım. Gecə boğub, xəbərim olmayıbdır.

---

[1] Azərbaycanca

Bunların hamısı qurtardıqdan sonra, Sonası, yaz görüm, öz kefin necədir? Ürəyin yaxşıdırmı? Sənə teleqram göndərmişdim Əjdərgilin adresinə, bilmirəm çatdı, ya yox? Çünki onların adresi qısadır. Mənim adresim: Leninqrad, ul. Rakova, dom 6, kv. 26. Cabbarlı. Əhvalatın hamısını tez mənə yaz. Yol 5 gündür. Mayın 30-na kimi buradayam. Uşaqlardan nigaranam. Əgər pula heyfin gəlməsə, bir teleqram göndər, o bir günə gəlib çatır. Salamatlıqdırsa, teleqramda belə yaz: Leninqrad ul. Rakova dom 6, kv. 26. Cabbarlı jivyom xoroşo privet. Ya da bu ayaqdan istədiyin başqa sözü. Toçka zapetay qoyma, çünki artıq şeydir. Sonası, deyirəm məruzəni elə burada qurtarım. Qalanlarını başqa kağızlarda yazaram...
Öpürəm səni. Yerimə uşaqları öp. Baqi-salam!
*Cəfər Cabbarlı"*
*(1930-cu il, Leninqrad)*

"Sonası!
Bu saat lap qaranlıqda oturmuşam. Qızdırmam da ya 39-dur, ya elə bu yerdədir. Cibimdə yekə bir aspirin. İstədim atım, ancaq dedim, qabaqca kağızı yazım, sonra. Qaranlıqdır, ona görə ki, nömrənin elektriki xarab olubdur. Bax, yandı. Bu saat 10-un yarısıdır. Ancaq otaqda rahatca yazmaq olur. Bayırda işıqdır. 12-də bir az qaralır. Saat 1-də yenə hava açılır. Qazanın ümumi vəziyyəti haqqında yazanda buranı müfəssəl qeyd edərəm.

Sonası, mən kağızı yazdım, getdim poçta, gördüm Aydından kağız gəlib. Çox sevindim. Timuşkanın naxoşluğu xəbəri əhvalımı pozdu. Ancaq yaxşı ki, naxoşluğu keçmişdir. Uşaqları yaxşı gözlə. Sonası, maşınka üçün getdim, gördüm elə ikicə dənə qalıb, 5 nömrə, tez aldım, qoymadım nəfəsini çəksin. Bir də "naxoş, naxoş" deyəndə sən çox maraqlanma.



Mənim ki xasiyyətimi bilirsən, milçəkdən dəvə düzəldərəm. Elə bir şey deyil. Ancaq bir az başım ağrıyır, hər iki tərəfdən boğazım, bir də qulaqlarım. Sonra da dizlərimin və əllərimin bəndləri ağrıyır. Gözlərimin qapağı da ağrıyır. Qızdırmam var, titrədirəm də. Balaca tərli kimiyəm. Ancaq bədənim xalis xəmiraşı kimi axır. "Xəmiraşı" dedim, ağzım sulandı, bu saat nə yeyərdim! Sabah saat 1-də Qazandan çıxıb Moskvaya hərəkət edirəm. Bir də, Sonası, naxoşluqları o cür təsvir etdiyim zarafatdır. Ancaq ya soyuq dəyib, ya da malyariyadır. Mənim isə heç birindən qorxum yoxdur. Cibimdə aspirin də var, xinin də. Atasını yandıracağam, olursa-olsun. Sonası, lampoçka Moskvada alacağam. Tez kağız yaz, hər nə lazımsa, qeyd et, bəlkə burada tapıldı. Çəkmə, qaloş, sap və sairə. Bağdan bir xəbər yaz. Yerim məlum olmadığından, kağız bir az ara verdi. Bağrım çatlayırdı. Tez Moskvaya kağız yaz. Sonası, Məmməd ilə Əjdər üçün adama bir ingilis trubkası alsam, necədir? Otura bilmirəm. Mabədini sabah ayrı kağızda yazıb göndərərəm. Öpürəm səni.
*Cəfər Cabbarlı"*
*(1930-cu il, Qazan)*

"Sonası!
Heç bilmirəm nə üçün bizim məktublara cavab yazmırsan? Çox nigaran qalmışam. Sənə yazmışdım ki, hər nə lazımsa, yaz: divar saatı, kerosinka, primus, lampoçka və sair. Uşaqlar necədir? Ayın 6-da buradan çıxacağıq, 10-da Bakıda olacağıq. Sonası, Qazanda bərk naxoşlamışdım. Sən ki bilirsən, 11-ci kağızdan başlamış, kağızların hamısında yazmışdım ki, sağalmışam. Amma həmişə yalandan yazıram. İndi-indi yaxşılaşmışam. Başımın ağrısı keçmişdir. Bədənim də tamamilə möhkəmdir. Ancaq kağızlarıma cavab almıram,

çox nigaranam. Qorxuram, bəlkə naxoş-maxoş var, ona görə yazmırsan. Çünki mən hələ Qazandan sənə adres yazmışam. Sonası, burada heç bir şey yoxdur. Yekə mağazalar var, 4 mərtəbə, girirsən – heç bir şey yox. Bilmirəm, bağdan nə xəbər var?

Olimpiada yaxşı gedir. Moskvada birinci gecə "Od gəlini", ikinci gecə "Sevil", üçüncü gecə "Namus" oynamışıq. Sabah "Gülən adam", o biri gün də "Hamlet" gedir. Bunlar açıq tamaşalardır, yəni camaat üçün pul ilə oynayırlar. Ayın 29-da və 30-da olimpiada üçün "Sevil" və "Od gəlini" oynanılacaq.

Sonası, yaz görüm uşaqlar necədir? Aydın üçün lap ürəyim əzildi. Sonası, adam Cənnətdə də olsa, hey öz doğma evciyəzi üçün ürəyi əzilir. Bundan sonra mən hara getsəm, sənin və Aydının şəklini aparacağam. Görəsən, qız gəzir? Yazırsan ki, hər şey görür, aparır ağzına. Yəni lap belə ağız-burun bəhəm eləyib ki, şeyləri götürüb ağzına aparır? Sabah durub gedəcəyəm Aydın üçün tapança və velosiped axtarmağa.

Bu saat gecədir. Mən oturub yazı yazıram. Bağır Cabbarzadə də uzanıb, nağıl danışır. Moskvada yemək işi Qazandan daha yaxşıdır, ancaq bahadır.

Sonası, mən burada bərk işləyirəm. Səhər 8-də durub 9-da gedirəm leksiyaya, 11-in yarısına kimi orada qalıram. Yarım saat nahar, sonra başlanır bir teatrın olimpiada tamaşası. Orada məcburuq baxıb qiymət verməyə. Oradan 3-də çıxırıq, 4-ə kimi çörək yeyirik. Ondan sonra diskussiya, deyişmələr başlanır gecə saat 3-ə kimi. Dördün yarısında yatıram, 8-də yenə durub gedirəm.

Sonası, bu kağızın yetişməsi hesab et neçə günə gələr. Sonra hesablar, kağız yaz. Ayın 6-da buradan çıxacağıq. Adresim: Malaya Kislovka, 4. Sti. Cabbarlı. Əgər gəlib



çatacağım və ya çatmaya-cağımın vaxtına şübhən olsa, onda Lyubarskigilə yaz. Mən getmiş olsam, geri qaytararlar. Hələlik sağ ol. Öpürəm səni və Aydını.

*Cəfər Cabbarlı"*

*(1930-cu il, Moskva)*

"Sonası!

Mən ki sənə yazmışdım və adres göndərmişdim. Sən iki kağız göndərdin, sonra daha kağızın gəlmədi. Halbuki, sən kağız yazıb Lyubarskigilə göndərsən və mən çıxandan sonra gəlib çatsa, onlar kağızı Bakıya göndərərlər. Sonası, bu saat ovqatım bir az təlxdir. Çünki yaxşıca bir ruçka almışdım, özündənyazan, çernil tökürdüm içinə yazırdı. Bu gün itirdim. İndi yenə köhnə tas-köhnə hamamdır. Yəni Bakıdan çıxanda bir dənə yarıruçka-yarıkarandaş qələmim var idi ki, onunla yazıram. Doğrudur, Bakıdan çıxanı onu da itirmişəm. Ancaq burada ondan bir dənə də almışdım. Özündən yazan ruçkam isə qiyamət idi. Bir də, bir qəndsındıran kəlbətin almışdım, onu da dünən itirmişəm. Bir də, Aydının fincanını itirmişəm. Xülasə, itirmişəm, vəssalam. Bunların hamısı ondandır ki, zəhrimar cibim deşilir, nə qoyuram, düşür itir.

Sonası, sən keçən dəfə yazmışdın ki, uşaqların qarnı bir balaca pozulub. Sonradan kağız almamışam. Qanım yaman qaralıb, nigaran qalmışam. Mənə teleqram ilə bir cavab göndər. Amma gecdir. Gərək sabah teleqram göndərib deyim ki, teleqram çəkəsən, yoxsa çox nigaranam. Bir də ondan nigaranam ki, pulun yoxdur. Ancaq heç qəm çəkmə. Gələn gün hamısını verərəm. Səhər-axşam onu fikirləşirəm ki, Timuşkanı göyöskürək tutub, sən də uşaqları zarazit etməyəsən. Uşaqlar üçün, xüsusən Aydın üçün ürəyim axır, lap dəli olmuşam. Veyil kimi küçəni gəzirəm. Hansı o boyda

uşağı görürəm, dayanıb baxıram görüm, Aydına oxşayır, ya yox. Biz buradan ya ayın 8-də çıxacağıq, ya da 12-də. Teleqram ilə sənə bildirərəm. Görəsən, uşaqların kefi necədir? Heydər necədir, qız necədir? Gəzir, ya yox? Zeynəb necədir, Püstəbacı necədir, Mələk necədir, Törə, Zöhrə və uşaqları necədirlər? Məmməd üçün bir bumajnik almışam. Leninqradda var idi, Moskvada tapılmır.

Elə ki oxudum Aydın məni soruşur, ah çəkir, lap ürəyim xarab oldu. Uşaqlardan yaxşı muğayat ol. Hamıya məndən salam. Öpürəm səni və Aydını, qızı da, Heydəri də, hamısını.

*Cəfər Cabbarlı"*

*(1930-cu il, Moskva)*

"Sonası!

Çox qəribədir. Bilirsən, nigaran qalıram, Ağayargil gəlib, bir kağız da yazmamısan. Uşaqlar necədir, özün necəsən? Gülarə şüttili çay içir, ya yox? Pul göndərmişdim, gəldi çatdı, ya yox? 800 manat. Xanbacıya tramvay pulunu da vermişəm, vaqon pulusunu da. Şeyləri də gətirmişəm, birbaş aparıb vaqona qoyublar. Tiflisə getdim, gəldim. Gülarə üçün mərcənquludan bir kağızqabı aldım, evdə asmışam. Sənin üçün bir qayış almışdım, göndərirəm. Belinə tut, sonra tik, yaramasa, bax gör, olanı budur da... Şəmsəddin birisigün gələcəkdir. Mən də özümü saldıra bilsəm, bəlkə bir günlüyə gəldim. Olmasa, demişəm, Gülarə üçün fındıq alsınlar. Sonası, sən Allah, yaz Gülarə necədir. Yaz daha nə sözlər tapıbdır, hamısını yaz. Necə yatır, necə durur, nə deyir, nə demir, hamısını yaz. Mən şad oldum ki, Aydın və Heydər dərs oxuyurlar. Ancaq Aydını çox yorma, qoy bir az gəzsin, dincəlsin, bərkisin. Özün süd və yumurta iç. Çox yaxşı



edirsən ki, yaxşı yeyirsən, yeməkdən yaxşı dərman ola bilməz.

Sonası, darıxıram sənin üçün, gündüz axşama kimi gedirəm-gəlirəm, evləri axtarıram. Elə bilirəm otaqların birindən çıxacaqsan.

Operanın 4-cü pərdəsinin yarısındayam. Ancaq hələ "Od gəlini" üzərində işləyirəm. Çünki ayın 15-də məşqlər başlanacaq. Hazır olmalıdır. Onu qurtarandan sonra operanı – "Səfa"nı qurtaracağam. Sonra təzə bir pyes başlayacağam. Bəlkə pyesi yazmaq üçün bağa gəldim. Olmasa da, yazaram sənə. Sonası, mən gələ bilməsəm, sən heç olmasa, bir gün gəl, görüm səni. Elə üzünü görüm, sonra get. Sonası, medkartoçka məsələsini sənə yazmışdım, düzəldibdir. Ancaq hələ almamışam, bu günlərdə alaram. Getməyə vaxtım yoxdur. Sən olsan, məni itələyərsən, iki gündə alaram. Sən yoxsan, tələsmirəm. Özü də lap yaxşısından. Özüm yaman deyiləm. Necə görmüşdüsə Nuh, eyləcədir. Abed almıram. Yumurta almışdım, yeyirdim, qurtarıb, lazım olanda yumurta aldıraram. Mənə nə var, təki sən yaxşı dolanasan, Gülarə, Aydın dolansınlar! Gülarəm yaxşı dolansın!

"Sevil", "Yaşar", "1905" və "Almaz"dan başqa "Od gəlini" və "Dönüş"ü verirəm çapa.

Salam-dua məsələsinə gəlincə, hər kəsi gördün salam de. Zöhrəyə, Mələyə, Məmmədə, hamısına və uşaqlarına. Gerisini özün bilərsən. Çit-filan göndərmişdim, yaz çatdı, yox. Öpürəm alnından, Gülarəni bərk-bərk, lap bərk-bərk, Aydını gözlərindən öp. Zeynəbə də məndən salam de. Öpürəm gözündən.

*Cəfər Cabbarlı"*

*(1933-cü il, Bakıdan Qılızı bağlarına)*








Xalqımızın gözəl bir məsəli var: qayğıkeş, xoşxasiyyət adamlar üçün deyirlər ki, "böyüklə böyükdür, uşaqla uşaq". Cəfər də belə insanlardan idi. Özü gənc olmasına baxmayaraq, qoca ilə qoca, körpə ilə körpə kimi rəftar edərdi. Hamı ilə dil tapar, böyüklərlə şirin-şirin söhbət etdiyi kimi uşaqlarla da həvəslə əylənərdi. O, uşaqları çox sevərdi; həm də təkcə öz oğul və qızını deyil, bütün uşaqları... Hamısını öz balası bilir, gənc nəslə gələcəyimiz kimi baxırdı. "Mirzəmi" (uşaqlar onu belə çağırırdılar) bütün məhəllə uşaqlarının sevimli dostu idi.

Cəfər son vaxtlarda Əzizbəyov adına Azər-baycan Dövlət Dram Teatrında işləməklə bərabər, kinostudiyada da çalışırdı. Bundan başqa onu gah rus teatrına, gah operaya, gah erməni teatrına dəvət edir, əsərlərinin tamaşaya qoyulmasında on-dan məsləhət alırdılar. Bəzən iki-üç əsər üzərində birdən çalışır, tərcümə ilə də məşğul olurdu. Bu qədər iş-güc içində uşaqlarla məşğul olmağı, onları tərbiyə etməyi bir dəqiqə də olsun yaddan çıxarmırdı.

O, uşaqlarla söhbət etməyi, oynamağı xüsusilə çox sevirdi. Cəfəri bizim məhəllədə yaşayan bütün uşaqlar tanıyır, onunla oynayırdılar. O, dalana girən kimi "Mirzəmi gəldi, Mirzəmi gəldi!" – deyə onun arxasınca düşür, ətrafında atılıb-düşürdülər. Mirzəmi uşaqların birini-ikisini qucağına götürür, qalanları da o tərəf-bu tərəfindən sallanırdılar. İşdən arğın-yorğun gəlməsinə baxmayaraq, dərhal onlarla oynamağa başlar, uşaqların müxtəlif oyunlarında iştirak edərdi. Bütün bunlara görədir ki, Cəfərin səsi eşidilən kimi balaca həyətimizə otuza yaxın uşaq yığılardı. Bəzən uşaqları sərbəst buraxar, özü pəncərə arxasında oturub

onların oynamasına tamaşa edərdi. Neçə dəfə fotoqraf gətirib uşaqlarla birlikdə şəkil çəkdirmişdi.

O, uşaqları başına yığır, onlara müxtəlif su-allar verir, düzgün cavab verənləri mükafatlandırırdı. Cəfər uşaqların tərbiyəsinə xüsusi fikir verirdi. Yaxşı yadımdadır, biz Qılızı bağlarında idik. Cəfər mənə tapşırmışdı ki, uşaqları yuxudan tez oyat, səhər sübhdən bağın təmiz havasından doyunca udsunlar. Lakin bəzən uşaqlar səhər yuxudan durmaqda tənbəllik edirdilər. Ona görə də Cəfər onlara belə bir mahnı öyrətmişdi:

Duran öküz yatan öküzü tapdalar,
Tapdalar ha tapdalar, tapdalar.
Tənbəl öküzü qəssab alıb şappalar,
Şappalar ha, şappalar, şappalar...

Səhər uşaqlardan kim yuxudan tez oyanırdısa, bu mahnını oxuyub yanındakıları oyadardı. Buna görə də uşaqlar bir-birindən tez oyanmağa çalışırdılar. Cəfər qıraqda durub onlara fikir verər, hətta yeri gəldikcə özü də onlara qoşulardı.

Uşaqları döyməklə arası yox idi, onlara söz ilə təsir edərdi. Lakin bəzən hirslənib uşaqların üstünə əl qaldırmağa məcbur olanda bizə deyərdi ki, mən uşağı döydüyüm zaman siz tez gəlib onu əlimdən alın. Çünki əvvəla, uşaq çox döyülsə, xarab olar; ikincisi də uşaq qoy əmin olsun ki, əl tutan olmasaydı, çox döyüləcəkdi.

1933-cü ildə bizim məhəlləmizdəki məsci-din yerində uşaq bağçası açılırdı. O vaxt şəhərin ucqar guşəsi olan Dağlı məhəlləsində bu bağça məktəbdən sonra ikinci mədəniyyət ocağı idi. Yeni uşaq bağçası məhəllə əhalisinin böyük sevincinə səbəb olmuşdu. Odur ki, bütün evdar qadınlar iməcilik təşkil edərək, hər gün uşaq bağçasına işləməyə gedirdilər. Bu cümlədən, mən də iməcilikdə iştirak edirdim.



Binanın başa çatdırılmasına az qalmışdı. Bir istirahət günü qızğın iş gedirdi. Həmin gün evdar qadınlarla birlikdə müxtəlif idarə və müəssisələrdə çalışan qadınlar da bağça tikintisinə köməyə gəlmişdilər. Hamının başı işə o qədər qarışmışdı ki, həyətdə bir nəfər də olsun nahara çıxmamışdı. Günorta üstü bir də gördüm ki, Cəfər öz dostu Məmməd Əlili ilə birlikdə əlində bağlama oraya gəldi. Mən soruşdum ki, ay Cəfər, o əlindəki nədir? Cəfər bağlamanı mənə verib dedi:

– Sonası, səniçin nahar gətirmişik. Gördüm ki, gec gəldin, dedim yəqin arvadı bərk işə tutublar, üstəlik Əlilini də gətirmişəm ki, şəklinizi çəksin.

Əlili bağçada iməcilikdə çalışan qadınların foto-şəklini çəkdi.

Bir neçə vaxtdan sonra bağçanın açılışı oldu. Cəfərlə məni də dəvət etmişdilər, çünki balaca qızımız Gülarəni oraya qoymuşduq. Bağçanın açılışı çox təntənəli keçdi. Cəfər də nitq söylədi. Bundan sonra o, tez-tez bağçaya gedir, uşaqlarla uzun-uzadı söhbət edirdi. Bundan xoşhal olan bağça müdirəsi özü də Cəfəri tez-tez bağçaya dəvət edirdi. Cəfər bağça müdirəsinin sözünü yerə salmaz, oraya gedib uşaqlarla əylənər, hətta bəzən nahar vaxtı onlarla bir stolda oturub xörək də yeyərdi.

Cəfər evdə uşaqların dərsi ilə məşğul olmağa da vaxt tapırdı. Onların dəftər-kitabını yoxlayır, günün bir hissəsini onlara sərf edirdi. O, hətta başqa yerlərə getdiyi zaman uşaqlarına ayrıca məktublar yazırdı. 1934-cü ildə Moskvadan 10 yaşlı Aydına göndərdiyi məktubların birində belə yazırdı:

"Yoldaş Aydın Cabbarlı! Bu, ömrümdə birinci məktubdur ki, sənə yazıram. Bu gecə yumbalana-yumbalana gəlib girmisən yuxuma. Gördüm qızın qulağından

tutmusan. Aydın, yaz görüm evdə nə var, nə yox? Uşaqlara necə baxırsan, külfəti necə idarə edirsən? Məhəllə uşaqları ilə aran necədir? Rəhman ilə güləşirsən, ya yox? Heydərlə necə keçinirsən? Bu saat gərək ya çərpələng sezonudur, ya da aşıq-aşıq. Yaz görüm, Sonası sənə sap verir, vermir? Əgər vermirsə, yaz, sənə burada sap alım göndərim. Bir də, adə, filan-filan şüdə... bir utanmırsan, demirsən ki, bu Mirzəmi hanı, qotur bir kağız yazım ona? Vaxtın olsa, məşğuliyyətdən başın ayılsa, mənə bir kağız yaz. O ki qaldı velosipedə, ona heç şəkk-şübhə yoxdur, gərək alam, vəssalam. Qoy Sona qışqırsın ki, pulumuz çatmaz, qoy Zeynəb desin ki, velosiped həyətin qırını sökər, qoy kim nə deyirdesin, mənə kar etməz. Mənim sözüm qətidir: alacağam, vəssalam... Mən bu sözləri yazanda günəş başını pəncərədən içəri soxub hırtıldadı və mənə kök bir "Malades" deyəndən sonra onu da dedi ki, "Al, hər şey onundur!" Mən də dedim: "Yaxşı!"

Salam-dua anana və hamıya.

Aydınciyim, istədim sənə bir neçə yaxşı məsləhət yazım, ancaq gördüm bu çox şablon işdir. Hər kəs həyatı öz əqli ilə yaşamalıdır."

Başqa bir məktubunda yazırdı:

"Yoldaş Aydın Cabbarlı!

Əvvələn, salam-dua və saniyən bu tərəfin əhvalatın xəbər alsan, əlhəmdüllah, səhih və salim varıq və sizin canınıza duaku varıq. Bir də, yoldaş Aydın Cabbarlı, sən yekə bir kişisən, danqa aşıq nədir? Sən gərək ciddi işlərlə məşğul olasan. Odur ki, mən sənin üçün mükəmməl bir tüfəng almışam, onunla milçək ovlayasan, ya da nişan atasan. Tüfəng belədir ki, ucunda rezinli bir ağac var, atırsan ağac çıxır, gedir dəyir divara və habelə. Bir də sən zəhmət çəkib öz bacına bir az öyüd ver, şit-şit gülməsin (əmisi kimi), əlinə



gələni ağzına aparmasın (Mələk bacısı kimi), özünə də deginən ki, Mirzəmi uşaq-muşaq tayı deyil ki, sənə kağız yazsın, mən böyük kişiyəm, mənə yazır, haçan sən də qundaqdan çıxarsan, onda sənə də böyük adam kimi hörmət edərlər; sən hələ bəbəsən. Deginən ki... Xülasə, ağzına nə gəldi de, qurtardı, getdi.

Eşitdim bağçaya gedirsən, bilmək istərdim hansı bağçadı, haradadır və kimin bağçasıdır? Anana deginən, qızın qulağına yekə sırğa salmasın. O nədir ki, anan sənə deyir: Mirzəmi ac qalıb, bir dənə kağız da yazıb soruşmayırsan? Nə isə, bağçaya tək getmə, küçədə oynama ta mən gəlincə.

Ayduşka, sən yazmışdın ki, Sona bacı üçün çoxlu-çoxlu pul gətir. Pulu nə edirsən, sən özün hələ pulsan da!.. Ancaq hər halda, mən də sənin dediyinə görə gedib çoxlu-çoxlu pul aldım, gələndə sənin üçün gətirəcəyəm...

O səfər yazmışdın ki, uşaqlar ilə vuruşmursan, mən çox şad oldum. Konfeti də ondan sonra aldım. Bir azını bu kağız ilə göndərirəm. Sona bacı şkafda gizlədib, deginən Mirzəmi göndərən konfetləri ver. Qalanını da mən özüm gələndə gətirərəm. Ancaq, bura bax, vuruşmamısan-vuruşmamısan, yəni, bir-ikisinin də başını yarmamısan? Öz başını, yəqin ki, bir neçə kərə, bir neçə yerdən qanadıblar. Ancaq eybi yoxdur, igidin başı qalda gərək. Çalış vuruşma, elə ki vuruşdun, döymək dö-yülməkdən yaxşıdır, çünki adamın cibindən ge-dir... Gülarəyə de ki, onun da kağızını aldım, qulluğuna yetişərik. Heydər ilə, Rəhman ilə, Səttar ilə mən gəlincə neçə yol vuruşmusan, hesabını saxla.

Salam-dua məndən bütün məhəllə uşaqlarına, pəpəyeyəndən-məməyeyənə kimi. Öpürəm hamınızı, ayrılıqda səni."

Cəfər hətta uzaqda olanda da məhəllə ilə, qohum və tanışlarla, onların uşaqları ilə maraqlanırdı, necə yaşadıqlarını, səhhətlərini soruşurdu. Yenə Moskvadan Aydına yazdığı bir məktubda onun balaca dostlarının kefini xəbər alırdı:

"Aydın!

Sənin teleqramını aldım, çox şadam. Ancaq yazır-san ki, mən yaxşıyam. O biri uşaqlardan və Sonadan bir şey yazmamısan, mən də deyirəm bəlkə onlardan kefsizi var? Kağız yazanda gərək elə yazasan, aydın olsun. Mən yaxşıyam, ayın 13-də, gərək ki axşam Moskvadan yola düşürük.

Baqi salam-dua bütün məhəllə uşaqlarına.

Ayduşka, elə ki çıxıram bayıra, bir uşaq görürəm, tez baxıram görüm sənə oxşayırmı? O saat girirəm yaxındakı dükana, sənin üçün yaxşı-yaman bir şey alıram. Bu saat sənə dörd yapma balıq almışam, qoymuşam qabağıma, gələndə gəti-rəcəyəm.

Uşaqlara və anana salam, öpürəm səni. Ayduşka, elə bir kağız yazdın, yoruldun? Daha nə üçün yazmayırsan? O biri kağızını saxlamışam, ramkaya salacağam. Dərsini yaxşı oxu ha! Öpürəm səni!"

Cəfər məktublarda xahiş edirdi ki, uşaqlar ona məktub yazsınlar, yaza bilməyən körpələrin barmaqlarını məktuba basıb göndərməyimi, uşaqların dilindən ona məktub yazmağımı xahiş edirdi. Özü bəzən uşaq dilində məktublar yazırdı. Bir d-fə Tiflisdən zəng vurub dedi ki, Gülarəni telefonun yanında tut, qoy qışqırsın, mən səsini eşidim. (O zaman hələ Gülarə dil açmamışdı.)



Bir dəfə də poçtalyon evə bir məktub gətirdi, üstündə yazılmışdı:

*"Çatacaq Cəfər qızı Gülarəyə"*

O, balaca qızına yazırdı:

"Gülarə!

Barmaqlarını kağızda gördüm... Öpdüm, hər gün öpəcəyəm. Yeyirəm barmaqlarıvı, gözlərivi. Mənə kağız yaz! Dülala, sənə dixli-dixli qağa göndərirəm. (Gülarə, sənə çoxlu-çoxlu şirni göndərirəm.)"

Cəfər gənc nəslin gələcəyinə böyük ümid bağlayırdı. "Sevil" pyesindəki Gündüz surətini, "Almaz"dakı Sürməni çox sevirdi. "Almaz"ın quruluşu zamanı deyirdi:

– Gülarə böyüyən kimi aparacağam onu səhnəyə, Sürməni oynasın.

Lakin Cəfər bu arzusunu görmədi. Ölümündən səkkiz il sonra mən onun arzusunu yerinə yetirmək üçün qızımı Əzizbəyov adına teatra apardım. Balaca Gülarə "Almaz"ın yeni quruluşunda bir-iki dəfə Sürmə rolunda çıxış etdi.

Cəfərin pyeslərindəki qəhrəmanların adlarını ata-analar yeni doğulan uşaqlara verəndə o, çox sevinirdi. Buna görə də bu adları xüsusi bir həvəslə seçir, özü düşünüb təzə adlar tapırdı. Cəfər istəyirdi ki, xalqımızın balaca oğul və qızlarının həyatı Gündüz kimi aydın və işıqlı olsun, onlar böyüyəndə Oqtay təkin elin oğlu olsunlar. Elxan, Qorxmaz, Sevil kimi yeni həyat uğrunda mü-barizə etsinlər, Almaz kimi, Yaşar kimi işləyib yaşasınlar.

Son zamanlar o, uşaqlar haqqında pyes və kino-ssenari yazmaq fikrində idi. Ancaq amansız ölüm bu arzusunu da yerinə yetirməyə imkan vermədi.

Cəfər böyüklərə qarşı da çox mehriban və hörmətcil idi, onlarla uzun-uzadı müsahibələr, gah mübahisə, gah da zarafat etməyi çox sevərdi.

1933-cü ilin yay vaxtları idi. Cəfər tezdən yataqdan qalxıb həyətimizdəki kiçik bağçaya çıxdı. Səhər yuxusu şirin olduğu üçün mən hələ yerimdə uzanmışdım. Bir qədərdən sonra o, əlində qələm-kağız içəri girib: "Ay Sonası, sən hələ yatmısan, mən gedib bir qəzəl də yazıb qurtarmışam" – deyərək, "Gördüm üzünü, bağçada laləm yada düşdü" qəzəlini oxumağa başladı.

Boş vaxtlarında küçəyə çıxar, evlərin qabağına toplaşan qoca kişilərlə söhbət edərdi. Hətta evimizə gələn xarrat, bənna, montyor, daşyonan (o zaman biz indi yaşadığımız evi tikdirirdik) və başqa ustalarla uzun-uzadı danışardı. Yadımdadır, bir dəfə evimizdə işləyən bir rus xarrat Cəfərin qəzetdə verilmiş şəklini görüb soruşdu:

– Sona xanım, bu sizin əriniz deyilmi?

– Özüdür, – dedim.

Xarrat təəccüb etdi:

– Paho, bu ki böyük adam imiş, heç biz bilməmişik. Bizimlə zarafat edir, bizimlə birlikdə işləyir... İnteresno!

Qadınların laylaları, yasxanalarda ağı deyib oxşamaları Cəfəri çox maraqlandırırdı. O, tez-tez anam Zeynəbə güclə laylay oxutdurub ona diqqətlə qulaq asardı. Bibinəvəmiz Sara həmişə bizə gələndə yasxanalarda, toyxanalarda nələr olduğunu danışıb, yeri gələndə bəzi tanış qadınların oyunlarını da çıxarardı. Cəfər onun adını "simsiz teleqraf" qoymuşdu.

Cəfərin məhəllədə gördüyü əhəmiyyətli hadisələr, etdiyi söhbətlər boş-boşuna keçməz, yeni əsərlərində müxtəlif epizodlara, bəzən də müstəqil süjetlərə dönərdi. Məsələn, o "Dilarə" hekayəsinin mövzusunu məhəlləmizdə



baş verən bir hadisədən almışdı. Biz Böyük Salyan küçəsində yaşayırdıq. Yuxarıya hələ tramvay qalxmadığın-dan, adamlar Kommunist küçəsinə piyada gedib-gələrdilər. O vaxtlar küçələrə asfalt döşənməmişdi. 4-cü Təzəpir küçəsinin quruluşu çox pis idi: eniş və dar. Buna görə də qışda oradan keçmək çox çətin idi. O küçəyə "Dardanel" də deyirdilər. Bir dəfə Cəfər evə çox tutqun gəldi. Səbəbini soruşdum. "Ay Sonası, – dedi, – bir kişi qızı qucağında olaraq "Dardanel"dən keçərkən yıxıldı, qıçı sındı. Qıçının sınmasına baxmayaraq, qızını sinəsinə basıb hönkür-hönkür ağlayırdı"... Bir neçə gündən sonra "Dilarə" hekayəsini yazdı.

O, yazacağı əsərlərin nəinki mövzusunu əvvəlcədən fikirləşər, mükəmməl planını tutar, ayrı-ayrı surətlərin daxili aləmini, xarici görkəmini saatlarla fikirləşərdi; hətta onların hansı aktyorlar tərəfindən ifa ediləcəyini də nəzərdə tutardı.

Məsələn, bir gün evə gələrkən mənə dedi ki, Baxşını tapmışam. Mən onun bu sözünə məəttəl qalıb soruşdum:

– Baxşı kimdir, ay Cəfər? Onu hardan tapmısan?

– Eh, Sonası, – dedi, – bilmirsənmi, "1905-ci ildə" pyesindəki Baxşını deyirəm də. Vallah, onu Süleyman Tağızadədən başqa çətin yaradan olsun. Amma, öz aramızdır, Süleymana deyəndə ki Baxşı tar çalır, dayanıb matdım-matdım gözümün içinə baxdı, yazıq-yazıq dedi: "Axı mən tar çala bilmirəm." Mən də ona dedim: "Tar çalmağa nə var ki, öyrənərsən də. Əgər istəyirsən, Baxşını oynayasan, gərək tar çalasan. Tarsız Baxşı olmaz"... O, başını aşağı salıb dərin fikrə getdi. Deyəsən, hərif tar çalmaq arzusunda idi, amma tarı yox idi. Mən Süleymanı Kommunist küçəsindəki musiqi alətləri mağazasına apardım, yaxşı bir tar alıb ona bağışladım. Görəsən, necə Baxşını yaradacaq!..

Cəfər aktyor və rejissorlarla möhkəm dostluq edirdi. Elə gün olmazdı ki, onlardan evimizdə qonaq olmasın. Cəfərin bir yaxşı adəti də var idi: hələ-həlbət nahar vaxtı evdə olardı, özü də tək yox, mütləq üç-dörd dostu ilə birlikdə gələrdi. O, xörəyi tək yeməzdi. Bu adətini bildiyimizdən, hər gün xörəyimizi 5-6 adamlıq artıq bişirərdik.

Böyük səhnə ustalarımız Abbasmirzə Şə-rifzadə, İsmayıl Hidayətzadə, Ülvi Rəcəb, Mərziyə xanım Davudova, Sona xanım Hacıyeva, rejissor Aleksandr Aleksandroviç Tuqanov və başqaları tez-tez evimizə yığışardılar. O vaxtlar rejissor as-sistenti işləyən Məmməd Əlili isə bizim evin daimi sakinlərindən idi. Cəfərin dostları çox idi. Əgər mən desəm ki, onun kiçik otağı, bir növ, sənət tür-bəsi idi, səhv etmərəm. Bu evə o zamanın sənət-karlarından kimlər gəlib-getməmişdir! Bu dostlar, əsl sənət dostları, teatr mücahidləri idilər! Necə də şirin söhbətlər, qızğın mübahisələr edirdilər. O günlər heç vaxt xatirimdən çıxmaz.

Cəfərə böyük məhəbbət bəsləyən unudul-maz sənətkarımız Abbasmirzə Şərifzadə bir gün ona dedi:

– Cəfər, kaş Allah sənə yüz il ömür versin, sən də yeni-yeni pyeslər yazasan. O zaman mən nə qə-dər surətlər yaradaram!

Cəfər də özünəməxsus dərin gülüşlə ona belə cavab verdi:

– Abbas, aşna, deyəsən, sən məndən çox yaşamaq istəyirsən. Yox, paxıllıq etmirəm, təki sən çox yaşayasan. Sənin ömrünün uzun olması, mənim obrazlarımın da çox yaşaması deməkdir.

Bizim ailənin ən yaxın dostlarından biri də Hidayətzadələr ailəsi idi. İsmayıl, Cəfərin qardaşlığı olduğu



kimi, onun həyat yoldaşı Soltan xanım da mənim bacılığımdır.

Qocaman "Molla Nəsrəddin"çi, mühərrir və teatr xadimi Mirzə Məmmədəli Sidqi də Cəfərin yaxın dostu idi. "Sevil" pyesindəki Mirzə Məmmədəli surətini Cəfər bu orijinal insana həsr etmişdir. Mənə elə gəlir ki, Cəfər teatr kollektivi ilə yaxın olmasaydı, bəlkə də yaratdığı səhnə surət-ləri bu qədər parlaq çıxmazdı.

O, təkcə Azərbaycan teatrı ilə deyil, Bakıda olan rus, erməni və başqa teatrlarla da yaxından əlaqə saxlayır, onların da görkəmli səhnə xadimləri ilə dostluq edirdi. O, bu teatrların yalnız müəllifi deyil, eyni zamanda azarkeş tamaşaçısı idi.

Bir dəfə Azərbaycan teatrından zəng edib onu xəbər aldılar. Cavab verdim ki, evdə yoxdur. Gecə evə qayıdanda soruşdum:

– Yenə harada idin, ay Cəfər?

– Erməni teatrına getmişdim, – dedi.

Mən gülə-gülə ona bir də sual verdim:

– Balam, sən lap ağ elədin. Azərbaycan teatrına gedirsən – buna sözümüz yox; rus teatrına gedirsən – yenə sözümüz yox, çünki rus dilini bilirsən. Yaxşı bəs erməni teatrının sənə nə dəxli var ki, ermənicə bilirsən?

Cəfər də gülə-gülə cavab verdi:

– Sonası, sən də lap qəribəsən ha! Məgər teatra baxmaq dil bilməklədir? İstəyir lap ingilis dilində olsun, sənətin kökü birdir. Aktyor oyununa, rejissor işinə baxmaq üçün dil lazım deyil ki. Bir də, mən pyeslərin məzmununu bilirəm axı...

Sonralar bildim ki, Cəfər belə eləməkdə haqlı imiş. Xüsusən o, bizim dram teatrında rejissor işlərkən səhnə quruluşu ilə daha çox maraqlanırdı. Təsadüfi deyil ki, ömrünün sonuna yaxın, gənc qüvvələrdən yeni bir teatr

yaratmaq fikrinə düşmüşdü, hətta bu məqsədlə İsmayıl Hidayətzadə ilə bir əhdnamə də bağlamışdı.

Necə oldusa, soruşdum:

– Rejissorluq çətindir, yoxsa pyes yazmaq?

– Hər ikisi çətindir, amma rejissorluq mənim üçün daha çətindir, – dedi. – Rejissorluq böyük sənətdir, bu hələ bizdə ağıllı-başlı inkişaf etməmişdir. Elə bilirlər ki, rejissorluq halvadır. Yox, Sonası, rejissor da dramaturq kimi bir sənətkardır. Rejissor var əsəri öldürər, rejissor da var əsəri qaldırar. Amma indi, öz aramızdır, əsər də var, əsər də...

O, öz yazıları kimi tamaşaya qoyduğu pyeslərə də bütün qüvvəsini verir, necə deyərlər, canını səhnədə qoyurdu. Buna görədir ki, teatrda rejissor işlərkən evə çox yorğun gəlirdi.

Bir dəfə dedim:

– Cəfər, əsər yazmaq bundan asan imiş. Gəlsənə, bu rejissorluqdan əl çəkəsən!

Belə cavab verdi:

– Yox, Sonası, sənə zarafat gəlməsin. Mən öz əsərimi tamaşaya qoyuram. Sonra da... Yox, daha mən rejissorluqdan əl çəkə bilmərəm.

Bəlkə də elə bunlara görə onun yaxın dostları arasında teatr və incəsənət xadimləri, yazıçılardan daha çox idi. Mən, əlbəttə, o dostları nəzərdə tuturam ki, tez-tez bizim evdə, Cəfərin süfrəsi başında olardılar. Görünür, təsadüfi deyilmiş ki, o, gecə-gündüz teatrda düşüb qaldığı halda, Yazıçılar İttifaqına çox nadir hallarda gedərdi. Ümumiyyətlə isə Cəfər bütün yazıçılara hörmət və mehribanlıq göstərər, onlardan da qarşılıqlı surətdə eyni münasibət görərdi. Özündən gənc olan dramaturq, şair və nasirlərə, yəni ədəbiyyatımızın yeni nəslinə xüsusi qayğı göstərərdi. İstər yaşlı, istərsə də, gənc nəslin nümayəndələrinə öz obyektiv



düşüncəsi ilə qiymət verər, onların əsərləri haqqında fikirlərini pərdələmədən üzlərinə söylər, açıq-saçıq mətbuatda yazardı.

Məsələn, yazıçı Seyid Hüseyn ilə o, uzun müddət qəzet redaksiyalarında birlikdə çalışmışdı, yaşca ondan kiçik olsa da, dostu idi. Cəfər "Sevil" pyesini yazmazdan əvvəl onun süjetini Seyid Hü-seynlə danışmışdı. Bundan bir müddət sonra "İnqilab və Mədəniyyət" jurnalında dərc olunan "İki həyat arasında" hekayəsinin məzmunun "Sevil"ə çox oxşadığını görən Cəfər Seyid Hüseynə demişdi: "Axı bu əsərin məzmununu mən sənə danışmı-şam və demişəm ki, bu mövzuda pyes yazıram. İndi camaat elə düşünəcək ki, Cəfər Cabbarlı bunu Seyid Hüseyndən oğurlayıb. Xahiş edirəm, bu barədə mətbuatda çıxış edəsən." Seyid Hüseyn qardaş da, hekayənin ikinci hissəsi jurnalda çap olunanda, qeyd etmişdi ki, həmin mövzunu ona Cəfər Cabbarlı danışıb.

Başqa bir misal: qohumlarımızdan, gənc bir ədəbiyyat həvəskarı bir pyes yazmışdı. Cəfərə oxudu. Cəfər pyesi möhkəm tənqid edib qəti bildirdi ki, bu şəkildə onu səhnəyə çıxarmaq olmaz. Müəllif pərt halda gedəndən sonra mən dedim:

– Ay Cəfər, cavan oğlandır, təzə-təzə yazır, neyçün ürəyini sındırdın, pyesini alıb düzəldəydin, tamaşaya qoyaydılar.

O, ciddi surətdə dedi:

– Axı belə olmaz, Sonası. Mən əsəri yalandan tərifləsəm, müəllifi aldatmış olaram; bu da ki, ona zərərdir. Əlbəttə, mən onun üçün təzə bir pyes yaza bilərəm. Ancaq bunun nə onun özünə, nə də teatra bir xeyri olar. İndi isə ona nöqsanlarını gös-tərdim. Qüvvəsi çatarsa, özü düzəldər; bacarmazsa, yazmasa yaxşıdır. Gənc yazıçıya ən yaxşı kömək – elə budur.

Başqa bir gənc həmyerlimizinsə həqiqi istedadını Cəfər yüksək qiymətləndirirdi. Bu gənc – Mikayıl Müşfiq idi. Bir dəfə küçədə onunla görüşdük. Ayrılandan sonra Cəfərdən soruşdum:

– Mikayıl necə yazır?

O, tərəddüdsüz cavab verdi:

– Mikayılın coşqun təbi var; o, nadir bir istedaddır. Müşfiq böyük şair olacaq...

Cəfər başqalarının yaradıcılığına olduğu kimi şəxsi yaradıcılığına da çox tələbkar idi. Bəlkə də elə buna görə o, həmişə özünü həvəskar adlandırırdı. Ömrünün sonuna yaxın artıq təkcə Azər-baycanda deyil, bütün Sovetlər ölkəsində tanınmış bir dramaturq ikən, ona belə bir sual verdim:

– Ay Cəfər, hamı Yazıçılar İttifaqının üzvüdür, bəs sən niyə oraya daxil olmursan?

O, gülə-gülə dedi:

– Oraya böyük yazıçıları qəbul eləyirlər. Mən hələ nə yazmışam ki, yazıçı olum? Qoy bir az da yazım, sonra bu barədə fikirləşərik.

Bu təvazökarlığına baxmayaraq, ömrünün son ilində – 1934-cü ilin martında Cəfəri Azərbaycan Sovet Yazıçılar İttifaqına üzv qəbul etdilər. Həmin ilin avqustunda isə o, Ümumittifaq Sovet Yazıçılarının I qurultayında İttifaqın idarə heyətinə və rəyasət heyətinə üzv seçildi.

Qurultaydan qayıdanda onu təbrik etdim:

– Ay Cəfər, bəs deyirsən yazıçı deyiləm, amma gör səni haraya seçiblər.

– Hə, Sonası, indi deyəsən, bir balaca yazıçıya oxşayıram, – dedi.



Həmin ildə Bakı əməkçiləri onu Bakı Sove-tinə deputat seçmişdir. İlk iclasdan nahara gec gəldi. Mən öz adətimcə yenə gileyləndim:

– Az işin var idi, birisi də bu yandan əlavə olundu.

Cəfər yarıhənək-yarıgerçək dedi:

– Bu daha hökumət işidir, Sonası, deputatlıqla zarafat eləmək olmaz. Sevil demişkən, Balaş daha böyüklərdən olub ey...

O, Bakı Sovetinin deputatı olandan sonra evimizə gələnlərin sayı daha da çoxaldı. Seçicilərin hərəsi bir iş üçün ona müraciət edirdi: kimi mənzil, kimi iş üçün, kimisi də elə-belə, sual-cavaba gəlirdi. Cəfər də hamı ilə məşğul olur, bütün gələnləri razı yola salmağa çalışırdı.

Belə vaxtlarda ona deyirdim:

– Cəfər, deyəsən, Baksoveti köçürmüsən evimizə, Mirzə Səməndər demişkən, şikayətçilərin biri gedir, o biri gəlir.

O da belə cavab verirdi:

– Millətə qulluq etmək lazımdır, Sonası. Yaxşı ki, qapımızı tanıyırlar. Bir də, axı sən bilirsən ki, mən qonaq-qaranı çox sevirəm. Nəyə lazım o ev ki, gəlib-gedəni olmasın!







Bütün bunlara baxmayaraq, son zamanlar əsəbi görünürdü. Daxilindən keçənləri büruzə verməməyə çalışsa da, hiss edirdim ki, onsuz da xəstə olan ürəyi nədənsə daha çox sıxılır. Əlbəttə, qabaqlarda da onda belə hallar olurdu. Lakin indi bu vəziyyəti, az qala, daimi bir şəkil alırdı. Səbəbini soruşurdum, gizlədirdi. "Fikir vermə, Sonası, bir elə şey yoxdur" – deyib mənə təsəlli verirdi. Nəhayət, bir gün çox əsəbi halda evə gəldi, mən ağzımı açmağa macal tapmamış, özü birdən-birə dedi:

– Daha teatra getməyəcəyəm!

Düzü, çox təəccüb etdim: doğma evi, ailəsi qədər sevdiyi bir kollektivdən ayrılmasına səbəb nə idi?

– Daha bəsdir dözdüm, – dedi. – O teatr, o da onlar, özləri bilsinlər! Mən isə kinostudiyaya keçirəm...

Sonradan öyrəndim ki, Cəfərin bədxahları onun əleyhinə mükəmməl bir intriqa yaradıblar: guya Cabbarlı Azərbaycan Dram Teatrını monopolyaya götürübmüş. Hətta ölümündən cəmisi bir ay əvvəl o, bu haqda Sovet Yazıçıları İttifaqının təşkilat komitəsinə rus dilində belə bir ərizə də yazıbmış:

"Noyabrın 25-də ADDT əməkdaşlarının istehsalat müşavirəsində aktyorlardan biri rəsmi surətdə bildirmişdir: "Proletar yazıçıları deyirlər ki, nə qədər Cəfər teatrdadır və yazır, biz oraya pyes verməyəcəyik." Mən belə hesab edirəm ki, bu, yazıçılara qarşı provokasiya və böhtandır. İşlədiyim təşkilatın üzvləri tərəfindən yaradıcılıq rəqabətinin məni inzibati cəhətdən sıxışdırmağa keçirilməsi yolverilməzdir. Hər halda mən təşkilat komitəsinə müraciət edərək, sovet yazıçılarının ayrı-ayrı üzvləri, yaxud qrupları tərəfindən belə

bir iddianın olub-olmadığını aydınlaşdırmağı xahiş edirəm. Əgər bu doğru isə, mən dərhal teatrı tərk etməyə hazıram, təki onlar yazsınlar. Mən başqa müəssisələrə: 14 il-dən bəri kimsənin heç bir şey yazmadığı və mə-nim bu il iki libretto yazmalı olduğum operaya; heç vaxt işləmədiyim və buna baxmayaraq, repertuarını mənim "1905-ci ildə", "Almaz", "Yaşar", "Sevil" pyeslərim təşkil edən rus işçi teatrına; 14 il-dən bəri heç kimsənin heç nə etmədiyi, bircə ədəd də olsun quruluş verməyən, mən isə özümü orada işləməyə borclu saydığım Azərkinoya; repertuarının 80%-i "Sevil", "1905-ci ildə", "Yaşar" pyeslərimdən ibarət olan erməni teatrına işləməyə gedərəm; habelə pyeslərimin əksəriyyəti oynanılan özbək, türkmən, tacik, tatar teatrlarında, fəhlə klublarında işlərəm. Nəhayət, tamamilə yazmaya bilərəm. Təki o yoldaşlar yazsınlar.

Təşkilat komitəsindən xahiş edirəm ki, həmin məsələyə öz münasibətini aydınlaşdırsın."

Beləliklə də, Cəfər tamamilə teatrdan çıxıb Bakı kinostudiyasında daimi işə keçdi.

Bayaq dediyim kimi o, bundan qabaq da kinoda çalışırdı. Necə deyərlər, bu ştatdankənar iş bir neçə il əvvəl "Sevil" kinofilmi üzərində başlanmışdı. Cəfərin ssenarisi üzrə çəkilən həmin filmdə müəllif, məşhur kinorejissoru Amo Bek-Nazarov ilə birlikdə ikinci rejissor kimi işləyirdi. Cəfər hər hansı yaradıcılıq işində olduğu kimi, burada da bütün varlığı ilə yaşayırdı. Xüsusən o, ekranda Sevil rolunu canlandıracaq aktrisanı tapmaq üçün nə qədər əzab çəkdi, onu yetişdirmək üçün nə qədər əmək sərf etdi. Cəfər istəyirdi ki, filmdə Sevili mütləq azərbaycanlı qızı oynasın. O, bu arzusuna da özünəməxsus bir inadkarlıqla nail ol-muşdu. Hətta başına qəribə macəralar da gəlmişdi. Onun "Gülər" hekayəsi bu mövzuya həsr olunmuşdur.



Kinostudiyada rejissor assistenti işləyən Məmməd Əlili ilə birlikdə günlərlə şəhəri gəzirdilər, orada-burada gördükləri və Sevil rolu üçün münasib saydıqları gənc azərbaycanlı qızlarının ardınca düşərək, onların evlərinə gedir, valideyn-lərini "dilə tutaraq" qızlarının filmə çəkilməsinə razılıq vermələrini xahiş edirdilər. Lakin o zaman xeyli müddət buna nail ola bilmirdilər. Hər gün evə çox üzgün dönür və təəssüflə deyirdi:

– Yenə də Sevili tapa bilmədim. Lap əldən-ayaqdan düşmüşəm. Bircə tezliklə o gün gələydi ki, ata-analarımız öz qızlarının əllərindən tutub özləri kinostudiyaya gətirəydilər, filmlərə çəkdirəydilər.

Mən ona dedim:

– Niyə özünü bu qədər əldən salırsan? Qoy elə kinoda da Sevili Mərziyə xanım oynasın da!

– Mümkün deyil, – dedi, – teatr başqadır, kino başqa!

Bir neçə gün sonra yenə evə fikirli gəldi. Qanıqaralığının səbəbini bildiyimdən soruşdum:

– Nə oldu, Cəfər, yenə Sevili tapa bilmədin?

– Tapmışdım, ancaq əlimdən çıxdı. Lap bir azca qalmışdı, – deyə söhbətə başladı.

Məlum oldu ki, o, "Təyyarə" kinoteatrında[1] uzun boylu, qalın hörüklü, çatma qaşlı cavan bir qıza rast gəlmiş, seans qurtardıqdan sonra onu addımbaaddım izləyərək, evlərinə qədər getmiş, qızın atası ilə söhbət etmişdir. Lakin ilk görüş zamanı kişinin razılığını ala bilməmişdir. Qız Cəfərə dərin təsir bağışlamışdı. Elə oturub-durub deyirdi:

– Sonası, əgər o qızın icazəsini ala bilsəm, filmdə gözəl bir Sevil surəti yaradarıq.

[1] İndi Bakı univermağı (köhnəsi)

Cəfər inadından dönmədi. Ertəsi gün, soraqlaşıb onların ailəsinə yaxın bir adam tapdı və qızın atası Mirzağa kişi ilə yenə söhbətə getdi. Bir neçə gün sonra sevinclə evə gəlib dedi:

– Axır ki, hər şey düzəldi! Sağ olsun Mirzağa kişi, çox həngamədən sonra İzzət xanımın kinoya çəkilməsinə razılıq verdi.

Bu qız – o vaxt Azərbaycan Neft İnstitutunun tələbəsi, bu gün isə texnika elmləri doktoru, professor İzzət xanım Orucova idi. Cəfər hər gün özü onu faytonla evlərindən kinostudiyaya aparıb-gətirirdi.

Tez-tez ondan söhbət açıb deyirdi ki, mən belə bir istedada malik olan qız görməmişəm. Məncə başqa bir qız Sevili ekranda onun kimi canlandıra bilməz. O, inadla məşq edir, özü üçün tamamilə təzə olan, çətin aktyorluq sənətinə məharətlə yiyələnir. Xüsusən, Sevilin çadranı atmaq səhnəsini mən istəyən kimi verə bilmək üçün bilsən, nə qədər çalışır.

Bir dəfə soruşdum:

– Cəfər, nə oldu, həmin səhnəni çəkə bildinmi?

O, kədər içərisində mənə cavab verdi:

– Yox, hələ yox... Nə qədər çalışıramsa, Sevilin çadranı başından atması süni çıxır. Axı mən o qızı necə danlayım ki, gənc yaşında bir dəfə də olsun başına çadra örtməmişdir?.. – Sonra gülüb əlavə etdi: – Bilirsənmi, Sonası, srağagün İzzət xanımı evə gətirəndə anası Rübabə xala mənə nə dedi: "Ay oğul, bu nə lovdur məni salmısan? Daha evdə halavatımız yoxdur. Qız gündə yüz dəfə çarşafımı başına örtür, sonra yenə tullayır. Heç bilmirəm bu oyunun axırı nə olacaq?" Mən də belə cavab verdim: "Axırı o olacaq ki, çarşafın yırtılacaq, Mirzağa əmi də daha sənin üçün təzə çarşaf



almayacaq. Beləliklə, Sevil ilə bərabər sən də "çadradaloy" eləyəcəksən..." Arvad təəccüb içində yerində donub qaldı.

Nəhayət, "Sevil" filmi çəkilib qurtardı və ekrana çıxdı. Cəfər kinodakı bu ilk işindən hədsiz dərəcədə sevinirdi. Dərhal "Almaz" filminin çəkilişinə başladı. Burada da qəhrəman rolunu, yəni Almazı İzzət xanım oynayırdı. Təəssüf ki, Cəfər bu quruluşu başa çatdıra bilmədi. Amansız ölüm onu bu işindən də vaxtsız ayırdı. Cəfərin sənət dostları "Almaz" filmini Cəfərsiz çəkib qurtardılar və 1935-ci ilin axırında, onun ölümünün birinci ildönümündə işi müvəffəqiyyətlə qurtardıqları haqqında məzarı üstündə raport verdilər.

Əvvəldə qeyd etdiyim kimi, Cəfərin səhhəti o qədər də yaxşı deyildi. Xüsusən son zamanlar lap zəifləmişdi. Uzun illərdən bəri dinclik bilmədən gərgin işləmək öz təsirini göstərmişdi. Buna əlavə olaraq, hətta bu üzgün vaxtında da istirahət etməməsi, xüsusən özünü müalicə etdirməməsi, nəhayət, onu yatağa düşmək dərəcəsinə gətirmişdi. O isə yenə öz işində idi.

1934-cü il dekabr ayının 27-si idi. Axşam saat 5-6 olardı. Qızım Gülarəni həkimə aparmağa hazırlaşırdım. Eyvandan düşərkən Cəfərin iki nəfər kinostudiya işçisi ilə gəldiyini gördüm. Onun köynəyinin yaxası açıq, qalstuku və papağı əlində idi. Üzündə, gözlərində ağır bir əzginlik hiss olu-nurdu. Bərk həyəcanlandım:

– Cəfər, sənə nə olub, yaxanı niyə açmısan?

– Heç bir şey olmamışdır, Sonası, bir az yorğunam, – dedi.

Lakin mən sakit ola bilmədim:

– Yorğunluğun birinci dəfə deyil ki, həmişə yorğun olursan da. Amma indi... bəlkə bir yerin ağrıyır?

– Yox, yox, narahat olma... Kinofabrikada yıxılmışdım, bir az özümü itirdim; dərman verdilər, keçdi. İndi yaxşıyam.

Tez yerini düzəldib, onu yatağa uzatdım. Yarım saat sonra həkim gəldi, müayinə etdi, ürəyinə qulaq asdı. Onun dediyinə görə, Cəfərə bir balaca soyuq dəymişdi. Üç gün evdən çıxmamalı idi. Həkimi yola salarkən Cəfərin ürəyinin vəziyyətini soruşdum və bildiyim ürək xəstəliklərinin hamısını saydım:

– Doktor, – dedim, – ürəyi necədir? Parokdur, rasşireniyedir, qrudnaya jabadır, yoxsa nədir?

O, saydığım xəstəliklərin heç birisi ilə razılaşmayıb:

– Qorxulu bir şey yoxdur, ürəyi bir balaca pereboy verir, – dedi. – Ayağa qalxandan sonra gərək onu rentgenə salaq.

Mən həkimi yola salıb otağa qayıtdıqda Cəfər onunla gəlmiş yoldaşlarına deyirdi:

– Soyuqdəymədir, bir şey yoxdur... Siz "Almaz" üzərində işimizi davam etdirin. Necə olacağını sizə demişəm. Bu vaxt xəstələnməyim heç yaxşı olmadı, bütün işlər tökülüb qaldı. Duran kimi gərək aparatı işə salaq...

Yoldaşları gedərkən Cəfər bir də onlara "Almaz" barəsində bir neçə tapşırıq verdi.

Ertəsi gün evdə qaldı. O birisi gün, yəni dekabrın 29-da özünü bir az yaxşı hiss etdiyini bildirib, kinostudiyaya gedib-getməməsi barədə düşünməyə başladı. Axırda: – Getsəm yaxşıdır, – deyib evdən çıxdı.

"Almaz" filmində Yaxşı rolunda yoxlanılmaq üçün qardaşı qızı Mələyi də özü ilə apardı.

Günortadan sonra evə qayıdarkən yenə qəmgin idi. Yaxşı rolu üçün münasib adam tapmadığından şikayətlənirdi.

– Bəs Mələk necə oldu? – deyə soruşdum.

– Olmadı. Yaşı azdır, bir qədər gənc çıxır, – dedi. – Bir qədər fikirləşdikdən sonra qəti səslə əlavə etdi:

– Nə cür olsa, onu da axtarıb tapacağam!



Dekabrın 30-da səhər Cəfərin halı çox yaxşı idi. Biz ona ürək-dirək verib deyirdik:

– Axı səndə nə var ki! Yüngülcə soyuqlamısan. Beşcə günə tamam sağalıb "Almaz"ın da işlərini yoluna salarsan.

O dərindən ah çəkib kədərlə dedi:

– Eh, işim təkcə "Almaz"la qurtarsaydı, nə vardı ki!..

Həmişə olduğu kimi, bu vaxt da onun əlində bir neçə iş var idi. Hələ 1932-ci ildən "Əfqanıs-tan" pyesini yazmaq fikrinə düşmüşdü, librettosunu da yazıb qurtarmışdı. Lakin "Almaz" və "1905-ci ildə" filmlərinin ssenariləri üzərində işlədiyi üçün bu əsərini yaza bilmədi. "Əfqanıstan"ı bunlardan sonra başlamaq istəyirdi. "Bu, çətin mövzudur, onu yazmaq üçün Əfqanıstana getməliyəm!" – deyirdi. Hətta bu barədə bir ərizə də yazmışdı.

Cəfərin son əsəri "Füruzə" hekayəsidir ki, "Pravda" qəzeti üçün rusca yazmışdır.

...Həmin gün nahara qədər Cəfərin halı yaxşı idi. Nahardan sonra özünü zəif hiss etməyə başladı, bir az əvvəlki nikbin söhbətlərini heç gözləmədiyimiz halda birdən ümidsizlik bürüdü.

– Sonası, – dedi. – Bizim nəsil çox yaşamır və bir də, adam bilsə ki, düz min ildən sonra öləcək, indidən bağrı çatlar. Ancaq nə vaxt öləcəyini bilmədiyindən ümidlə yaşayır...

Dərhal söhbəti dəyişdim. Ancaq o, çox fikirli idi. Nə qədər təsəlli verirdiksə, ürəyi açılmırdı. Həkim çağırmaq istədim. "Eh, qaya uçan günü toz qopacaq", – deyə razı olmadı.

Axşamçağı bizim təkidimizlə uzanıb yatdı və saat doqquzda onu oyatmağımı tapşırdı. Saat doqquzda otağına girdim. O isə artıq oyanmışdı. Qalxdı, geyindi, həyətə çıxıb bir az gəzindi. Haraya isə getmək fikrində idi. İçəri girib bir neçə damcı dərman istədi. Törə də bizdə idi. Cəfər çar-

payının kənarında oturub bir qədər fikrə getdi və birdən dilləndi:

– Bilirsiniz nə var: indicə yatmışdım, yuxuda gördüm ki, ölmüşəm, məni aparırlar, özüm də ayığam. Siz ağlayırsınız, mən isə sizə: "Ağlamayın" demək istəyirəm, amma deyə bilmirəm. Axırda bütün qüvvəmi yığıb sizə dedim: "Ağlamayın, ölməmişəm!.."– Bir an susub əlavə etdi: – Əgər işdir, birdən ölüb-eləsəm, uşaqlardan muğayat olun...

Mən zarafata salıb dedim:

– Yuxuda ölmək – ölməməkdir, ağlamaq da – gülmək.

Bu sözümə özü də güldü.

Onun razı olmamasına baxmayaraq, mən həkimə zəng vurdum. Evdə yox idi. Saat on olardı. Cəfər soyunub yatağına girdi və üstünü bərk örtdürüb yatdı. Saat on ikidə, ailə yatarkən o, sakit-sakit yuxulayırdı.

Gecənin bir vaxtı sanki məni yuxudan oyatdılar. Bir az yerimin içində oyaq qaldım. Birdən, elə bil, evin qaranlığı məni vahiməyə saldı. Tez Cəfəri çağırmağa başladım. Ondan cavab almadım. Cəfər çox sayıq yatardı və həmişə belə hallarda səsimə səs verərdi. Bir az da bərkdən çağırdım, yenə cavab almadım. Onun zarafat etdiyini və məni qorxutmaq istədiyini düşünüb ayağa qalxdım və təzədən çağırdım. Yenə də ondan səs çıxmadı.

İşığı yandırdım, onun yatağı üzərinə əyildim. Sanki bərk yatmışdı. Üzü gülümsər bir vəziyyətdə idi, gözləri yumulu idi və hər gözünün kənarında bir damla yaş parıldayırdı. Gözlərimə inanmadım. "Bəlkə ürəyi xarab olmuşdur", – deyə düşündüm. Onu diksindirb oyatmamaq üçün yavaşca gedib anamı çağırdım. Zeynəb tələsik gəlib Cəfərin biləyini əlinə aldı və arvadın rəngi sapsarı saraldı. O, ağlar gözlərini üzümə dikəndə birdən mən fəlakəti dərk



edərək, qeyri-iradi həyətə atıldım, covğun içində təlaşla çığırdım:

– Ey vayy!..

Və öz səsimdən qulaqlarım tutuldu, gözlərim yumuldu. Sonra nələr olduğu yadıma gəlmir. Guya dəhşətli bir yuxu içində idim.

O məşum gecə – 1934-cü il dekabrın 30-dan 31-nə keçən gecə idi.

Cəfər 35, mən 29 il yaşamışdım. Oğlumuz Aydının 10, qızımız Gülarənin 4 yaşı var idi o vaxt.

Cəfərin mənim üçün qoyub getdiyi xəzinə – bu iki uşaq idi.

Öz xalqı üçün də o, qiymətli dəfinə qoymuşdur – əsərlərini.

Minnətdaram xalqımıza ki, Cəfərin mirasını göz bəbəyi kimi qoruyur.

Mən də onun iki yadigarını iki gözüm kimi qoruduğum üçün, onları Cəfərin istədiyi kimi böyütdüyüm üçün, üstlərində heç bir yad nəfəs əsmədən ərsəyə çatdırdığım üçün özümə təskinlik verirəm.

Mən sizin hamınıza xalqımızı Cəfər kimi sevməyi, Vətənimizə onun kimi xidmət etməyi arzulayıram. Taleyimiz yalnız bir şeydə Cəfərə oxşamasın – onun kimi az yaşamayın. Ömrünüz uzun, canınız həmişə sağlam olsun!



*Cəfər Cabbarlının dəfni*



**SONA CABBARLI**

# ONU KİM UNUDAR

*Hədəf Nəşrlərinin "XAN" xatirə ədəbiyyatı silsiləsi*

Çapa imzalanıb: 12.06.2014
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 10
Sifariş № 009

mətbəəsində çap olunub

Qiyməti: 3 manat

## "XAN" XATİRƏ ƏDƏBİYYATI SİLSİLƏSİNDƏN NƏŞRLƏRİMİZ

Azf-290073




**BU SİLSİLƏDƏN XARİCİ XATİRƏ ƏDƏBİYYATI KİTABLARI NƏŞRƏ HAZIRLANIR.**

Kitabların onlayn satış ünvanı
www.kitabevim.az
Mütaliənizin ən rahat ünvanı!